**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NİGAR FƏRƏC qızı FƏRƏCZADƏ**

# NORVEÇ və AZƏRBAYCAN MULTİKULTURALİZM MODELLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**İxtisas: HSM - 060211 – Regionşünaslıq ( Skandinaviya üzrə)**

**Magistr elmi dərəcəsi almaq üçün tədqim edilmiş**

**DİSSERTASİYA**

Elmi rəhbər:

Vüsalə Elşad qızı Əfəndiyeva

Tarix elmləri üzrə fəlsəfə doktoru

**BAKI 2022**

# M Ü N D Ə R İ C A T

**GİRİŞ...................................................................................................................3-7**

**I FƏSİL. Azərbaycan və Norveçdə multikulturalizmin formalaşması və inkişafı.........................................................................................................8-42**

1.1 Multikulturalizmin ideya qaynaqları və tarixi inkişafı....................................8-23

1.2Azərbaycanda dini və etnik müxtəliflik,multikulturalizm ənənələri............23-34

1.3Norveçdə dini və etnik müxtəliflik, multikulturalizm ənənələri…………….34-42

**II FƏSİL. Norveç və Azərbaycan multikulturalizm modellərinin oxşar və fərqli cəhətləri………………………………………………………………….43-65**

2.1Azərbaycan dövlətinin multikultural siyasəti.............................................…43-52

2.2Norveç dövlətinin multikultural siyasəti...................................................…52-59

2.3Azərbaycan və Norveç multikulturalizminin müasir vəziyyəti: problemlər və perspektivlər........................................................................................…..59-65

**NƏTİCƏ……………………………………………………………………66-68**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT…………………………………….....69-77**

# GİRİŞ

**Mövzunun aktuallığı**. Müasir dünyada getdikcə dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər hər bir xalqın milli mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirib. Müxtəlif istiqamətlərdə dövlətlərin yaxınlaşmasını şərtləndirən qloballaşma prosesi və onunla bağlı meyarlar insan hüquqlarına birbaşa olaraq təsir göstərir.

Qloballaşma dövründə inkişaf edən hər bir ölkənin dünyaya inteqrasiyası zamanı, onların vətəndaşları arasında qarşılıqlı əlaqələrin qurulması tələb olunur. Cəmiyyətdəki fərdlər həm öz, həm də digər insanların milli-mədəni xüsusiyyətlərini zəif mənimsədikləri və yaxud digər mədəniyyətlərə inteqrasiya olduqda öz mədəniyyətlərini unutduqları üçün mədəniyyətlərarası sivilizasiyanın öyrənilməsi məsələsi aktuallaşdı.

Müasir dövrdə yaranmış vəziyyət etnik-milli dözümlülüyün, habelə tolerantlıq və multikulturalizm kimi dəyərlərin bəşəriyyət üçün önəmini daha da artırır. Xüsusən də multikulturalizm bu gün fərqliliyi zənginliyə, müzakirələri inkişafa, fərdiyyətçiliyi harmoniyaya aparan əsas amillərdən biri kimi çıxış edir.

Multikulturalizm adlandırılan etnik müxtəlifliyin hüquqi və siyasi birliyi haqqında düşüncələr Qərbdə etnik və irqi iyerarxiyanın köhnə formalarını vətəndaşlığın yeni demokratik forması ilə əvəz etmək üçün meydana gəlmişdi. Son qırx ildə etnik müxtəlifliyin hüquqi və siyasi uyğunlaşdırılması ilə bağlı düşüncələr dünyada yayılmışdır. Multikulturalizm həm müasir demokratik ölkələrdə mədəni plüralizm reallığına cavab, həm də keçmişdə mədəni qrupların ayrı-seçkilik və təzyiqlərini kompensasiya etmək vasitəsidir.

Multikulturalizmdən irəli gələn inteqrasiya və interkulturalizm anlayışı son vaxtlar xüsusilə miqrasiya axınının yüksək olduğu ölkələrdə çox vurğulanan anlayışa çevrilib. Xüsusilə, multikulturalizm hələ də Avropa ölkələrində əsas müzakirə mövzularından biridir. Bu gün müzakirə mövzularının artması nəticəsində bütün dünyada ayrı-ayrı fərdlərin və qrupların öz etnik mənsubiyyətlərini üzə çıxarmaq, təbliğ etmək və qoruyub saxlamaq meylinin artması dissertasiya işinin aktualığına səbəb olur.

Norveç insan hüquqları və azadlıqları baxımından Avropanın qabaqcıl ölkəsi kimi qəbul edilir. Son illərdə Norveç dəfələrlə Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı Hesabatında "yaşamaq üçün ən yaxşı ölkə" olaraq seçilib. Bu gün iqtisadi şəraiti, həyat səviyyəsinə görə dünyanın ən zəngin və inkişaf etmiş ölkələrindən biri kimi sayılır. Norveçdə multikulturalizm milli və hətta dövlət səviyyəsində tətbiq olunur. Ölkədə multikulturalizmi təşviq edən hökümət siyasəti mövcuddur. Demokratiya, azadlıq və tolerantlıq mühitinin yuxarı səviyyədə olması immiqrantların Norveçi seçməsinə səbəb olur. Ölkə işsiz və ya işləmək iqtidarında olmayan insanların layiqli həyat sürə bilmələri üçün onlara dəstək verilməsini təmin edən dünyanın ən yaxşı sosail təminat sistemlərindən birinə malikdir. Norveçin immiqrantların qəbulu ilə çoxmədəniyyətli cəmiyyətə sahib olması və bu gün multikultural cəmiyyətlərinin inkişafı üçün atdığı addımlar ölkədə multikulturalizm məsələsinin aktuallığını artırır.

Etnomədəni rəngarəngliyi ilə seçilən Azərbaycanda xalqlar və dinlər arasında əlaqələr, bu gün tolerantlıq adlandırdığımız tarixi birgəyaşayış prinsipləri əsrlərdən bəri formalaşmış ənənələrə, qarşılıqlı hörmət, etimad və əməkdaşlığa söykənir. Azərbaycan prezidenti İlham Əliyevin daim vurğuladığı kimi, "Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir" (1,s.159). Bu sitat özündə dərin mənanı, Azərbaycan cəmiyyətinin tarixi təcrübəsi ilə cilalanmış, təkmilləşdirilmiş etnomədəni münasibətlər prinsiplərini, xalqlar və dinlər arasında yüzilliklər boyu formalaşmış ənənəvi və unikal birgəyaşayış modelini qətiyyətlə və tam şəkildə özündə əks etdirir. Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilən tədbirlər ölkənin beynəxalq arenada nüfuzunu artırmaqla yanaşı, xalqın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəni mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir.

Qloballaşma nəticəsində dünyada etnik-mədəni müxtəlifliklərin artması, ölkələrin bu sahədə düzgün siyasət seçmə cəhdləri mövzunun aktuallığını artıraraq tədqiq edilməsinə şərait yaradır. Azərbaycanın tarix boyunca yeritdiyi uğurlu multikulturalizm siyasəti və Norveçin bu sahədə əldə etdiyi müvəffəqiyyətlər

dissertasiya işini aktuallaşdıraraq, bu məsələlərin elmi cəhətdən tədqiqinin müsbət xarakterli olduğunu göstərir.

**Problemin öyrənilmə dərəcəsi.** Norveç və Azərbaycan multikulturalizm modellərinin müqayisəli təhlilinin elmi tədqiqi bu günə qədər Azərbaycanda ayrıca tədqiqat obyekti olmadığı üçün daha çox xarici ədəbiyyat bazasından istifadə edilmişdir.

Tədqiqat işi araşdırılarkən Azərbaycan, türk və ingilis dillərində mənbə və əsərlər istifadə olunmuşdur. Akademik Abdulla Kamal və professor Nəcəfov Etibarın müəllifləri olduğu, Azərbaycan multikulturalizminin tarixi kökləri, inkişaf tarixi barədə məlumatı özündə cəmləşdirən 2017-ci il nəşrli "Azərbaycan multikulturalizmi" adlı ali məktəblər üçün dərsliyindən tədqiqat işi zamanı multikulturalizm məhfumunu izah etmək, Azərbaycandakı etnik-mədəni müxtəlifliklərin vəziyyətini aydınlaşdırmaq üçün istifadə olunmuşdur.

Azərbaycanda yaşayan etnik-mədəni müxtəlifliklərin tarixi köklərinin öyrənilməsində, ölkənin həyata keçirtdiyi multikulturalizm siyasətinin tədqiq olunmasında 2012-ci il nəşrli Quliyeva Səmayənin müəllifi olduğu "Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu", 2015-ci il nəşrli Niftiyev Niyazın müəllifliyi ilə yazılmış "Azərbaycanda birgəyaşayış və multikulturalizm" kimi Azərbaycanda yaşayan xalqlar barədə geniş məlumatı özündə cəmləşdirən araşdırmalardan istifadə olunmuşdur.

Tədqiqat prosesinə cəlb olunan əsərlərin bir qismi Norveçdə etnik-mədəni müxtəlifliklərin inkişaf tarixini, ölkənin multikultural sahədə yerinə yetirdiyi siyasəti əks etdirir. Bu baxımdan Mehmet Faruk Ertekinin 2015-ci ildə İHH İnsan Hak ve Hüriyyetleri Araşdırmalar Merkezi tərəfindən dərc olunmuş "Norveç ve İslamiyet", Zehra Gelicinin 2020-ci ildə Değerler Eğitimi Dergisində dərc olunan "Norveç'te din eğitimi" məqaləsini Norveçdə irqi, dini, mədəni müxtəlifliklər barədə geniş məlumatı əks etdirən mənbələr kimi göstərmək olar.

Tədqiqat işində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilən bir çox qanun və fərmanları öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin 15 may 2014 tarixli Bakı Beynəlxalq Mulıtikulturalizm

Mərkəzinin yaradılması ilə bağlı Fərmanı, 10 yanvar 2017-ci il tarixli "2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması" ilə bağlı Sərəncamı tədqiqat prosesində öz əksini tapmışdır.

Norveçin immiqrasiya tarixini əks etdirən Oddbjorn Leirvikin 2014-cü ildə dərc olunan "Muslims in Norway", 2013-cü il Thomas Hylland Eriksen tərəfindən dərc olunmuş "Immigration and National Identity in Norway" adlı məqlələrindən də tədqiqat işində geniş istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanda və Norveçdə mövcud olan multikultural ənənələri tədqiq etmək, bu ənənələrin yaranma tarixini öyrənmək, hər iki ölkə arasında multikultural cəhətdən ortaya çıxan oxşarlıqları və fərqləri araşdırıb, müqayisə etməkdir.

Tədqiqat məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

- Multikulturalizm anlayışının mənasını, tarixini müəyyən etmək;
- Azərbaycanda yaşayan etnik, irqi, dini müxtəlifliklər və onların tarixini müəyyən etmək;
- Norveçdəki etnik müxtəlifliklər, immiqrasiya məsələləri ilə bağlı məsələləri öyrənmək;
- Azərbaycanın multikulturalizm siyasəti və onun tarixini tədqiq etmək;
- Norveçin multikulturalizm siyasəti və onun tarixi inkişafını müəyyən etmək;
- Hər iki ölkə üçün multikulturalizm sahəsində oxşar və fərqli cəhətləri araşdırmaq.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində məsələ ilə bağlı irəli sürülən fikir və təkliflər əsasında yeni tədqiqat istiqamətlərini müəyyənləşdirmək mümkündür. Tədqiqat işində əldə edilən nəticələrdən məsələ ilə bağlı yeni tədqiqatların aparılmasında faydalanmaq olar. Dissertasiya materiallarından tədris vəsaitlərinin hazırlanması prosesində istifadə etmək olar.

**Tədqiqatın metodları.** Tədqiqat işində tarixi metod vasitəsi ilə multikulturalizm anlayışının inkişaf tarixi öyrənilmişdir. Azərbaycan və Norveçdə mövcud olan etnik-mədəni müxtəlifliklərin bu günki vəziyyətini şərtləndirən amillər də tarixi metod vasitəsi ilə tədqiq edilmişdir. Tədqiqatın əsasını təşkil edən Norveç və Azərbaycan multikulturalizm modellərinin müqayisəsi üçün sistemli və müqayisə metodlarından

istifadə edilmişdir.

**Tədqiqatın mənbələri.** Tədqiqat işində multikulturalizmə aid Azərbaycan, türk, ingilis dillərində müxtəlif dərslik və elmi əsərlərdən, müxtəlif məqalələrdən istifadə olunmuşdur. Norveç və Azərbaycanın dini və etnik müxtəlifliklərinə, multikulturalizminə aid kitablara, məqalələrə müraciət olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:

- Multikulturalizmin tarixi inkişafını müəyyən etmək;
- Azərbaycanda yaşayan etnik, dini, mədəni müxtəlifliklərin müəyyən edilməsi;
- Norveçdə yaşayan etnik, dini, irqi və mədəni müxtəlifliklərin tarixi inkişafının işiqlandırılması;
- Azərbaycanın və Norveçin multikulturalizm siyasətinin işıqlandırılması.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ondadır ki, iş prosesində nəzərdən keçirilən məsələ ilə bağlı yalnız vahid fikir irəli sürülməmiş, həm də hər iki ölkənin məsələ barədə yanaşmaları ətraflı şəkildə təhlil olunmuşdur.

Dissertasiya işində hər iki ölkənin multikultural siyasəti geniş şəkildə tədqiq edilmiş və müqayisələr aparılmışdır.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işinin materialları əsasında bir məqalə, bir tezis çap olunmuşdur:

Gənc tədqiqatçıların elmi əsərləri, 2022 №1'də çap edilmiş "Norveçdə dini və etnik müxtəlifli" və "Heydər Əliyev dövründə Azərbaycanın multikulturalizm siyasəti" adlı tezis elmi jurnallarda çap olunmuşdur.

**İşin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Regionşünaslıq kafedrasında yerinə yetirilmişdir.

**Tədqiqatın strukturu.** Dissertasiyanın strukturu mündəricat, giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. AZƏRBAYCAN və NORVEÇDƏ MULTİKULTURALİZMİN FORMALAŞMASI və İNKİŞAFI

## 1.1 Multikulturalizmin ideya qaynaqları və tarixi inkişafı

İnsan cəmiyyəti qədim zamanlardan bəri birgə yaşayışa əhəmiyyət vermişdir. Bəşər cəmiyyəti yaranandan bugünə kimi onlar birgə yaşamış, qidalanmışlar. İnsanlar arasında olan görünüş fərqlilikləri, dini inanclarının müxtəlifliyi onların birlikdə yaşamasına mane olmamışdır. Nəticədə xalqların dinc yanaşı yaşaması üçün addımlar atılmış, müxtəlif mədəniyyətlərin ünsiyyəti formalaşmışdır.

Bu gün miqrasiya və qloballaşma kimi proseslər multikulturalizm anlayışını meydana çıxardır. Milli dövlət şüuru, qloballaşma və postmodernizm kimi anlayışlara görə sarsılır. Fərdlər və qruplar öz mədəni kimliklərini kəşf etməyə başlayırlar.

Müxtəlif mədəniyyətlərin birgə olması dünyada liberalı siyasətə daha çox diqqət yetirilməsinə səbəb oldu. Müxtəlif qrupların birgə yaşaması, mübahisəsiz və dinc həyat tərzi keçirtmələri üçün yeni konsepsiyalar irəli sürüldü. Bunun nəticəsində ortaya çıxan multikulturalizm qədim tarixə malikdir.

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb etməkdədir. Bu gün artıq daha çox ölkələr, xalqlar, müxtəlif beynəlxalq qurumlar, dini təsisatlar, insanlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı, dövri olaraq baş verən iqtisadi, maliyyə böhranı şəraitində mövcud olmaq, inkişaf etmək, sosial rifahı təmin etmək üçün yeganə yol əməkdaşlıqdır, mədəniyyətlərarası dialoqdur. Bu amillərin də təməli multikulturalizmə nail olmaq, onu yaşam tərzinə çevirmək ilə qoyulur.

Multikulturalizm sözünün mənası “çoxmədəniyyətlilik” deməkdir (21, s.16). Sözün tərkib hissələrinə baxsaq “multi” çox, “kultura” isə ilkin mənada “torpağı becərmək” , “məskən salmaq” , “oturaq həyat tərzi” , sonrakı mənada isə “təhsil” , “iqtisadi inkişaf”, “din” , “incəsənət” və s. kimi anlayışlarla assosiasiya olunur. İlk dəfə e.ə.160-cı ildə Böyük Mark Porsiy Katon tərəfindən əkinçilik haqqında traktatda istifadə olunmuşdur (21,s.11).

Ilkin mənada etnik, mədəni, dini və irqi müxtəlifliklərlə birgə çoxmədəniyyətlilik mənasında işlədilən multikulturalizm terminə kişi və qadın bərabərliyi, cinsi azlıqların hüquqları kimi mövzular da aiddir (21,s.16). Lakin multikulturalizm anlayışı çoxmədəniyyətlilik məfhumunun oxşarı kimi ilk növbədə mədəni, irqi, dini və etnik müxtəliflikləri və onların əsasını təşkil edən dəyərləri özündə birləşdirir. Stenford Ensiklopediyasında mövcud olan məlumata əsasən, multikulturalizm anlayışına bütün qruplar yəni afro-amerikalılar, cinsi azlıqların nümayəndələri, fiziki məhdudiyyətlilər, qadınlar və s. aid edilsə də, tədqiqatçılarının çoxsu bu məfhuma etnik və dini azlıqları əks etdirən immiqrantları yəni mühacirləri, milli azlıqları və yerli xalqları aid edirlər (21,s.17).

Multikulturalizm terminini geniş və dar mənada tərif vermək olar. Geniş mənada multikulturalizm çoxmədəniyyətlilik termininin sinonimi kimi qəbul edilir. Çoxmədəniyyətlilik dedikdə, etnik, dini, irqi və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən dəyərlər başa düşülür. Dar mənada isə cəmiyyətdə olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti, yəni müxtəlifliklərin qorunmasını nəzərdə tutur (1,s.13).

Multikulturalizm termini nisbətən yeni bir anlayış olsa da, multikulturalizmin vəziyyəti yeni bir anlayış deyil. Tarixin heç bir dövründə mədəniyyətlər bir-birindən qopmamış, əlaqəsini kəsməmişdir. Cəmiyyət arasında dostluq, düşmənçilik və digər hallar mövcud olmuşdur.

Multikulturalizm fəlsəfəsinin əsaslandığı 7 mühüm prinsip olmadan sadəcə etnik müxtəlifliyi multikulturalizm adlandırmaq mümkün deyil. Bu prinsiplər aşağıdakılardır:

1. Etno-mədəni müxtəlifliyin mövcudluğu prinsipi. Bu prinsip bir dövlətin daxilində müxtəlif mədəniyyətin daşıyıcıları olan milli azlıqların və eyni zamanda müxtəlif dini konfessiyaların mövcudluğu mənasını verir. Multikulturalizm siyasətini həyata keçirən dövlətlər bu cür müxtəlifliyi özünə qarşı təhlükə kimi görmür. Əksinə, cəmiyyətin zənginliyi kimi qəbul edərək həmin xalqların öz mədəniyyətlərini qorumaları üçün dəstək göstərir.

2. Mədəni indentiklik hüququ. Bu prinsip hər bir kəsin və ya qrupun öz mədəni

identikliyini və ya xarakterini qoruyub saxlamaq hüququ olduğunu qeyd edir.

3. Mədəni bərabərlik və qarşılıqlı dözümlülük prinsipi. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, bütün etno-mədəni qruplar bərabərdir və yalnız qarşılıqlı hörmət və dözümlülük şəraitində mövcud ola bilərlər. Etnik mənşə identikliyi vətəndaşlıq identikliyindən sonra gəlməlidir. Beləliklə, ierarxik ikili identiklik mövcud olur.

4. Etno-mədəni qruplar arası əlaqə prinsipi. Hər bir etno-mədəni və dini qrup və ya onun hər bir nümayəndəsi digər qruplarla və ya nümayəndələri ilə təhlükəsiz və sərbəst ünsiyyət qura bilməlidir. Eyni cəmiyyətdə mövcud olan hər bir kəs digər qruplara qarşı açıq fikirli olmalıdır.

5. Bərabər imkanlara sahib olmaq hüququ.

6. Siyasi idarə prinsipinin mövcudluğu. Multikulturalizm və ya multikultural cəmiyyət özü təkbaşına inkişaf edə bilməz. Bunun üçün siyasi idarəetmə və dövlət dəstəyinin mövcudluğu mütləqdir.

7. Müxtəliflikdə mövcud olan təklik prinsipi. Hər bir milli azlıq və ya etnik qrup öz mədəniyyətinin yalnız ümumi mədəniyyətə ziyan vurmayan hissəsini qoruya bilər. Bəzən bu prinsipə, mədəniyyətin selektiv qorunması deyilir (39).

Multikulturalizm terminin işlədilməsinə aid bir çox fikir mövcud olmuşdur. Bu fikirlərdən biri Kanadalı tədqiqatçı Pol Dyumoçelə aid olmuşdur. O, “Müqayisəli multikulturalizm” məqaləsində bu terminin ən azı 3 fərqli mənada işlədilməsinin məqsədə uyğun olduğunu bildirmişdi. İlk olaraq o bildirirdi ki, bu termin bir neçə müxtəlif etnik-mədəni qrupların nümayəndələrinin birgə yaşadığı, sosial-tarixi situasiyanı bildirir. İkinci mənada isə, multikulturalizmin dövlət tərəfindən aparılan konkret siyasətlə bağlılığını bildirirdi. Bunu dövlətin cəmiyyətdəki multikultural vəziyyəti idarə etmək üçün multikulturalizm siyasətinə müraciət etməsi ilə əlaqələndirir. Üçüncü mənada isə Dyumoçelə görə bu termin normativ xarakter daşıyır, çoxmədəniyyətli cəmiyyətin adalət baxımından nece olmalı olduğunu əks etdirir (1,s.14) .

Pol Dyumoçeldən başqa The Harper Colins lüğətində də tərif verilmişdir. Orada bildirilirdi ki, “Multikulturalizm - plüralizmin mövcudluğunun etiraf olunması və inkişafı deməkdir”. “Multikulturalizm anlayışına bütün qruplar aid edilsə də, adətən

bu anlayışa immiqrantları, yerli xalqları, milli azlıqları aid edirlər" tərifi isə Stenford Ensiklopediyasında öz əksini tapmışdır (1,s.15) .

Bloemraad və Rayt kimi tədqiqatçılara görə multikulturalizm terminini dörd mənada işlətmək olar:

1. Multikulturalizm xalqın müxtəlifliyi haqqında demoqrafik faktların göstəricidir;
2. Bərabərlik və ədalət barədə fəlsəfədir;
3. Mədəni, dini, irqi, mədəni müxtəlifliyi idarə etmək üçün vasitədir;
4. Müxtəlifliyin dəyər görməsi və ictimai fikirdə tanınmasıdır (34,s. 17-18).

Multikulturalizm ictimai müxtəlifliyin formalarını, yəni burada kollektiv kimliklərin siyasi vasitələrdən istifadə etməklə ictimai sferada əks olunmasını göstərən dəyərlər və təcrübələr toplusunu ifadə edir. Bu yanaşma illər boyunca həm çoxlu düşmən, həm də tərəfdaş qazanmışdır. Yəni bu düşüncəyə həm təşəbbüslər verən, həm də tənqidlər edən şəxslər vardır. Məsələn Slavoj Zizekə görə multikultualizm, çoxmillətli qolbal kapitalizmin ideal ideoloji formasıdır (44,s.324). Ahmet İnselin fikrincə isə, multikulturalizm demokratik cəmiyyətdə əvəzolunmaz yerə malikdir və bunu qəbul etmək azadlığın məhdudlaşdırılmağı kimi risk tələb etmir (44, s.324).

Multikulturalizm anlayışı tolerantlıq məhfumuna da yaxın sayılır. Tolerantlıq multikulturalizm siyasətinin əsasını təşkil edir. Bütün dövlətlərdə etnik, dini, mədəni, irqi müxtəlifliklər mövcuddur. Bu dəyərlərin müəyyən hissəsi də etnik və dini azlıqlara aiddir. Multikulturalizm də bu azlıqlara və onların etnik-mədəni dəyərlərinə münasibətdə titul xalq tərəfindən dözümlülüyün göstərilməsini nəzərdə tutur. Lakin tolerantlıq multikulturalizmin çox kiçik hissəsini təşkil edir. Multikulturalizm tolerantlıqdan başqa etnik və dini azlıqlara hörmətlə yanaşmağı da nəzərdə tutur.

Multikulturalizm ilk növbədə sosial bir hadisə kimi özünü biruzə verir. Bu zaman multikulturalizm digər sosial hadisələrə yəni siyasətə, mədəniyyətə, iqtisadiyyata və s. təsir göstərir və onlarla qarşılıqlı əlaqədə olur. Bu məhfumun sosial hadisə kimi formalaşmasına müəyyən faktorlar təsir edir. Bunlara müxtəlif xalqların eyni yerdə uzun müddət yaşamasını, ölkənin coğrafi mövqeyini, iqtisadi cəhətdən inkişaf etmiş

ölkələrə xalqların axınını, imperiyaların yönəltdiyi xalqların köçürülməsi siyasətini, hərbi münaqişələrə görə xalqların öz ərazilərini tərk etmələrini göstərmək olar.

Multikulturalizm siyasəti meydana gələndən öncə, dövlətlər müxtəliflikləri iki yolla tənzimləyirdilər: assimilyasiya və ya izolyasiya. Assimilyasiya dedikdə milli azlıqların mədəni-etnik dəyərlərini titul xalqın mədəniyyətinə qatmaqla cəmiyyətdəki etnik, irqi, dini, mədəni müxtəlifliklərin ləğv edilməsi başa düşülür. İzolyasiya siyasəti isə milli azlıqların dəyərlərinin titul xalqın dəyərlərinə qarışmasının qarşısını almaqla, onların cəmiyyətə inteqrasiyasına mane olur (43,s.28). Bu iki formada baş verir. Birincisi ölkəyə daxil olub məskunlaşmalarına imkan verməyərək, ikincisi isə aparteid adlanan siyasətlə artıq məskunlaşmış müəyyən miqdar adamların assimilyasiyasına mane olmaq üçün təcrid edərək (43,s.29). Aparteid “ayrılıq”, “ayrılıqda yaşamaq” mənasını verir. Cənubi Afrika Respublikasında 1948-1994-ci illərdə bu siyasətdən istifadə olunmuşdur. Bu siyasət o dövrdə hakimiyyətdəki Milli partiya tərəfindən aparılırdı və xalq 4 irqə bölünmüşdü: “ağlar” , “qaralar” , “rənglilər”, “hindlilər”. Bu siyasət 1994-cü ildə demokratik qüvvələrin seçkilərdəki qələbəsi ilə ləğv olunmuşdu ( 43,s.30).

Multikulturalizmin xalqların həyat tərzinə çevrilməsi onun inkişafının başqa mərhələsi hesab olunur. Burada dövlət və onun apardığı siyasət mühüm rol oynayır. II Dünya müharibəsindən sonra bu termin insanların gündəlik həyatına daxil olmağa başlamışdır. 1947-ci ildə Hindistan Böyük Britaniyadan asılılığını ləğv etdikdən sonra, 26 yanvar 1950-ci ildə qəbul edilmiş Hindistan konstitusiyasında cəmiyyətin polietnik olması və “multimədəni cəmiyyət” prinsipləri öz əksini tapmışdır (21,s.12). XX əsrin 60-cı illərindən sonra isə Kanadada bu siyasət dövlət səviyyəsində həyata keçirilməyə başlanmışdır və multikulturalizm termini siyasi sənədlərin, elmi ədəbiyyatların və KİV-lərin əsas vasitəsinə çevrilmişdir. Artıq XX əsrin 60-70-ci illərində multikulturalizm həm Avropada, həm də Şimali Amerikada əsl fəlsəfi-siyasi konsepsiya kimi tanınmağa başlamışdır. Artıq multikulturalizm dedikdə yalnız bir ölkənin etnik-mədəni, irqi, dini müxtəlifliklərinin mövcud vəziyyəti deyil, həmçinin cəmiyyətin təhlükəsiz gələcəyinə hesablanmış mədəni inqilab nəzərdə tutulurdu (21, s.12).

Multikulturalizmin dövlət siyasəti kimi ilk tətbiq edildiyi yer Kanada sayılır. Tarixən bu ərazilərə köçmüş miqrantlara görə Kanada, ABŞ, Avstraliya və Yeni Zenlandiya birlikdə miqrasiya dövlətləri kimi tanınırlar. 1971-ci ildə multikulturalizm Kanadada ideoloji çərçivədə miqrantların inteqrasiyası məqsədi ilə qəbul edildi (68,s.63). Baş nazir Pyer Trudo "multikulturalizmin ikidilli siyasət kimi" hökümət tərəfindən qəbul edildiyini elan etmişdi. Pyerə görə fərdi hüquqların bərabər statuslarla birləşdirilməsi "Kanada əhalisinin birliyini gücləndirəcək və kanadalıların tam vəziyyətdə və ayrı-seçkilik nəzərə alınmadan ölkələrinin gələcəyini müəyyənləşdirmələrinə və qurmalarına imkan verəcək" (68,s.63). Burada əsas məqsədlər multikulturalizm və ikidillilik ilə simvolik vəhdət yaratmaq, ayrıseçkiliyə mane olmaq, britaniyalılıq və fransalılıqdan qurtulmaq idi. 1970-ci ildən başlayan dövr etnik mənsubiyyət multikulturalizmi kimi adlanırdı. Daha sonra 1971-də multikulturalizm burada rəsmi ideologiya qismində elan olundu və 1972-ci ildə isə Kanadada xüsusi direktorat yaradıldı (30). 1980-ci ildən başlayan isə bərabərlik multikulturalizmi kimi tanınırdı. 1982-də qəbul edilib, 1985-də qüvvəyə minmiş olan Hüquqlar və Azadlıqlar barədə Xartiya multikulturalizmin burada həyatın şərtləndirici xüsusiyyəti olduğunu göstərdi (24,s.94). Kanadada xalqın çoxmədəniyyətliliyi 1996 il qərarına əsasən rəsmi şəkildə qeyd olunurdu. Ölkədə hər il Qaralar tarixi ili, hər il mayda isə Asiyalılar ayı kimi qeyd olunur (69). Kanadanın Toronto şəhərində heykəltəraş Fransisko Pirelli tərəfindən ucaldılan "Multikulturalizmə abidə" də multikulturalizm siyasətinin ölkədəki rolunu göstərir (69).

XX əsrin 70-ci illərindən başlayaraq Avstraliyada bu anlayış yayılmağa başladı. Bu dövrdə iqtisadi inkişaf tempinin zəifləməsi və immiqrasiyanın azalması multikulturalizmin rəsmi tətbiqinə səbəb oldu (21,s.28).

ABŞ'da isə XX əsrin 60-70-ci illərində bu siyasət yaranmışdır. Multikulturalizm ABŞ'a kənardan daxil olmamış, öncədən bəri bir hissəsi kimi formalaşmışdır. Burada "əridən qazan" əsas yeri tuturdu (21,s.28). Bu anlayış kiçik xalqların, böyük xalqların daxilində əridilməsi mənasına gəlir. Bu anlayış multikulturalizm anlayışı

tərs fenomendir. Anlayışın özü İzrael Zanqvilinin eyni adlı pyesindən götürülmüşdür (29).

Bu ölkələrdə multikulturalizmin meydana gəlməsi müxtəlif fikirlərin, fikirlər arasında müzakirələrin də çıxmasına gətirib çıxartdı. Bu müzakirələrə qoşulan nəzəriyyəçilərə Kimlika, Taylor və Parexi göstərmək olar. Vil Kimlikaya 1980-ci ilə kimi multikulturalizm mövzusundakı araşdırmaların az olduğunu bildirmiş, bir tərəfdən də bu sahədə tədqiqat aparan nəzəriyyəçilərin olmadığını bildirmişdi. Kimlikaya görə Qərb multikulturalizmində beş etno-mədəni qrup fərqlənirdi (58,s.465). Ona görə bu qruplar multikulturalizmin beş modeli idi. Birincisi “milli azlıqlar” adlandırırdı və onları daxili azlıqlara,yerli xalqlara bölürdü. İkinci modelə isə vətəndaşlıq verilməsi məqsədi ilə siyasət çərçivəsində köçmüşlər yəni “miqrant qrupları” aid edilirdi. “Etno-dini qrupların təcrid edilməsi” kimi adlanan üçüncü qrupa isə hərbi xidmət kimi müxtəlif qanunlardan azad olmaq istəyənlər aid edilirdi. “Metika” adlanan model istənilən zaman deportasiya oluna biləcək insanları və son olaraq “Afro-Amerikalılar” adlanan beşinci qrup isə qul kimi ölkəyə məcbur gələnlər, bununla yanaşı öz dilini belə unutmuşlar aid edilirdi. Onun fikrinə əsasən, multikulturalizmin liberal nəzəriyyəsinin problemlərindən biri etno-mədəni ədalətin prinsiplərini dərk etməkdir. Kimlika üç növ azlıq hüquqlarını müəyyən edir: özünüidarəetmə hüquqları, polietnik hüquqlar və dövlətdə müxtəlifliyi idarə etmək üçün təmsilçilik hüquqları. Onlar:

1.Özünüidarəetmə hüquqları: bu hüquqlar Kimlikanın milli azlıqlar adlandırdığı hüquqlara aiddir. Bu xalqlar ərazi baxımından cəmləşib, ortaq bir dilə malikdir v ə “insan fəaliyyətinin bütün spektrində mənalı həyat tərzi” ilə xarakterizə olunurlar.

2.Polietnik hüquqlar: bu hüquqlara immiqrasiya yolu ilə inkişaf etmiş etnik qruplara və dini azlıqlara öz mədəni fərqliliklərini ifadə etmək və saxlamağa kömək etmək aiddir. Bu hüquqlar yəhudilərin və müsəlmanların heyvan kəsimi qanunlarından azad edilməsi və müsəlman qızların məktəb geyim qaydalarından azad edilməsi kimi qanuni istisnalara əsas verir.

3.Xüsusi nümayəndəlik hüquqları: bu hüquqlar azlıqların və ya imkansız qrupların təhsildə, siyasi və ictimai həyatda rəhbər vəzifələrdə az təmsil olunmasını

aradan qaldırmağa çalışır. Bu cür hüquqlar keçmiş ayrı-seçkiliyi və ya davam edən mədəni tabeçiliyi kompensasiya etməyə çalışan əks və ya “müsbət” ayrı-seçkiliyin bir formasını nəzərdə tutur. Onların əsaslandırılması təkcə tam və bərabər iştirakın təmin edilməsi deyil, həm də dövlət siyasətinin təkcə ənənəvi olaraq dominant qrupların deyil, bütün qrupların və xalqların maraqlarını əks etdirməsinə zəmanət verən yeganə vasitə olmasıdır (58,s.508).

Taylora görə “biz şəxsiyyətini söhbət zamanı, bəzən isə münaqişədə, vacib gördüyümüz digər insanların istəklərinə uyğun müəyyən edirik” (52,s.33). Parexin fikrincə isə multikulturalizm perspektivdir. Burada üç aspekt nəzərdə tutulur: müxtəlif mədəniyyətlər fərqli sistemlərdə təmsil olunur; bəzi ibtidai mədəniyyətlərdən başqa bütün cəmiyyətlər cəmdir; insanlar onlara mədəni kimlik verən strukturlaşdırılmış dünyada böyüyürlər (84,s.337). Bu üç nəzəriyyəçinin hər biri müxtəlif mədəniyyətlərdən olan insanların bir-biri ilə qarşılıqlı əlaqədə olmalı olduğu fikiri ilə razılaşırlar. Onlar cəmiyyətin homogen hesab edilə bilməyəcəyi ilə razılaşırlar.

Multikulturalizm anlayışı ilk dəfə ingilis dilində 1941-ci ildə Doyçevaya görə köhnə millətçiliklərin heç bir mənası olmayan qərəzsiz və müstəqil fərdlərdən ibarət kosmopolit cəmiyyəti ifadə etmək üçün istifadə edilmişdir (48,s.352). Göktuna Yaylacının multikulturalizmlə bağlı məqaləsində qeyd etdiyi kimi, multikulturalizm 1960-cı illərin sonundan ABŞ, Kanada və Avstraliya kimi ağır immiqrasiya qəbul edən ölkələrdə mədəni müxtəlifliyi təşviq edən dövlət siyasətinin adı olub və tədricən bəzi ölkələrdə geniş yayılıb. İngiltərə və ABŞ kimi yalnız təhsil sahəsində qüvvədə qalması başlanğıc yanaşmadır. 1990-cı illərdə multikulturalizm; Kimlika, Taylor, Parex, Young kimi mütəfəkkirlər vasitəsilə siyasi elmlər ədəbiyyatında daha geniş yer tutmuşdur. Ədəbiyyat araşdırması nəticəsində multikulturalizmin yaranmasına və formalaşmasına səbəb olan bir sıra inkişaf və hadisələri aşağıdakı kimi izah edə bilərik:

1. Milli dövlət fenomeni və təmsilçi demokratiyaların böhranı: Mədəni müxtəliflik, multikultural cəmiyyət, identiklik, mədəniyyət kimi anlayışlar son illərdə ortaya çıxan anlayışlar deyil. Fərqli mənalarda işlənsələr də, heç

işlədilməsələr də, əsrlər boyu mövcud olan reallıqlardır. Lakin onların bu gün politologiya ədəbiyyatında mühüm yer tutmasının səbəbi onların mübarizə meydanına çevrilməsidir. Fərqlilik siyasəti, tanıma siyasəti, kimlik siyasəti və multikulturalizm yaxın mənalar daşısa da, müəyyən fərqləri ehtiva edən yanaşmalar həm milli dövlət layihəsinə, həm də 21-ci əsrdə müzakirə olunan "nümayəndəli demokratiyaların böhranı"na təkliflər verən yanaşmalardır. Ümumiyyətlə, multikulturalizm milli dövləti tamamilə aradan qaldırmır və heç bir alternativ təklif etmir, əksinə, milli dövlətlərin müxtəlif mədəni qruplara münasibətdə necə davranmalı və hansı hüquqlara malik olması barədə perspektiv inkişaf etdirir. Lakin multikulturalizmi anlamaq üçün milli dövlət layihəsinə mühüm yer ayıran Kimlika, bugünkü Qərb liberal demokratiyalarının müəyyən bir milli/sosial mədəniyyəti mənimsədiyini və cəmiyyəti nə qədər neytral olsalar da, homojen bir quruluş olaraq gördüyünü düşünür. Bu çoxluq mədəniyyəti altında müxtəlif qruplar özlərini təzyiq altında və ya kənarda hiss edirlər. Özünü marjinal, əzilmiş və ya alçaldılmış hiss edən bu qruplar təmsilçi demokratiyalarda tələblərinin reallaşmadığını düşünürlər. Sovet İttifaqının dağılmağa başladığı illərd" əliberal demokratiyanın qələbəsi" elan edilərkən, bu təmsilçi liberal demokratiyaların böhranına cavab olaraq "radikal, müşavirəçi, kosmopolit demokratiya" kimi demokratiyanı inkişaf etdirəcək yeni anlayışlar irəli sürüldü. (41, s.175). Multikulturalizmi bu yeni axtarışlardan biri kimi görmək olar.

2. Sosial-demokrat hökumətlər: Marşala görə, milli dövlət layihəsinin davamı olaraq görülən rifah dövləti tərəfindən təmin edilən təhsil və sağlamlıq kimi əsas sosial hüquqlara əlavə edilən genişləndirilmiş vətəndaşlıq hüquqları insanların bir dövlətə inteqrasiyasına kömək edir (73,s.328). Məsələn, Kimlikaya görə, bütün Qərb demokratiyalarında sosial dövlət işçi siniflərini milli mədəniyyətə inteqrasiya etməkdə uğur qazanmışdır. Bu inteqrasiya səyləri fəhlə sinfi üzvlərinin kommunizm və sovet bolşevizmi kimi ideyalara düşməsinin qarşısını almaq, eyni zamanda ortaq dil, mədəniyyət və kimliyə malik vətəndaşlarla cəmiyyəti idarə etmək, ortaq anlaşma, inam və həmrəyliyi dəstəkləmək kimi funksiyalara malikdir (73,s.329). Bu anlayış hüquqa əsaslanan vətəndaşlığın ənənəvi modelinə uyğundur və

multikulturalist yanaşmalarla qarşı-qarşıyadır. Çünki bu model milli inteqrasiya ideyaları ilə dərindən bağlıdır və qaradərililər, qadınlar, yerli xalqlar, etnik və dini azlıqlar, homoseksuallar kimi qrupların özünü marginal və ya damğalanmış hiss etməsinə mane ola bilməz (73,s. 329). Vallerşteyn onu da müdafiə edir ki, cəmiyyəti homogenləşdirməyə çalışan sosial-demokratik hegemonluğa qarşı müxalifət bu qrupların yer aldıqları yeni ictimai hərəkatları köhnə ictimai hərəkatlardan fərqləndirən fərqdir. Bu qruplar sosial-demokratik siyasətin fərqliliklərə məhəl qoymamaq meylinə qarşı hökumətlərdən tanınmasını tələb etmək kimi ümumi xüsusiyyətə malikdir.

3. İmmiqrasiya fenomeni: Milli-dövlət anlayışı və sosial demokrat idarələr tərəfindən gücləndirilən milli inteqrasiya səyləri immiqrantları da təsir edən məsələlərdən biridir. Miqrasiya bəşər tarixi boyu yaşanmış və yaşanmaqda davam edən bir hadisədir. Müasir liberal demokratik dövlətlərlə müqayisədə ənənəvi dövlətlər öz ərazilərinə nüfuz etmək və qərarlarını logistik cəhətdən həyata keçirmək üçün daha az gücə malik idilər (51, s.68). Bu səbəbdən sosial həyata daha çox təsir və nəzarət gücünə malik olan müasir dövlətlər mədəni azlıqların yaşaması baxımından daha çox təhlükə yaradır. Bu gün immiqrantlar ya məskunlaşdıqları ölkələrdə vətəndaş kimi görünməmək, ya da vətəndaş kimi göründükdə hakim mədəniyyətin assimilyasiyasına məruz qalmaq kimi problemlərlə üzləşirlər. Milli dövlət daxilində daha çox inteqrasiyaya yönəlmiş siyasətlər immiqrantlara öz mədəniyyətlərini və həyat tərzlərini qorumaq üçün təzyiq göstərə bilər. Ona görə də immiqrasiya multikulturalizmin mühüm məsələlərindən biridir.

4. 1968-ci il ictimai hərəkatları: Bir əsrdən çox müddət ərzində bəzi hərəkatlar olsa da, etnik azlıq hərəkatları, miqrant işçi hərəkatları, feminist hərəkatlar, LGBTİ ictimai hərəkatlar, əlillər, qocalar, təqaüdçülər, müharibə əleyhinə ictimai hərəkatlar kimi bir çox yeni ictimai hərəkatlar meydana gəldi. 1960-cı illərin sonlarından ortaya çıxan bu hərəkatlar “yeni bir siyasi axtarışın ifadəsinə çevrildi” (41, s.174). Kimlik siyasəti, multikulturalizm, tanınma siyasəti kimi terminlər bu axtarışa fərqli cavablar kimi ortaya çıxdı. 1968-ci il hərəkatları etnik-mədəni qrupların tələblərinin meydana çıxmasında mühüm addım oldu. 1960-cı illərdən bəri kimlik və mədəniyyət kimi

mövzulara diqqət yetirmək sol mütəfəkkirlərin sinfi mübarizələrin əhəmiyyətini azaltdıqları üçün tənqidə məruz qalmasına səbəb oldu. Məsələn, bu nöqteyi-nəzərdən mütəfəkkir olan Kimlikaya görə, biz yeni ictimai hərəkatları nə yalnız status bərabərsizliyinə qarşı kimlik hərəkatı, nə də iqtisadi bərabərsizliklərə qarşı sinif əsaslı hərəkatlar kimi görə bilərik (73, s.327). Kimlikaya görə, status bərabərsizlikləri və iqtisadi bərabərsizliklər həmişə bir-biri ilə əlaqəli olmur və onlar arasında əlaqə varsa, birinin həmişə digərindən əvvəl olması təklifi irəli sürülə bilməz. Məsələn, bir çox Qərb demokratiyasında özünü damğalanmış hiss edən homoseksuallar iqtisadi cəhətdən ümumiyyətlə heteroseksuallardan daha yaxşı vəziyyətdədirlər (73, s.333). Eyni şey mədəniyyət baxımından əksəriyyətdən aşağı olan ərəb və ya yapon mənşəli amerikalılar, kataloniyalılar və kvebeklər üçün də keçərlidir (73, s. 333).

5. 1970-ci illərdən etibarən sosialist blokunun dağılması etno-mədəni hərəkətləri artıran bir proses olmuşdur (41, s.175). Lakin Sovet İttifaqının dağılması ilə Şərqi Avropada etnik və millətçilik kimi məsələlər partladı; eyni dövrdə əksər Qərbi Avropa ölkələrində immiqrantlara və qaçqınlara qarşı mənfi münasibət olan siyasətlər həyata keçirilirdi; yerli xalqlar hərəkətə keçdi və 2006-cı ildə Yerli Xalqların Hüquqları haqqında BMT Bəyannaməsi qəbul edildi; Kanada, İngiltərə, Belçika, İspaniya kimi Qərb demokratiyalarında azlıqların ayrılması təhlükəsi yarandı (73, s.336). Bütün bu inkişaflar multikulturalizm yanaşmasını politologiya ədəbiyyatında mühüm gündəm mövzularından birinə çevirdi. Kimlikanın sözlərinə görə, 1989-cu ildən sonra, yəni Sovet İttifaqının dağılmasından sonra multikulturalizm müzakirələri daha çox liberallar arasında gedir. Bu müzakirələr daha çox hansı azlıq qruplarının və hansı azlıqların hüquqlarının tanınması barədədir; hansı azlıqların hüquqları dövlət quruculuğu səylərini aradan qaldıracaq və bu hüquqların liberal demokratik prinsiplərlə necə əlaqəsi var. O, liberal demokratiyaların milli azlıqlar, immiqrant qrupları, təcridçi etno-dini qruplar kimi müxtəlif tipli mədəni icmaların tələblərinə necə cavab verməli olduğu kimi suallar ətrafında fırlanır. 1989-cu ildən əvvəlki dövrdə multikulturalizm daha çox kommunitar yanaşmalarla irəli sürülürdü. Kimlikaya görə, multikulturalizm

yanaşması milli dövlətə verilən cavabların liberal və ya mühafizəkar olmasına görə müəyyən edilir. Mühafizəkar şərhə malik olan erkən multikulturalizm, mədəni qrupların tanınması və qorunub saxlanılması məqsədlərinə çatmaq üçün qrup hüquqlarının mənimsənilməsinin vacibliyini müdafiə edirdi. Kommunitarların fikrincə, fərd yaşadığı cəmiyyətin və mədəniyyətin məhsuludur. Cəmiyyətin maraqları fərdlərin mənafeyindən üstündür (73,s.337). Şəxsiyyətin muxtariyyətinin təmin edilməsi ilə cəmiyyətin ümumi mədəniyyətinin qorunması arasında balans yaxşı qurulmalıdır. Bunu təmin edəcək şey qrup hüquqlarıdır.

Nəhayət, multikulturalizmi mədəni müxtəlifliyin reallığına standart cavab kimi təyin edən Parex tarix boyu mədəni müxtəlifliyə verilən cavablar vasitəsilə multikulturalizm debatlarının tarixi gedişatını izah edir. Parekh mədəni müxtəlifliyə mənəvi monizm, plüralizm formaları, müxtəlifliyə müasir reaksiyalar kimi tarixi baxışlar ardıcıllığını çatdırmışdır. Əxlaqi monizm müəyyən həyat tərzini mütləq yaxşılıq və haqq kimi müəyyən edir və onun universallığına inanan bir baxışdır. Parexin fikrincə, Qədim Yunanıstan, xristianlıq, liberalizm və marksizm monist ənənələrdir. “Bu və digər qrupların, çox vaxt insan bərabərliyi və ümumbəşəri məhəbbət naminə alternativ həyat tərzinə qarşı zorakılığa haqq qazandırması və ya ona göz yumması bizi monizmin bütün formalarına qarşı xəbərdar etməli idi.” Bu baxış müxtəlif həyat tərzlərinin mövcudluğunun öz dəyərinin olması fikrindən irəli gəlir (55,s.64).

Parexə plüralizm formaları adı altında plüralizmin ilk fəlsəfi əsaslarını qoyan Viko, Monteskye və Herder kimi 18-ci əsrin mütəfəkkirlərinin fikirləri daxil edilmişdir. Bu müəlliflər düşünürdülər ki, “mədəni plüralizm qaçılmaz və bəzən arzuolunandır” və mədəniyyət insanı təyin edərkən mühüm əhəmiyyət kəsb edir (55, s.65). Amma yenə də bu üç yazıçı mədəniyyəti statik və dəyişməz bir bütövlükdə görürdü. Onlar mədəniyyəti və cəmiyyəti homojen bir bütöv kimi təsəvvür etdikləri üçün mədəniyyətə mühafizəkar münasibətlə yanaşır və hesab edirdilər ki, ən kiçik dəyişikliklərə belə çox ciddi yanaşmaq lazımdır. Onlar mədəniyyətləri qapalı dünyalar kimi görmüşlər və bu baxış onları necə mühakimə etmək barədə mübahisələri həll olmaz hesab etmişlər (55,s.101). Monizmin plüralist tənqidçiləri ya

mədəniyyətlərin insanları tamamilə müəyyən etdiyini düşünür, ya da mədəniyyəti insanların ünsiyyətdə olduğu statik və ayrı bir varlıq kimi görürdülər (55, s.103). Bu yolla onların monizm və ya relyativizm səhvlərinə düşmələri mümkündür və Parexin fikrincə, "mədəni müxtəliflik nəzəriyyəçisini gözləyən vəzifə bu və buna bənzər səhvlərə yol vermədən mədəniyyətin əhəmiyyətini, gücünü və ardıcıllığını izah etməkdir. (55, s.101).

Müxtəlifliyə müasir cavablar əxlaqi və mədəni müxtəliflik məsələləri üzrə üç liberal mütəfəkkirləri əhatə edir: Con Rouls, Cozef Raz və Uill Kimlikka. Parex hesab edir ki, Rauls liberal multikulturalist yanaşmanı qəbul edən Raz və Kymlicka ilə müqayisədə mənəvi müxtəlifliyə daha dözümlüdür (55, s.114). Roulsun siyasi liberalizmi milli azlıqlar və immiqrantlar kimi müxtəlif mədəni qrupları və onların məqsədlərini nəzərə almır (55, s.115). Parexin fikrincə, Roulsun liberal demokratik cəmiyyətlər üçün irəli sürdüyü ədalət prinsipləri və siyasi sistemlə bağlı fikirləri əslində onun bu cəmiyyətləri az-çox homojen gördüyünü göstərir. Raz və Kimlikanın multikulturalizmlə bağlı fikirləri bir-birinə yaxındır. Parexin sözlərinə görə, Kimlika liberal millətçidir. Çünki o, mədəni birliyi milli icma ilə eyni görür və icmaları milli, qeyri-milli və etnik olaraq bölür. Yenə də onun sözlərinə görə, Raz Kimlika ilə müqayisədə mədəni müxtəlifliyə daha dözümlüdür. Lakin onların hər ikisinin mədəni müxtəliflik üçün irəli sürdüyü arqumentlər yetərli deyil, Parex bu arqumentlərin yalnız mədəniyyətin dəyərini ortaya çıxara biləcəyini düşünür. Fərqli həyat tərzlərinə hörmət hər iki mütəfəkkir tərəfindən hər kəsin öz xeyirinə uyğun həyat tərzi keçirməsi liberal fərziyyəsi əsasında izah edilir. Parex düşünür ki, bəzi insanlar həyatlarını buraxmaq kimi "yaxşı" məqsəd olmadan da yaşaya bilərlər, ona görə də bu, hər kəs üçün etibarlı məqsəd deyil. Mədəni müxtəlifliyə və müxtəlif həyat tərzlərinə hörmət azlıqların tanınma tələblərinin ödənilməsi üçün kifayət qədər əsas deyil, mədəni müxtəlifliyin təkcə mədəni qruplar üçün deyil, bütün cəmiyyət üçün faydalı olduğunu göstərmək lazımdır. Parexin sözlərinə görə, Kimlika və Raz bu məsələdə uğursuzluğa düçar olublar.

XX əsrin etnik-mədəni siyasətinin spesifik modellərindən biri multikulturalizmdi. Müasir dövrdə dövlətlərin öz mədəni siyasi modellərini seçmələri mühüm məsələdir.

Bu modelin seçilməsi dövlətlərin iqtisadi, siyasi, mədəni, sosial inkişaflarına təsir göstərmişdir. Bu siyasəti həyata keçirtməyən ölkələrdə isə mübahisələr, qarşıdurmalar meydana gəlmişdir.

Multikulturalizm siyasətini mükəmməl şəkildə həyata keçirtmək qeyri mümkündür. Bunun əsas səbəbləri kimi qloballaşmanı, dini baxımdan fərqləri, inteqrasiyanı qəbul etməyən submədəniyyətləri və s. göstərmək olar. Dövlətlər bu problemləri aradan qaldırmaq üçün əlverişli yollar tapmağa çalışmışlar.

Nəticədə, multikulturalizmin yüksək nəticə verdiyi cəmiyyətlərdə müəyyən vəziyyət yaranır:

1. Multikultural cəmiyyətdə mövcud "hakim mədəniyyət" özünü yetərincə nümayiş etdirmir;
2. Bu cür cəmiyyətdə "mədəniyyət" ilə "etnos" anlayışı eyni deyil;
3. Belə cəmiyyətlərdə şəxslər istədikləri mədəni nümünəni seçməkdə azaddırlar;
4. Bu cür və oxşar cəmiyyətlərdə multikulturalizm etnik-mədəni davranışları, dünya baxışlarını və həmçinin fərqli həyat tərzlərini də tənzimləyir;
5. Belə cəmiyyətlərdə milli xalq öz tarixi vəzifə və xidmətlərini, etnos xalqınkından üstün görmür və milli tarix bütün xalqlara eyni cür şamil olunur (21,s.14).

Bu müddəalar onu göstərir ki, multikulturalizm strategiyasının əsas məqsədi cəmiyyətdəki etnik-mədəni müxtəliflikləri aradan qaldıraraq, vahid bir məkan yaratmaqdır. Bu siyasətin əsasını etnosların aralarındakı dini, etnik müxtəliflikləri nəzərə almadan, bir-birlərinin müxtəlifliklərini qəbul edərək vahid bir cəmiyyət daxılında yaşamaqlarını təmin etməkdir.

Son əsrlərdə baş verən müharibələr, münaqişələr, inqilablar nəticəsində multikulturalizm XX əsrin ikinci yarısında postmodern təlim kimi meydana çıxmışdır. Müasir postindustrial cəmiyyətdəki müxtəlif ideyalar içərisində multikultural zənginliyinin qorunması və inkişafı mühüm yer tutur. Bu zənginliyin qorunması prinsipləri "multikulturalizm" adlanan postmodern təlimdə əksini tapmışdır. Postmodern təlim kimi multikulturalizm XX əsrin 90-cı illərin əvvəllərindən ilk öncə Qərbdə və həmçinin SSRİ-nin tərkibindəki ölkələrdə

yayılmağa başlamışdı (21,s.13).

Multikulturalizm təlimi assimilyasiyanı, separatizmi inkar edir, etnik-mədəni müxtəlifliklərin inteqrasiyasına yönəlmiş mədəni siyasət kimi formalaşdırılır. Buna görə də bu siyasətə siyasi elita nümayəndələri ilə yanaşı, sosial, milli , etnik və dini-mədəni azlıqlar üstünlük verir.

Ümumiyyətlə postmodern baxımından multikulturalizmi xarakterizə edən müəyyən əlamətlər vardır:

1. Multikulturalizm sosial təzahürdür. Yəni o, etnik münaqişələri önləyir, xalqlar arasında etimadı gücləndirir;

2. Multikultural cəmiyyətin formalaşmasında demokratiya əsas yeri tutur;

3. Multikulturalizm cəmiyyətin etnik-mədəni müxtəlifliklərə qarşı etirazı bildirmək üçün istifadə olunur;

4. Bölgələrin tarixi-mədəni inkişafının cəhətləri və landşaftın xüsusiyyətləri multikulturalizmin fərqli modellərinin yaranmasına səbəb olur;

5. Multikultural cəmiyyətin inkişafında və multimədəni mühitin təcrid edilməsində dövlətin fövqəladə mühüm rolu vardır (21,s.17-18).

Multikulturalizm ümumbəşəri dəyərlərə əsaslanan təlimdir. Nəzəri cəhətdən baxdıqda onun əsas məqsədi bütün xalqların hüquq və azadlıqlarını qorumaq məqsədi ilə elmi-praktiki baza yaratmaqdır. Lakin multikulturalizm yalnız nəzəri təlim kimi dəyərləndirmək əsassızdır. Etnik azlıqların, dini icmaların inkişafı və fəaliyyəti üçün tolerant və mədəni mühitin təşkil olunması və insanpərvərlikdir. Bəşəriyyətin təhlükəsizliyinə yönəlmiş fəaliyyət vasitəsidir.

Müxtəlif dini, irqi, etnik, mədəni müxtəlifliklərə malik xalqların eyni ərazi içərisində birgə yaşaması və həmçinin bu cür müxtəlifliklərə məxsus xalqlarla qarşılıqlı əlaqədə olmaları multikultural ənənələrin yaranmasına təkan vermişdir. Etnik qrup anlayışı ilə milli azlıq anlayışı eyni qəbul edilir. Milli azlıq dedikdə, müxtəlif xalq və millətləri əhatə edən etnik birlikdən ayrılmış, etnik proseslər zamanı müəyyən məzmun kəsb etmiş etnik qurumlar nəzərdə tutulur. Bütün etnik qrupların öz mədəniyyəti, dini, dili, adət-ənənəsi mövcuddur. Onlar müəyyən ərazilərdə kompakt şəkildə yaşayırlar. Özlərinə aid adət-ənənələrə, dilə və s. sahib olmalarına

baxmayaraq, onların titul xalqa qaynayıb-qarışması üçün heç bir mane mövcud deyil. Milli azlıqlar tarix boyunca öz adət-ənənələrini qoruyub saxlamış və hətta yerli xalqın mədəniyyətinə belə təsir göstərmişlər.

Multikulturalizmin siyasi layihə kimi qəbul edilməsi mədəni plüralizmin qəbulundan asılıdır. Mədəni plüralist cəmiyyətdə ayrıseçkiliyə yer yoxdur. Bu gün təhsil, səhiyyə, mənzil-məişət, təhlükəsizlik və media kimi əsas müəssisə və təşkilatlarda insanlara etnik mənsubiyyətinə, rənginə və mədəniyyətinə görə ayrı-seçkilik etmək qanuna görə cinayət sayılır. Mədəni plüralist cəmiyyətin sosial sistemində mədəni qruplar arasında da müxtəlif konfliktlər mövcuddur. Hətta mədəni fərqliliklər və qarşıdurmalar bu cəmiyyətlərdə təhlükə kimi qəbul edilə bilər. Lakin sosial sistemlərin məqsədi sosial-mədəni inteqrasiya və inteqrasiyada tarazlığa nail olmaqdır. Multikulturalizm tarazlığa nail olmaq üçün bu tendensiyanın dəstəklənməsi və tamamlanması üçün bir vasitə kimi görülə bilər. Bu alətin funksionallığı bir çox sosial, siyasi və hüquqi sahələrdə qərarlar və təcrübələr üçün istinad ola bildiyi halda mümkündür. Multikulturalizm və mədəniyyətlərarası ünsiyyət bəzi Avropa ölkələrində qismən də olsa ideallaşdırılmış həyat təcrübələrindən biri olmuşdur. Bu ideal çoxlu müxtəlif etnik kimlikləri özündə birləşdirən Avropa üçün həyati əhəmiyyət kəsb edir. Müxtəlif tarixi və siyasi səbəblərə görə bugünkü Avropa cəmiyyətləri çoxmədəniyyətli, çoxmillətli və çoxkonfessiyalı ictimai quruluş təqdim edir. Lakin bu struktura qarşı hansı ictimai-siyasi tənzimləmələr aparılmalı, bu strukturun anlaşılması ilə bağlı dərin fikir ayrılıqları var.

Multikulturalizm irqi, dini, milli, mədəni müxtəlifliyin qarşılıqlı hörmət zəminində qəbul edilməsi, cəmiyyətin hər bir üzvünün hüquqlarının qorunmasını və onların inkişafına səbəb olacaq həyat tərzinin inkişaf edilməsini özündə birləşdirir. Qədim dövrlərdən bəri müəyyən ərazilərdə müxtəlif xalqların məskunlaşması, onların özləri ilə gətirdikləri din, mədəniyyət, adət-ənənə multikulturalizmin tarixi inkişafına təkan vermişdir.

## 2.1 Azərbaycanda dini və etnik müxtəliflik, multikulturalizm ənənələri

Qədim zamanlardan bəri multikulturalizm Azərbaycan xalqının həyatında mühüm

rol oynayır. Azərbaycanda multikultural ənənələrin yayılmasına təsir göstərən iki faktor mövcuddur. Bunlara obyektiv və subyektiv səbəbləri göstərmək olar. Obyektiv səbəblərə tarixi və coğrafi faktorlar aiddir. Tarixi baxımdan Azərbaycanın çoxmədəniyyətli bir dövlət oluğunu görmək olar. Qədim zamanlardan bəri Azərbaycan ərazisində müxtəlif xalqlar əmin-amanlıq içəsində yaşamışlar. Azərbaycan xalqı tarixin heç bir səhifəsində ölkədə məskunlaşan milli azlıqları sıxışdırmamış, onların etnik, irqi, dini mənsubiyyətlərinə hörmətlə yanaşmışlar. Bu səbəblərə görə də tarixi faktor Azərbaycan ərazisində multikulturalizmin yaranmasına, inkişafina şərait yaratmışdır. Digər bir faktor isə coğrafi mövqe baxımından Azərbaycanın əlverişli məkanda yerləşməsidir. Azərbaycan fərqli sivilizasiyaların, mədəniyyətlərin birləşdiyi məkandır. Bu cür ərazilərdə mövcud olan ölkələrin xalqları müxtəlif qrupların nümayəndələri ilə mədəni əlaqələr yaratmış və iqtisadi-ticarət həyata keçirmişlər. Qədim İpək yolunun buradan keçməsi, Azərbaycanın müxtəlif etnik-mədəni müxtəlifliklərə malik cəmiyyət kimi formalaşmasına və inkişafına səbəb olmuşdur. Subyektiv səbəb dedikdə isə ölkə idarəsindəki dövlət xadimləri və ölkə xalqı nəzərdə tutulur. Ölkə başçılarının multikultural cəmiyyət yaratmaqda rolu əvəzsizdi. Ölkə başçılarının həyata keçirtdikləri uğurlu siyasət nəticəsində ölkə daxilində mədəni, irqi, dini, etnik müxtəlifliklər elə tənzimlənir ki, münaqişələrin yaranmasının qarşısı alınır. Digər bir subyektiv səbəb isə xalqın özüdür. Azərbaycan xalqı hər zaman öz mehribanlığı, qonaqpərvərliyi, başqa xalqlara qarşı tolerant münasibətləri ilə seçilmişdir.

Etnomədəni rəngarəngliyi ilə seçilən Azərbaycanda xalqlar və dinlər arasında əlaqələr, bu gün tolerantlıq adlandırdığımız tarixi birgəyaşayış prinsipləri əsrlərdən bəri formalaşmış ənənələrə, qarşılıqlı hörmət, etimad və əməkdaşlığa söykənir.

Müxtəlif mədəniyyətlərin Azərbaycan ərazisində kəsişməsi onun mədəniyyətinin inkişafina təsir göstərən əsas mənbələrdən olmuşdur. Tarix göstərir ki, şumer mədəniyyətinə aid nümunələrdən başlayaraq təxminən bütün digər mədəniyyətlərə aid izlər ölkə ərazisində mövcud olmuşdur.

Qədim zamanlardan müxtəlif xalqların Azərbaycan ərazisinə axın etməsi burada fərqli etnik, dini, irqi, mədəni müxtəlifliklərə məxsus olan xalqların birgə yaşamasına

səbəb olmuşdur. Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində məskunlaşmış xalqlar ölkədə multikultural ənənələrin inkişafında başlıca rol oynamışlar.

Azərbaycan ərazisində yaşayan xalqlara belaruslar, ruslar, ləzgilər, ermənilər, avarlar, ukraynalılar, yəhudilər, osetinlər, başqırdlar, laklar, kürdlər kimi milli azlıqları, saxurlar, dağ yəhudiləri, talışlar, udilər kimi azsaylı xalqları, buduqlar, Ahısxa türkləri, qrızlar, tatlar, haputlar, lahıclar, ingiloylar, ceklər, xınalıqlar, kazaklar, Krım tatları, gürcü yəhudiləri, tabasaranlar kimi etnik azlıqları misal göstərmək olar. Lakin bütün bu sadalanan azsaylı xalq, milli azlıq, etnik azlıqlardan başqa, ölkə ərazisində bəzi digər etnik azlıqların, xalqların və millətlərin də nümayəndələri də məskunlaşıb. Litvalılar, özbəklər, moldavanalar, qazaxlar, türkmənlər, aqullar, latışlar, abxazlar, taciklər, qırğızlar, komilər, darginlər, qırğızlar, qumuqlar, almanlar, kabardinlər, buryatlar, marilər, çeçenlər, çərkəzlər, noqaylar, qaqauzlar, qaraçılar, əfqanlar, Orta Asiya yəhudiləri, vyetnamlılar, koreyalılar, ərəblər, kubalılar, adıgeylər, yunanlar bu nümayəndələrə aiddirlər (31, s.71).

Avarlar qədim zamanlardan bəri Azərbaycan ərazisində yaşayan ilkin xalqlardandırlar. Tədqiqatçıların bir çoxunun məlumatına görə XVII əsrdə Dağıstandan köçüb gəlmiş avarlar Şəki-Zaqatala ərazisində yerləşən avar kəndlərinin böyük bir hissəsini təşkil edirlər. Azərbaycan əhalisinin 50 minini avarlar təşkil edir (34,s.11). Onlar əsasən Zaqatala və Balakən rayonlarının ərazisində məskunlaşmışlar. Zaqatala və Balakən rayonlarında 7 minə yaxın şagirdin təhsil aldığı 19 məktəb fəaliyyətini davam etdirir (34, s.11). Balakən rayonunun Qabaqçöl qəsəbəsində, Gərəkli, Katex, Mahamalar kəndlərində məskunlaşan avarlar, islam dininə etiqad göstərirlər. Avarların adət-ənənələrinin, dininin, mədəniyyətinin qorunub saxlanılması məqsədi ilə 2007-ci ildə yaradılmış Avar Mədəniyyət Mərkəzi isə 2008-ci ildən bəri öz fəaliyyətini davam etdirir (34,s.11).

Axaxlar Dağıstan xalqlarına mənsub avarlardan sayılırlar. Axaxlar əsasən Zaqatalanın Axaxdərə kəndində və Dağıstan ərazisindəki Axvax rayonunda yaşayırlar (25).

Azərbaycan ərazisində say baxımından ikinci yeri ruslar tutur. Quba, Lənkəran, Şamaxı qəzalarında XIX əsrin 30-40-cı illərində ilk rus kəndləri salınmışdı. Rusların

bir çoxu XIX əsrdə buraya köçürulmüşdür. XIX əsrdə köçürülən ruslar iki yerə bölünürdülər. Birinci hissəyə XIX əsrin 70-80-ci illərində burada məskunlaşıb daha sonra müflisləşmiş kəndlilər, digər qrupa isə xristianlığın fərqli cərəyanlarına aid təriqətçilər idi. XX əsrin 20-ci illərində isə rusların Azərbaycan ərazisinə növbəti gəlişi baş vermişdir (4).

Azərbaycanın köklü əhali qrupuna daxil olan azlıqlardan biri də qədim alban tayfalarından olan udilərdir. Qafqaz dillərinin Nak-Dağıstan dil qrupuna daxil olan udilər haqqında məlumatı eramızdan əvvəl V əsrdə yaşamış qədim yunan tarixçisi Herodotun "Tarix" kitabəsində tapa bilərik. Eramızdan əvvəl I əsrdə yaşamış başqa bir tarixçi Strabon "Coğrafiya" kitabında Qafqaz Albaniyasında yaşayan 26 müxtəlif dildə danışa bilən albanlar arasında udilərin adını çəkir. Udilər ümumiyyətlə Qafqaz Albaniyasının Uti və Arsak əyalətlərində yaşayırdılar. Udilər haqqında digər məlumatlara XIX əsrdə Azərbaycana səfər etmiş məşhur fransız yazıçısı A.Dümanın "Qafqaz ekspedisiyası" kitabında rast gələ bilərik. 19-cu əsrin ikinci yarısındakı qeydləri nəzərə alsaq, Yelizavetpol quberniyasında yaşayan udilərin öz etnik kimliklərini qoruyub saxladıqları bildirilsə də, Türkmənçay və Ədirnə müqavilələrindən sonra ermənиləşmə prosesləri başlamışdır (15). Sovet dövründə Yelizavetpol quberniyasında yaşayan udilərin bir hissəsi SSRİ-nin müxtəlif bölgələrinə yayılmış, Ermənistan SSR-də qalanlar isə assimilyasiya yolu ilə erməniləşmişlər. Bu gün udilərin sayı 4000 nəfərə yaxındır və onların dilləri iki dialektə - nik və vartasen bölünür (19). Udilərə bəzi mənbələrdən udinlər kimi müraciət olunur. Udilərin, özlərinin xüsusi əlifbası yoxdur. Qədimdə udilər Qafqaz Albaniyasının ərazisində məskunlaşmışlar. Udilər Oğuz, Şəki, Qəbələ rayonlarının ərazisində yaşamışlar. Günümüzdə onların məskunlaşdığı əraziyə Şəki-Zaqatala bölgəsi də aiddir (18).

Azərbaycanın Lerik, Lənkəran, Astara və Masallı ərazilərində isə talışlar yaşayırlar. Talışların etnogenezində Atropatenadakı kadusilər böyük təsir göstərmişlər (96).

Ölkə ərazisində yaşamış ən qədim xalqlardan biri də buduqlar olmuşdur. Quba xanlarının XVIII və XIX əsrlərinin əvvələrində verdikləri fərmanlar buduqların

həyatında mühüm rol oynamışdır. Quba rayonunda yerləşən Buduq kəndi də bu etnik azlığın ölkə ərazisindəki mövcudluğunu təsdiqləyir (28).

Digər azlıq qrupu tatlardır. Onların Azərbaycanda məskunlaşması orta əsrlərdə baş verib. Yəni Sasani hökmdarları III-VI əsrlər boyu Qafqaz Albaniyasını özünə bağlamaq üçün miqrasiya siyasəti həyata keçirmişdir. AA. Bakıxanov "Gülüstani-İrem" kitabında Sasani şahlarının bu siyasətinə istinad edərək, gələnlərin ölkənin strateji əhəmiyyətli torpaqlarında, yəni Abşeron yarımadasından Dərbəndə qədər uzanan sahilyanı ərazilərdə məskunlaşdıqlarını yazırdı. Bu azlıq qrupları Sasani hökmdarları üçün sosial zəmin təşkil edirdi (14). Bu gün tatlar isə Azərbaycanın Şamaxı, Dəvəçi, İsmayıllı və Quba ərazilərində məskunlaşmışlar. A.Bakıxanovun və digər tədqiqatçıların düşüncəsinə görə IV-VI əsrlərdə buraya Sasani şahları tərəfindən köçürülən tatlar, onların əcdadları sayılır (71).

Tədqiqatçıların fikrincə əcdadlarından biri leqlər sayılan ləzgilər, əsasən Azərbaycanın Qusar rayonu ərazisində yaşayırlar. Lakin Qəbələ, Quba, İsmayıllı, Xaçmaz ərazilərində də ləzgi kəndləri mövcuddur.

Öncədən Dağıstanda yaşamış saxurlar isə, daha sonra Zaqatala və Qaxdakı bəzi kəndlərdə məskunlaşmışlar. 1992-ci ildən isə Saxur Mədəniyyət Mərkəzi Azərbaycan ərazisində öz fəaliyyətini davam etdirir. Bu mərkəzin əsas məqsədi saxurların dilinin, adət-ənənəsinin, mədəniyyətinin təbliğ edilməsinə xidmət göstərməkdir (34,s.8).

Quba rayonundakı Qırmızı Qəsəbədə, Bakıda, Oğuzun mərkəzində yaşayan dağ yəhudilərinin məskunlaşdığı ən böyük yaşayış məntəqəsi Qırmızı Qəsəbə sayılır. XIX əsrdə isə Avropa yəhudilərinin Belarus, Rusiya, Polşa və Ukraynadan ölkə ərazisinə miqrasiyası baş tutmuşdu (71).

Azərbaycanda bərabərhüquqlu vətəndaş kimi nəzərdə tutulan gürcülər, əsasən Qax və Zaqatala ərazilərində məskunlaşmışlar. Ölkə gürcülərə həmişə diqqət göstərmişdir. 1981-ci ildən fəaliyyət göstərən Gürcü Xalq Teatrına Dövlət Gürcü Dram Teatrı kimi ad verilməsi bu diqqət və qayğının sübutudur (34,s.91).

Yuxarıda haqqında məlumat verilən bir çox milli azlığın nümayəndələri tarix boyunca Azərbaycan ərazisində yaşamış, yerli xalqın adət-ənənələri, mədəniyyəti kimi qarşılıqlı əlaqədə olmuş, lakin öz mədəniyyətlərini itirməyərək qoruyub

saxlamağı bacarmışlar.

Azərbaycanda mədəniyyətin inkişafına təsir göstərən bir digər amil isə ölkə ərazisində müxtəlif dinlərin mövcudluğu idi. Azərbaycan ərazisində yaşamış xalqlar öncə mifik bədii təfəkkür ilə tanış olmuş, daha sonra isə Zərdüştlük, Xristianlıq kimi dini dünyagörüşlərinə yiyələnmişlər. İslam dinin yayılması isə xalqın həyatında yeni mərhələyə qədəm qoymuşdur.

Mifik bədii təfəkkür tarixən Azərbaycan xalqının həyatında ilkin yeri tutmuşdur. Miflər xalqların tarixinin öyrənilməsində mühüm rol oynayır. Tarixən Azərbaycan ərazisində mövcud olan miflər də burada yaşamış xalqların həyatının öyrənilməsinə kömək edir.

Miflərdən sonra Azərbaycan ərazisində yaşayan xalqlar Zərdüştlük dini ilə tanış olmuşlar. E.ə. VI əsrdə ölkə ərazisində yaranan Zərdüştilik dini, VII əsrdə İslamın yaranması ilə zəifləmişdir (1,s.244). Buna baxmıyaraq İslam dininin ən güclü dövrlərində belə, Bakının Suraxanı qəsəbəsində Atəşgah öz fəaliyyətini davam etdirmişdir. Bu məbəd hələ də ölkənin əsas abidələrindən biri sayılır. Zərdüştilik xeyirlə şərin müharibəsindən danışır. Zərdüştilik İranın qərbindən Araz çayına qədər uzanan ərazidə, yəni Azərbaycanın cənubunda geniş coğrafiyada yayılmışdır. . Zərdüştiliyin müqəddəs kitabı Avestadır. Zərdüştilik Sasanilər dövründə dövlət dini kimi qəbul edilsə də, Xilafət dövründə müsəlman dünyasında “Kitab əhli” kimi tanınmadığından pis rəftara məruz qalmışdır (1,s.245).

Azərbaycan ərazisində mövcud olan bir digər din Yəhudilikdir. Yəhudiliyin ölkə ərazisindəki digər dinlərdən əsas fərqi yalnız yəhudilərin bu dinə etiqad göstərmədir. Bu din e.ə. VIII əsrdə Azərbaycanda meydana çıxmışdır (1,s.244). Yaşadıqları digər məkanlarda təzyiqlərə məruz qalmış yəhudilər Azərbaycanı sığınacaq kimi görmüş və burada məskunlaşmağa başlamışlar. Məskunlaşdıqları bir çox ərazidə təzyiqlərə, işgəncələrə məruz qalmış yəhudilər, Azərbaycanda azad və sərbəst yaşaya bilmişlər. Ümumiyyətlə isə yəhudilər dağ yəhudiləri, aşkenazilər və gürcü yəhudiləri olmaqla üç yerə bölünürlər (13). Dağ yəhudiləri ölkə ərazisində məskunlaşmış ilk yəhudi qrupudur. Dağ yəhudiləri Azərbaycanda yaşayan aşkenazilər və gürcü yəhudilərinə müqayisədə sayca daha çox üstünlüyə malik olmuşlar. Ehtimallara görə dağ

yəhudiləri Sasani imperiyası dövründə Şimali Azərbaycan ərazisində məskunlaşmışlar. Azərbaycanda yaşayan dağ yəhudiləri üçün ən önəmli dövrlərdən biri ölkənin müstəqillik qazandığı zamanlardır. Azərbaycan müstəqillik qazandıqdan sonra yəhudilərin mədəniyyətlərini, adət-ənənələrini inkişaf etdirmələri üçün dövlət onlara dəstək göstərmiş və həmçinin yeni sinaqoqlar tikdirmiş, dini mərasim və bayramlarını sərbəst şəkildə qeyd etməyə əlverişli şərait yaratmışdır. Gürcü yəhudiləri Azərbaycanda yaşamış ən qədim ikinci yəhudi icması sayılır. Gürcü yəhudiləri keçmiş dövrlərdən bəri Gürcüstan ərazisində yaşayıb, gürcü dilində danışmışlar. Aşkanezilər digər adı ilə Avropa yəhudiləri ölkə ərazisində yaşayan yəhudilərin bir qolu sayılır. Avropa yəhudilərinin Azərbaycanda məskunlaşması təqribən XIX əsrin əvvələrində Türkmənçay müqaviləsindən sonra başlamış, XIX əsrin ikinci yarısına kimi olan dövrü əhatə etmişdir. 1897-ci ildə Azərbaycanda yaşayan 2500 yəhudinin əsas hissəsini aşkanezilər təşkil edirdi (13). Tarixən yəhudilərə aid bir çox sinaqoq inşa edilmişdir. Halhazırda Bakı, Quba, Oğuzda altı sinaqoq, Sumqayıt və Gəncədə isə yəhudilərə aid ibadət evləri fəaliyyətini davam etdirir. 1910-cu ildə Bakıda inşa edilmiş sinaqoq aşkanezilər üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, təlim-tədris mərkəzinə də çevrilmişdir. 2010-cu ildə isə Qırmızı qəsəbədə yerləşən 200 yaşlı sinaqoq təmirdən sonra fəaliyyət göstərməyə davam etmişdir. 2010-cu il oktyabrın 4-də isə Bakıda yaşayan yəhudilər üçün "Xabad Or-Avner" Təhsil Mərkəzinin açılışı baş tutub (13).

Ölkədə bir çox mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bunlara misal olaraq kürd mədəniyyət mərkəzi olan Ronaini, udin mərkəzi olan Oraini, polşa mərkəzi Polonianı, tatar mədəniyyət cəmiyyəti Tuqan-Teli və mədəniyyət mərkəzi Yaşlıqı göstərmək olar. Cəmiyyətlər və birliklər arasında yəhudi qadınlarının və azərbaycanlı gürcülərin humanitar birlikləri, Mada İnternational və Avesta adlı iki talış birliyi, samur və ləzgi milli mərkəzi, rus icmasının Slavyan Mədəniyyət Mərkəzi, Avar cəmiyyəti və s. mövcuddur (71).

Ölkə ərazisində yayılmış digər din isə xristianlıqdır. Xristianlıq Katoliklik, Pravoslavlıq, Protestantlıq qolları ilə Azərbaycanda təmsil olunur. Ölkə ərazisində yerləşən Qafqaz Alban kilsəsi xrianlığın ən qədim abidələrindən biri sayılır. Eramızın

II yüzilliyindən başlayaraq Azərbaycan ərazisində xristian icmalar yaranmağa başlamışdır. 1815-ci ildə Bakıda ilk pravoslav kilsəsi açılmışdır. 1888-1898-ci illərd ə "Aleksandır Nevski" adlı bir kilsə Bakıda inşa olunmuş və XIX əsr üçün Cənubi Qafqazın ən iri və mükəmməl pravoslav kilsəsi nəzərdə tutulurdu (1,s.248). XVII əsrdə isə katolik icmalarının inkişafı baş vermişdir. Artıq XIX əsrdə Bakıda min nəfərdən çox katolik var idi. Bu dövrdə bir çox kilsə fəaliyyətə başlamışdır. Bunlardan biri də 1900-cu ildə rəsmi fəaliyyətə başlamış Məryəmin Bakirə Hamiləliyi həsr olunmuş kilsə (1,s.249), 1903-cü il Müqəddəs Xaç kilsəsidir. "Xilaskar Yevangelik Lüteran", "Həyat sözü", "Yeni Həyat", "Yehovanın şahidləri " kimi icmalar protestantlığın Azərbaycandakı təmsili kimi fəliyyətinin davam etdirir (1,s.250). Bakıda və Gədəbəydə XIX əsrin sonu XX əsrin əvvələrində lüteran kilsələri inşa olunmuşdur (1,s.253).

Azərbaycan ərazisində ən geniş yayılmış din islamdır. Hicrətin 18-ci ilindən Azərbaycanda islam yayılmağa başlamışdır (2). Bu da 639-cu ilə təsadüf edir. Tarixçilər islamin yayılmağa başladığı bu dövrü altı mərhələyə bölmüşlər. VII əsrin ortalarından VIII əsrin əvvəllərinə qədər davam edən birinci dövr "İslam fütuhatları" dövrü adlanır. Bu dövrdə ərəblər Azərbaycanın bir çox ərazisini ələ keçirmiş və bu ərazilərdə islamı qəbul etdirməyə çalışmışlar. VIII əsrin başlanğıcından Büveyhilərin hakimiyyətə gəlməsinə qədər davam edən müddət isə ikinci mərhələyə aiddir. Bu dövrdə artıq Azərbaycanda bir neçə müstəqil feodal dövləti yaranmışdı. Büveyhilərin hakimiyyəti dövrünü təsvir edən üçüncü mərhələdə şiəlik yayıılmağa başladı, sünni və şiə məzhəblər vacib rol oynamağa başladı, sufilik inkişaf etdi. Sünniliyin ərazidə mövqeyinin gücləndiyi, şafiliyin əsas məzhəbə dönüşdüyü, şiəliyin təsirinin zəiflədiyi, sufiliyin daha çox əraziyə yayıldığı dördüncü mərhələ isə Səlcuqilər imperiyasının dövrünü əhatəliyir. Monqol istilaları beşinci dövrü əhatə edir. Həm Səfəvilərin, həm də XVI əsrdən başlayaraq Osmanlıların hakimiyyəti altıncı mərhələni təsvir edir (2). Azərbaycanda islam dininə aid memarlıq nümunələri tarixin müxtəlif dövrlərində Nizami, Nəsimi, Füzuli, Sühverdi və s. kimi şəxsiyyətlər tərəfindən bəxş edilmişdir. İslam dininə aid bir çox məbəd, məscid, ziyarətgah Azərbaycan ərazisində öz fəaliyyətini qədim zamanlardan bu yana davam etdirir.

İslamı təmsil edən bu cür memarlıq nümunələrinə Bakıda yerləşən Cümə məscidini, Mərdəkanda yerləşən Tübaşahı məscidini, Xıdır, Mirzə Əhməd kimi məscidləri göstərmək olar. Bundan əlavə XX əsrin 20-ci illərində zərər vurulmuş Bibiheybət məscidi yenidən inşa edilməsi, İslam universiteti tikilməsi də islam dininin xalqın həyatındakı aparıcı mövqeyini göstərir (2).

Qədim zamanlardan bu günə kimi Azərbaycanda mövcud olan bütün dinlərin nümayəndələrinə eyni cür yanaşılmışdır. Bütün dinlərə eyni şəkildə hörmət edilmiş, hər bir dinin özünəməxsus göstəricisi məbədlər, kilsələr, sinaqoqlar və s. inşa edilmişdir.

Multikultural ənənələrdən danışarkən dilin önəmini də qeyd etmək lazımdır. Azərbaycan ərazisini nəzərdən keçirsək görə bilərik ki, ölkə ərazisində məskunlaşmış xalqlar dörd böyük dil ailəsinə yəni türk, şimali qafqaz, hind-avropa və kartvel dil ailələrinə aid olmuşlar (26). Şimali Qafqaz dilləri arasında ləzgi dili ən geniş yayılmış dil olsa da, avar, xınalıq, qrız, saxur, buduq və udi dilləri də buraya aiddir. Balakən, Qax və Zaqatalada yaşayan xalqlar Dağıstan dillərinə, tat, kürd, talış dillərini təmsil edən dillər isə İran qrupu dillərinə aid olmuşdur.

Azərbaycanda multikulturalizmdən danışarkən ədəbiyyatları da nəzərə almaq lazıçdır. Klassik Azərbaycan ədəbiyyatında multikulturalizm ideyaları bir neçə formada özünü göstərmişdir. Onları belə izah etmək olar:

1. Müxtəlif dinləri təmsil edən xalqların adları hörmətlə anılır, onlara hörmət və dostluq hissləri aşılanır.

2. Başqa dinləri təmsil edən müqəddəs insanlara böyük ehtiram göstərilir, onların davranışı, əxlaqi həyat tərzi nümunəvi və ya təqdir olunur.

Azərbaycan ədəbiyyatının bir çoxu multikulturalizmin daşıyıcılarına çevrilmişdir. Məhz, XII əsrdə yaşamış məşhur şair Əfzələttin Xaqani Şirvani anası İslamı qəbul edən Nestori qızı idi (36). Xaqaninin əsərlərini tədqiq etdikdə şairin xristianlıq haqqında dərin biliyə malik olduğu və bu dinə həmişə hörmətlə yanaşdığı görünür.

Məlum olduğu kimi, klassik Azərbaycan ədəbiyyatı İslam dininin qəbulundan sonra geniş yayılmış ənənəyə uyğun olaraq 3 dildə: ərəb, fars və türk dillərində yazılmış və bu ənənə 20-ci əsrə qədər davam etmişdir.

Klassik Azərbaycan ədəbiyyatından danışarkən ən çox vurğulanmalı olan şair Nizami Gəncəvidir. Şairin yaradıcılığının əsas mövzusunu ədalət, dözümlülük, bərabərlik, bütün insanlara sevgi, humanizm və müdrik hökmdar ideyası təşkil edir. Nizami "Yeddi gözəl" və "İskəndərnamə" poemalarında müxtəlif xalqların nümayəndələrinin parlaq obrazlarını yaratmışdır. Məhz, şairin "Yeddi gözəl" poemasının baş qəhrəmanı olan Behramın ətrafındakı qadın obrazlar 7 fərqli iqlimdən, müxtəlif dinlərdəndir (1,s.120). Bunlar hind, yunan, slavyan, meqrib, xarəzm, çin və türk gözəlləridir. Nizaminin digər mətni "İskəndərnamə", baş qəhrəman qərblidir: Makedoniyalı İsgəndər. Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında İslamın banisi Məhəmməd Peyğəmbər, Azərbaycan mütəfəkkiri Zərdüşt ilə yanaşı, həm də yunan filosoflarına – Sokrata, Platona, Aristitelə eyni dərəcədə rəğbət göstərməsi və onların fikirlərini özünəməxsus şəkildə qələmə alması şairin tolerantlığından xəbər verir (20).

Xaqani və Nizaminin multikultural dəyərlərə sadiqliyi özünü həm də onda göstərirdi ki, onlar öz əsərlərində təkcə Azərbaycan mədəniyyətinə və islam dininə deyil, bütün dünya mədəniyyətinə və dünyanın, demək olar ki bütün dinlərinə eyni münasibət və maraqla yanaşırdılar. Həm Xaqani öz şeirlərində, həm də Nizami özünün möhtəşəm poemalarında Bibliya mövzularına tez-tez müraciət edir, Bibliya süjetlərinin bir çox personajlarını xatırlayır və onları özünəməxsus şəkildə yenidən mənalandırırdılar (1,s.130).

Multikulturalizm sahəsində tövhəsi olan bir digər şəxsiyyət Nəsrəddin Tusi olmuşdur. O, islam mədəniyyətini ona tamamilə yad olan köçəri monqol mədəniyyəti ilə ortaq məxrəcə gətirə bilən nəhəng simalardan biri idi. Nəsiminin multikultural dəyərlərə bağlılığını dini-fəlsəfi təlimləri dərindən öyrənərək yeni bir dini-fəlsəfi təlim, yəni hürufiliyi yaratmaqda görmək olar. Nəsimi Azərbaycanda meydana gələn bu təlimin bir çox dünya ölkələrində yayılmasına da nail olmuşdu (1,s.131).

Eynəlquzat Miyanəçi öz əsərlərində açıq anladırdı ki, dini kitabları əsas gətirərək yaradılan məzhəblərin heç biri həmin dini kitabların tələblərinə cavab vermir və onların hamısında yanlışlıqlar vardır. Bu fikirdən isə o alınır ki, cəmiyyətdə məzhəblər əsasında qarşıdurma yarandıqda hansı məzhəbin daha doğru mövqedə

olduğunu qəbul etmədən əvvəl, onların dediklərini, irəli sürdükləri tələblərin əsaslandıqları dini kitabların tələblərinə nə dərəcədə uyğun olduğunu yoxlamaq lazımdır. Bu prinsip multikultural mühitin yaradılmasında çox mühüm rol oynayırdı (1,s.133).

Nəsirəddin Tusi, cəmiyyətlə bağlı əsərlərində həmişə birgəyaşayış qanunlarının axtarılması ilə bağlı fikirlər yürüdür. O, cəmiyyəti bir bədən timsalında görür. Onun əsərlərində tolerantlıq nümunələri barədə baxışları aydın görünür.

Mirzə Fətəli Axundzadə dərin multikultural şəxsiyyət və yaradıcılığıa sahib olmuşdur. görünməkdədir. M.F.Axundzadə dini təlimlərdə plüralizm, dini ehkamlara qarşı ateist fikirlərin olduğunu öz fəlsəfi əsərlərində qələmə almışdır. M.F.Axundzadənin cəmiyyətdə multikultural və tolerant fikirlərə münasibəti onun həm bədii, həm də fəlsəfi əsərlərində geniş yer tutmuşdur.

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan publisistikasında maarifçilik məsələsi ilə yanaşı multikulturalizm, müxtəlif mədəniyyətlərin vəhdəti, tolerantlıq mövzuları geniş yer alırdı. Xüsusilə “Əkinçi”, “Şərqi-Rus”, “Həyat”, “Füyuzat” və s. qazetlərdə çıxış edən din xadimləri, ziyalılar öz məqalələri, şeirləri və s. əsərləri ilə bu sahədə də geniş fəaliyyət göstərmişdirlər (1,s.140). Əhməd Hüseynzadə Səlyani, Mövlazadə Şəkəvi, Əbu Turab Axundzadə, Axund Yusif Talıbzadə, Mir Məhəmməd Kərim əl-Bakuvi, M.Kazımbəy, M.F.Axundzadə, H.Zərdabi, S.Ə.Şirvani, H.Cavid, Ü.Hacıbəyli, M.Hadi, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, C.Hacıbəyli, C.Məmmədquluzadə kimi mütəfəkkirlər dövrün əsas problemləri olan məzhəbçilik, dünyəvi elm düşmənliyi, qadın təhsili problemi kimi, multikulturalizmin bir çox müddəaları ilə bağlı olan məsələlərdə öz yazıları ilə Azərbaycan xalqının həyatına aydınlıq gətirməyə çalışmışlar.

Əhməd Hüseynzadə Səlyani M.F.Axundzadə ilə birlikdə əlifba islahatı ideyasını dəstəkləmiş, “Əkinçi” də nəşr olunan məqalələrində, dünyəvi elmlərin də məktəblərdə tədris edilməsinin vacibliyini vurğulamışlar (1,s.141).

Mövlazadə Şəkəvi “Şərqi-Rus” qəzetind“ əFəziləti-elm” başlıqlı silsilə məqalələrində ayə və hədislərdən nümunələr verərək maarifçi fikirləri təbliğ edir, elm öyrənmək üçün hətta Çin kimi uzaq ölkədə təhsil almağın gərəkliliyini dini dəlillərlə

dəstəkləyirdi.

Dövrün demək olar ki, ən mütərəqqi din xadimlərindən biri, azərbaycanca ilk Quran təfsiri əsəri olan “Kəşfül-həqayiq” əsərini yazaraq islam maarifçiliyinin şah əsərini ortaya qoyan Bakı qazısı Mir Məhəmməd Kərim əl-Bakuvinin həm ictimai fəaliyyəti, həm əsərləri, moizələri multikulturalizm baxımından da çox zəngindir. Erməni-mü- səlman münaqişəsinin həllində aktiv rol oynayan əl-Bakuvi 1906-cı ildə Bakıda yaradılmış xüsusi komissiyada Ə.Topçubaşov, Ə.Hüseynzadə və Ə.Ağaoğlu ilə birlikdə fəaliyyət göstərərək məzhəblərarası yaxınlaşmanı təmin etməyə çalışmışdı. Əl-Bakuvinin “Kəşfül-həqayiq” əsəri və “İrşad” qəzetində nəşr olunan moizələri islamda vəhdət ideyası və dünyəvi elmlərin öyrənilməsinin vacibliyi, bu problemin həllində müəllifin ortaya qoyduğu çıxış yolları, hətta digər din mənsubları ilə müsəlmanların birgəyaşama prinsiplərini ehtiva etməsi baxımından xeyli zəngindir (1,s.141).

Azərbaycana tarixin müxtəlif dövrlərindən bu günə kimi nəzər yetirdikdə, buradakı multikultural ənənələrinin müxtəlif yaranma səbəbləri özünü əks etdirir. Ölkə ərazisində fərqli etnik qrupların mövcudluğuna, onların müxtəlif adət-ənənələrə, dini görüşlərə, dil ailələrinə mənsub olmalarına baxmayaq, birgə yaşayışa mane olacaq heç bir səbəb olmamışdır. Multikulturalizmi beynəlxalq platformaya çevirmək istəyən Azərbaycan bu gün dünyada etnik dini ayrıseçkiliyə və dözümsüzlüyə, ksenofobiyaya, etnomədəni narsisizmə qarşı mübarizədə dünya ictimaiyyətini səfərbər etmək naminə mühüm təşəbbüslər irəli sürür. Azərbaycanda multikultural ənənələr inkişaf etmiş, bu gün müxtəlif etnik qrupların öz adət-ənənələrini, mədəniyyətlərini, dini görüşlərini qoruyaraq mövcudluqlarını davam etdirmələrinə səbəb olmuşdur. Ölkənin tarixi keçmişi, mədəniyyəti onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat, bir ailə kimi yaşayıblar. Azərbaycanın tarixi, dini abidələrimiz həm qədim tarixini göstərir, eyni zamanda, göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur.

### 1.3 Norveçdə dini və etnik müxtəliflik, multikulturalizm ənənələri.

Norveç tarixi baxımdan çox uzun inkişaf dövrü keçmişdir. İlk öncə İsveç ilə

birlikdə Danimarka Krallığının himayəsində Kalmar ittifaqı təşkil edən Norveç, İsveçin birliyi tərk etməsindən sonra Danimarka ilə ittifaqı davam etdirmiş, 1905-ci ildə isə öz müstəqilliyini elan etmişdir (32,s.109). Norveçin sahib olduğu bu tarix ölkədə multikultural ənənələrin yayılmasına da öz təsirini göstərmişdir.

Norveç 1960-cı illərə qədər beynəlxalq münasibətlərdə söz sahibi ola bilməzdi. Lakin 1970-ci illərdə neft və təbii qaz ehtiyatlarının aşkarlanması ilə iqtisadiyyatı sürətlə inkişaf edən Norveç ölkədə yaşayış şəraitini yüksəltməklə böyük tərəqqiyə nail oldu.

Norveçdə bir çox xalqın nümayəndələri yaşasa da, ölkənin yerli xalqı Samilər sayılır. Sayları 30 min – 50 min olan samilər Norveç, Finlandiya, İsveç və Rusiyada məskunlaşmış xalqdır. Ölkənin yerli xalqı olmağına baxmayaraq, 1950-1960-cı illər samilər üçün çətinliklərlə dolu olmuş, bu dövrdə xalqın dili, dini, geyimləri və s. qadağa edilərək, öz mövcudluqlarını itirmək qorxusu ilə qarşılaşmışlar (23,s.170). Bütün bunlara baxmayaraq, samilər öz mövcudluqlarını davam etdirə bilmişlər. Sami Parlamentinin 1989-cu ildə əsasının qoyulması buna göstərilə biləcək ən böyük sübutdur. 1993-cü ildən bu yana fevralın 6-sı samilərin milli günü kimi qeyd olunur. Samilərin bayraqları isə 1986-cı ildə qəbul olunmuşdur (23,s.171).

Avropa Şurasının Çərçivə Konvensiyası rumınlar yəni səyahətçilər, skogfinner yəni meşə finləri, yəhudilər, roma yəni qaraçılar və kvenler yəni şimaldakı Fin mənşəli xalq olmaqla beş milli azlıq qrupunun Norveç ərazisində yaşadığını müəyyən etmişdir (23, s.176).

1950-cı illərə kimi bir ərazidən başqa əraziyə səyahət edən rumınlar, hökümət tərəfindən heç bir dəstəyə deyildilər. Rumınları dəstəkləməyən hökümət 1950-ci ildən sonra onların artışlarına mane olmaq üçün tədbirlər görməyə başladı. Bu zaman rumınların əlindən atları alındı, qadınlar sonsuz edildi və s. tədbirlər həyata keçirildi (23, s.176).

Yəhudilərin Norveçdə 1800-cü illər və ya daha əvvəlinə kimi gedib çıxan tarixi var. Norveçdəki yəhudi azlığını təxmini 1500 nəfər təşkil edir. 1814-cü il qanuna əsasən yəhudilərin Norveçə girişi qadağan edilsə də, bu qadağa 1851-ci ildə aradan qalxdı. Əsasən 1880-ci illərin sonlarında çoxlu yəhudinin Norveçə gəlməsinə

baxmayaraq, tarix boyu onların ölkəyə çox böyük köçləri olmamışdır. Yəhudilər Norveçin Oslo və Trondheim şəhərlərində məskunlaşsalar da, digər ərazilərdə də kiçik yəhudi icmaları yaratmışdılar (66, s.15).

Böyük bir hissəsi öncədən Finlandiyanın Saxolax ərazisində yaşamış finlər, müharibə, münbit şəraitin olmaması və s. səbəblərdən 1500-cu illərdən qərbə köç etməyə başlamışlar. 1600-cu illərin əvvələrində Finlər Norveç ərazilərində məskunlaşmağa başladılar. Finlərin məskunlaşdıqları ilkin ərazilər meşələr olmuşdur. Finlərin qəribə və çətin başa düşülən dilləri olduğu üçün onları çox vaxt barbarlar və sehrbazlar adlandırırdılar. Kvenlər isə Norveç ərazisinin şimalında məskunlaşmışlar. Onların Norveçə gəlib məskunlaşması, 1860-cı illərdə Finlandiyada baş verən böyük qıtlıq böhranı nəticəsində olmuşdur (83).

Norveçdə immiqrasiya digər Qərbi Avropa dövlətləri ilə müqayisədə daha gec başlamış, lakin 1960-cı illərin sonlarından etibarən sürətlənməyə başlamışdır. 1975-ci ilə qədər qərbli mühacirlərin çoxsu Pakistandan və Türkiyədən iş üçün gəlirdilər (23, s.177). 1975-ci ildə hökümət tərəfindən qəbul olunan qərara görə immiqrantların Norveçdə yalnız üç səbəblə yaşamasına icazə verildi. Daha sonra yalnız üç səbəblə miqrant qəbuluna qərar verildi. Birincisi, xüsusi ixtisaslı işçi qüvvəsinə tələbat idi, ikincisi, humanitar əsaslarla müdafiəni təmin etmək üçün qaçqınların və siyasi sığınacaq axtaranların ölkəyə girişi, üçüncüsü isə artıq Norveçdəki immiqrantların qohumları üçün ailə əsaslı immiqrasiya idi. 1975-ci ildən əmək miqrasiyası əhəmiyyətsiz olsa da, ailə əsaslı miqrasiyalar davam etdiyi üçün işçi qrupları da böyüməyə davam etdi (23,s.178). Əgər 2020-ci ildə Norveç əhalisi 5,4milion nəfər təşkil edirdisə, bu ilin statistikasına əsasən bu dövrdə ən çox immiqrant Polşadan gəlmişdir. Sayları 3657 nəfər olmuşdur. 3174 nəfərlə İsveç və 2702 nəfərlə Danimarka ikinci və üçüncü yeri tutmuşlar. Bu ardıcıllığı Birləmiş Krallıq, Litva, ABŞ, Almaniya və s. davam etdirmişdir (89).

Bütün bu milli azlıqların birgə yaşaması, ölkə ərazisinə immiqrasiyaların olması multikultural ənənələrin yaranmasına və inkişafına öz təsirini göstərmişdir. Lakin multikultural ənənələrə milli azlıqların özlərindən savayı onların dini dı öz təsirini göstərir.

Norveç ərazisi bir çox müxtəlif dinə ev sahibliyi edir. Ölkə ərazisində müəyyən bir din meydana gələnə kimi əhali bəzi fövqəltəbii qüvvələrə sitayiş etmişlər. Xristianlığın bu ərazidə məcburi şəkildə qəbul edilməsinə baxmayaraq, Norveç mədəniyyəti bu dinin təsiri ilə inkişaf etmişdir. Orta əsrlərdə xrianlığın əhəmiyyəti daha da artmış, ölkədə çoxlu kilsələr tikilməyə başlamışdı. XIII əsrin ikinci yarısında Norveçdə təqribi 1200 kilsə və 2000 sayda rahib mövcud idi (23,s.70). Nidaros kilsəsi ölkənin xristianlığı qəbulu ilə mühüm rol oynamağa başlamışdır. 1152-ci ildə bu kilsənin ölkə arxiyepiskopluğunun iqamətgahı kimi nəzərdə tutulması, artıq rahiblərin də yepiskop tərəfindən birbaşa seçilməsinə səbəb oldu. XIV əsrdə Norveçin müstəqilliyini itirməsindən sonra, III Kristian Lüteran kilsəsini ölkədə tək hüquqi kilsəsi olduğunu bildirdi (23,s.72). Artıq Katolik yepiskopların yerini Lüteran olanlar aldı.

XVIII-XIX əsrlərdə Norveçdə mövcud olan əsas iki cərəyandan biri Pietizm, digəri isə Maarifçilik idi. Bu iki cərəyan arasında fərqlərin olmasına baxmayaraq, hər iki bir-birini tamamlayırdı. Əsas məqsədi maarifləndirmək olan pietizm cərəyanı kralın din siyasəti kimi nəzərdə tutulurdu. 1736-cı ildə maarifləndirmək məqsədi ilə konfirmasiya hərəkatı başladı. Konfirmasiya olunmaq məcburi xarakter daşıyırdı və bu dövrdə bu hərəkatın uğurlu həyata keçirilməsi üçün 1739-da icbari təhsil yaradıldı (23,s.75).

1814-cü ildə qəbul edilən Norveç Konstitusiyasında dini etiqad azadlığına icazə verməyən bəzi maddələr var idi (65,s.778). Konstitusiyanın ikinci maddəsində dövlətin rəsmi dini Yevangelist-Lüteran olduğu müəyyən edilmiş və vətəndaşlar öz övladlarını bu dində böyütməyə borclu idilər. Bundan əlavə, bu maddələr əsasında ölkədə dövlətin qəbul etdiyi inancdan başqa heç bir dini quruma icazə verilməyib. Əslində, yəhudilər, yezuitlər və digər xristian məzhəbləri kimi müxtəlif inanclı icmaların Norveçə daxil olması qadağan edildi. 1814-cü ildən sonra Norveç tədricən müasir, tolerant, mədəni, plüralist bir quruluş qazanmağa başladı (65, s.779).

1840-cı illərin əvvəllərində qeyri-lüteran xristian icmalarına sərbəst yaşamağa və öz kilsələrini açmağa imkan verən qanunun qəbulu dini etiqadların azadlığına müsbət təsir göstərmişdi. Qanunun qəbulu nəticəsində məhdud da olsa müxtəlif

azadlıqlar verildi və 1842-1845-ci illərdə dini etiqad azadlığı ilə bağlı ilk addımlar atıldı və missioner birlikləri yaradılmağa başladı. Daha sonra 1851, 1897 və 1956-cı illərdə din azadlığının məhdudlaşdırılması istiqamətində həyata keçirilirən tədbirlərə qarşı böyük mübarizə aparılmışdır (65,s.779). Ölkədə din azadlığı ilə bağlı önəmli inkişaf 1960-cı ildən sonra baş verdi və o vaxtdan bəri Norveç cəmiyyətində dini plüralizm daha da genişlənmişdi. Bunun səbəbi ölkə ərazisində 1969-cu ildə neftin kəşfi ilə əlaqədar idi. Beləki neft sənayesi inkişaf etdikcə ölkəyə ucuz işçi qüvvəsinin axınını gücləndirmək məqsədilə Norveç dövləti bir sıra qanunlar qəbul etdi. 1964-cü ildə Konstitusiyaya əlavə edilən maddə ilə dini etiqad azadlığı konstitusiya hüququ kimi qəbul edilmiş və qanunla təmin edilmişdir. Bu qanunun qəbulundan etibarən bütün dinlərə ölkə daxilində öz icmalarını qurmaq hüququ verilmişdir. 1969-cu ildə bütün inancların azad şəkildə yaşana biləcəyi dini etiqad azadlığını təmin etmək və dini ayrı-seçkiliyi aradan qaldırmaq məqsədilə "Dini İcmalar Qanunu" qəbul edilmişdir. Bu yeni qanuna əsasən İslam, yəhudilik, buddizm, hinduizm, bəhailik və humanizm kimi din və inanclar hüquqi status qazanmış, dini icmalar ayrı-seçkilik edilmədən ictimai dəstək almaq hüququ qazanmışdır (52,s.173).

İslam, yəhudilik, buddizm, hinduizm və bahaizm kimi müxtəlif din və inancların mənsubları 1970-ci illərdən etibarən Norveçə gəliblər. Norveçdə daha qədim tarixə mənsub İudaizm və Bəhai kimi dinlərin nümayəndələri etnik norveçlilər sayılırlar. 1892-ci ildə Norveçdə ilk Yəhudi dini təşkilatı yaradılmışdı. Sonradan, 1920-ci ildə Osloda, 1925-ci ildə isə Tronheymdə inşa edilmiş sinaqoqlar hələ də yeganə sinaqoqlar olaraq mövcuddurlar. Almanlar tərəfindən zəbt olduqdan sonra yəhudilərin sayı azalsa da, təşkilat bu gün də fəaldır (23,s.170). Bəhailər də Norveçin tərkibində müəyyən yerə malik olmuşlar. Onlar 1948-ci ildə ilk mənəvi yığıncaqlarını keçirtmişlər. 2004-cü il statistikasına görə isə, ölkədə olan 1000 nəfərlik Bəhai icmasının təxminən əksəriyyətini norveçlilər təşkil etsə də, xeyli sayda İran əsilli bəhailər də mövcud idi (23,s.82).

Ölkə ərazisində yayılmış bir digər din isə islamdır. Təqribən XIV-XV əsrlərdə Rusiya vasitəsi ilə müsəlmanlar Norveç ərazisinə gəlmişlər (46,s.5). 1960-cı illərdən bəri immiqrasiya və sığınacaq yolu əsas məskunlaşma dövrü başlamışdır. 1960-cı

illərin sonlarından işçi kimi başlayan müsəlmanların miqrasiyasiya həyatı, 1975-ci ildən sonra ailə birləşməsi, 1980-2000-ci illərdə isə qaçqın və sığınacaq axtaran şəxs kimi davam etmişdir (46,s.5).

İlk vaxtlar Norveçdə məscidlər və dərnəklər etnik mənsubiyyət və məzhəb əsasında qurulurdu. Başqa sözlə desək, İslam təşkilatlarına üzv olmaq prosesi və orada təklif olunan xidmətlər daha çox dil və mənşə, siyasi və dini yanaşmalara əsaslanıb. Bunun ən mühüm səbəbi müsəlman mühacirlərin etnik mənşə, dil, mədəniyyət, siyasi və dini fərqliliklərə görə müxtəlif qruplara bölünməsidir. Bu ayrılıq həm də təşkilatlanma prosesində müsəlmanların vahid dam altında toplanmasının qarşısını almışdı. Bu səbəbdən hər qrup öz məscid və dərnəklərini qurmağı seçib. Ancaq bu anlayış və quruluş zamanla dəyişmişdi (76,s.140).

Müsəlmanlar arasında etnik mənsubiyyət, dil, mədəniyyət, məzhəb və siyasi baxışlar baxımından bir çox fərqli qruplar mövcuddur. Norveçin heterogen bir quruluşa malik olmasının səbəbi bu olmuşdur. Onların arasında iş üçün Norveçə gələn ilk müsəlman etnik qrup Pakistan əsilli mühacirlər olmuşdur. Ümumiyyətlə Norveçdə yaşayan müsəlmanların əksəriyyətini Pakistan və Somalidən gələnlər təşkil edir.  Bunlardan başqa Türkiyə, İran, İraq, Əfqanıstan və s. ölkələrdən gəlib məskunlaşanlar da vardır (75,s.140). Pakistanlıların Norveçdəki mövcudluğu yeddi qrup vasitəsi ilə həyata keçirilirdi: Barelvi Hərəkatı, Təbliğ Camaatı, Camaat-i İslami, İdar Minhaj əl-Quran, Əhmədiyyə Cəmiyyəti, Dünya İslam Missiyası və Camaat-i Sünnə (92,s.478). Türkləri isə Türkiyə Cümhuriyyəti Diyanət İşləri Başçılığına bağlı Türk-İslam Birlikləri, Süleymançılar, Milli Görüş Təşkilatı, Fətullah Gülən Hərəkatı, Türk Ələvi dərnəkləri və Türk Kültür Dərnəyi təmsil edir (72,s.442). İran müsəlmanları da şiə, sünni və bəhai olmaqla üç fərqli qrupa bölünür (72,s.442). Bunlardan başqa digərləri ilə müqayisədə daha az olan Afrika, Asiya və Yaxın Şərq əsilli müsəlman qrupları da var. Məzhəb baxımından islamı Norveçdə sünni və şiələr təmsil edir. Sünnilər müsəlmanların 85%-ni, şiələr isə 15%-ni təşkil edirdi. Müsəlmanların Dini Qurumları 1960-cı illərdən bəri Norveçə köçən müsəlmanlar, əcnəbi olduqları Norveç mədəniyyətinə assimilyasiya edilmədən adət və ənənələrini qoruyub saxlamağa çalışarkən, digər tərəfdən ehtiyaclarını qarşılamalı

idilər (52,s.175). Bu ehtiyaclar müsəlmanları öz dini qurumlarını yaratmaqlarına səbəb olmuşdur. Əvvəlcə dərnəklərini quran müsəlmanlar daha sonra məscidlər və Quran kursları açmışlar. Müsəlmanların sayının artdıqca açılan yerlərin tələbi ödəməməsi nəticəsində, 1990-cı illərdən etibarən daha böyük binalar və torpaqlar alındı, məscidlərdən ibarət kompleks tikililər, habelə ticarət mərkəzləri, yerli kafelər, yeməkxanalar və mədəniyyət mərkəzləri tikilməyə başlandı (52,s.176). Bunun sayəsində Norveçdə İslam dini institutlaşmağa başlamışdı. İlkin dövrlərdə Norveçdə İslam təşkilatlarına üzv olmaq prosesi və orada təklif olunan xidmətlər daha çox dil və mənşə, siyasi və dini yanaşmalara əsaslanırdı. Etnik mənşə, dil, mədəniyyət, siyasi və dini fərqliliklərə görə müsəlman mühacirlərin müxtəlif qruplara bölünməsi buna zəmin yaratmışdır. Bu bölünmələr müsəlmanların vahid dam altında toplaşmasının qarşısını alırdı və buna görə də, hər qrup öz məscidini və dərnəklərini yaratmağa çalışırdı. Lakin bu anlayış və quruluş zamanla dəyişdi. Məsələn, 1990-cı illərin ortalarında müsəlman gənclər, tələbələr və qadınlar tərəfindən qurulan təşkilatlar etnik mənşəyindən, siyasi və məzhəb baxışlarından asılı olmayaraq müsəlmanlar üçün böyük əhəmiyyətə malik olmuşlar. 2009-cu ildə edilən bir araşdırmada, Norveç daxilində xidmət göstərən məscidlərin sayı 125 olaraq təyin olundu. 2016-cı il məlumatlarına görə, yalnız Oslo və onun ətrafında 60-dan çox məscid var və bu rəqəm ölkə daxilində 200-ü keçib (52,s.176). Norveçdə ilk məscid 1974-cü ildə Pakistan əsilli müsəlman tərəfindən "İslam Mədəniyyət Mərkəzi" adı ilə açılıb. Onların ikinci məscidini 1987-ci ildə "Minhaj-ul-Kur'an" adı ilə tikdirdilər və 1995-ci ildə "Əhli-Sünnə Mərkəzi İcma Məscidi" pakistanlılar tərəfindən açıldı (82,s.214). 1980-ci illərdən etibarən məscidlər də Türkiyə vətəndaşları tərəfindən açılmağa başlayıb. Bunların arasında Oslo, Drammen, Moss, Stavanger, Trondheim, Bergen Diyanet məscidləri, Oslo Mövlana məscidi, Kristiansand Qurtuluş məscidi, İmam Bədiüzzaman məscidi kimi Diyanət İşləri Başçılığının damı altında fəaliyyət göstərən bir çox məscid var (85,s.214). Müsəlman mühacirlər də etnik mənşəyindən, siyasi və məzhəb baxışlarından asılı olmayaraq müxtəlif qeyri-hökumət təşkilatları və mərkəzləri yaratmışlar. Bunlara Norveç İslam Şurası, Müsəlmanların Müdafiə Şurası, İslam İnformasiya Cəmiyyəti, Norveç İslam Qadınları Cəmiyyəti, Norveç

Müsəlman Tələbə və Gənclər Cəmiyyətini göstərmək olar. Bunlardan ən önəmlisi Norveç İslam Şurasıdır. Şura müxtəlif müsəlman xalqları tərəfindən 22 oktyabr 1993-cü ildə müsəlmanların rəhbər orqanı kimi yaradılıb və Norveçdə İslami tədris və təhsil fəaliyyətini həyata keçirən təşkilatların önündə gedir (46,s.8). Yaradılmasının səbəbi rəsmi orqanlarla əlaqə saxlayaraq müsəlmanların ümumi problemlərini həll etməyə çalışmaqdır. Bundan əlavə, müsəlmanların Norveç cəmiyyətində İslam prinsiplərinə uyğun yaşamasına və öz kimliklərini qorumasına kömək etmək, Norveçdə yaşayan bütün müsəlmanları bir dam altında toplamaq və onların hüquq və mənafelərini qorumaq məqsədi daşıyır. Norveçdə müsəlmanlar üçün müsbət addımlar atılsa da, mənfi hadisələr də baş vermişdir. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Norveçdə də müsəlmanların üzləşdiyi problemlər genişlənmişdir. Bu tarixdən etibarən, əvvəllər gizli şəkildə edilmiş bir çox müraciətlər və ədalətsiz təcrübələr gün üzü gördü. Beynəlxalq İnsan Haqları Mərkəzinin hesabatlarında da edilən haqsızlıqlar öz əksini tapmışdı. Bu dövrdə müsəlmanlar təhqir edilmişdir. Bu hücumların başlanğıcında Hz. Məhəmməd peyğəmbəri təhqir edən karikaturaların nəşri misal göstərmək olar. 2010-cu ilin fevral ayında Norveç Polis Təhlükəsizlik Xidmətinin (PST) fan-klub səhifəsində sosial paylaşma saytında Hz. Məhəmmədi təhqir edən karikatura paylaşılıb. Ölkənin ən böyük qəzetlərindən biri olan “Aftenposten”dən sonra ölkənin digər aparıcı qəzeti olan “Dagbladet” də PST-nin fan-klubunda dərc olunan bu karikaturanı manşetdə vermişdi (46,s.11). Norveç İnteqrasiya və Multikulturalizm Departamentinin (IMDi) 2009-cu il qiymətləndirmə hesabatına əsasən, “İslam” və ya “müsəlman” sözlərinin yer aldığı il ərzində yazılı mediada ümumilikdə 77.000 xəbər dərc edilib. Bu xəbərlərin 82%-i mənfi məzmunlu olduğu halda, yalnız 18%-i neytral və ya müsbət xəbərlərdir (46,s.12). Norveç mediasının islamafobiyanı alovlandırdığına diqqət çəkən hesabatda, cəmiyyətin azlıqlara qarşı davranışının istiqamətləndirilməsində medianın rolu vurğulanır və son vaxtlar artan “İslam düşmənçiliyi” ilə bağlı təəccüblü təsbitlərə yer verilir (46,s.13). 2011-ci il terror aktı da müsəlmanlara qarşı yönəlmiş faciəvi hadisələrdən idi. Anders Behring Breivik bu hücum müsəlmanlara qarşı olmuşdu və o bildirmişdi ki, onun əsas məqsədi Avropanı

çoxmədəniyyətlilikdən xilas etməkdir (42). Lakin bütün bu mənfiliklərə baxmayaraq, Norveç əhalisinin daxilində müsəlmanlara qarşı iki cür yanaşma mövcuddur. Bir qrup müsbət yanaşsa da, azlıq mənfi fikirlərə malikdirlər.

Ölkədə mövcud dil vəziyyətinə baxdıqda əsas iki dil olan bökmol və ninorşk dillərindən savayı, milli azlıqların danışdığı Sami və Kvensk dillərinin olduğunu da görmək olar. Samilərə həmişə müsbət münasibətin göstərilməməsi dilin istifadəsində problem olmuşdur. Lakin daha sonra Samilərə aid məktəblərin açılması, öz dillərində tədrisin olması dilin inkişafına müsbət təkan vermişdir. Kversk dili isə 2005-ci ildən dil statusu almışdır və bu gün Finmarkda şagirdlər bu dildə təhsil alırlar. Ümumiyyətlə isə immiqrantların bura axın etməsi müxtəliff dildə danışan xalqların çoxalmasına da səbəb olmuşdur. Halhazırda Norveçdə 120 dil istifadə olunur (23,s.208).

Ölkədə mövcud olan dini, etnik müxtəlifliklərə, dil baxımından fərqlərə baxmadan Norveçin ölkə daxilində xalqların azad və rahat şəkildə mədəniyyətlərini inkişaf etdirməyə şərait yaratdığını görmək olar. Ölkədə bu müxtəlifliklər əvvəlki dövrlərdə bəzi çətinliklərlə qarşılaşsalar da, daha sonra multikultural ənənələrin inkişafına müsbət şərait yaratmışlar.

# II FƏSİL. NORVEÇ VƏ AZƏRBAYCAN MULTİKULTURALİZM MODELLƏRİNİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

## 2.1 Azərbaycan dövlətinin multikultural siyasəti.

Avropa və Asiyanın qovuşduğu nöqtədə yerləşən Azərbaycanın müxtəlif etnik, dini qrupların nümayəndələrinin azad şəkildə birlikdə yaşaması, öz dinini, mədəniyyətini, dilini, adət-ənənələrini qoruması üçün qanunlar qəbul edilib. Azərbaycan Konstitusiyasının 48-ci maddəsi ibadət etmək, istənilən dini seçmək və yaxud heç bir dinə etiqad etməmək azadlığını təmin edir (9). 1992-ci ildə qəbul olunmuş "Etiqad azadlığı haqqında" qanun hər bir insanın dinə münasibətini müəyyən etmək, ifadə etmək və bu hüququ həyata keçirtmək haqqı verir. Konstitusiyanın 18-ci maddəsinin 1-3-cü bəndlərinə görə din dövlətdən ayrı fəaliyyət göstərir, hər bir din qanun qarşısında bərabərdir, insan şəxsiyyətinə xəlil yetirən, humanizm prinsiplərinə zidd olan hər bir dinin təbliğatı qadağandır (96).

Bu gün Azərbaycan müxtəlif mədəniyyətlərin birgə sülh şəraitində yaşadığı məkan kimi qeyd olunur. Ölkədə məscidlər, kilsələr, sinaqoqlar, bütün dinlərin tarixi abidələri dövlət tərəfindən qorunur. Halhazırda ölkədə 650-dən çox dini icma qeydiyyatdan keçmişdir. Bu sayın on üçünü kilsələr, otuz yeddisini isə islam dininə aid olmayan dini icmalar təşkil edir (71).

Azərbaycanın multikulturalizm siyasətinin əsasında Azərbaycançılıq ideyası dayanır. Bu ideyanın əsas mahiyyəti xalqın iqtisadi, mədəni, siyasi və sosial baxımdan yüksəlməsinə nail olmaqdır. Azərbaycançılıq ideyası XIX əsrin ikinci yarısında yayılımağa başlamışdır (22,s.65). İlk öncə "mədəni Azərbaycançılıq" adı altında inkişaf edən bu prosesə incəsənət və maarifçilik hərəkatının nümayəndələri başçılıq edirdi. Bu dövrdə artıq milli şüur formalaşmağa başlamış, xalqın həyatında mühüm rol oynayırdı. Azərbaycançılıq ideyasının digər mərhələsi siyasi sahəyə keçməsi ilə başlamışdır. Bu dövr Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə kimi şəxsiyyətlərin fəaliyyətinə əsaslanmış və bu mərhələdə xalqın siyasi hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra iqtisadi mərhələnin başlaması istiqamətində mümkün vəziyyət yaranmışdır. Lakin bu mərhələyə şərait yaransa da, 1920-ci ildə

ölkənin işğal olması ilə bu proses həyata keçə bilməmişdir (22,s.66). 1991-ci il 18 oktyabrda Azərbaycanın müstəqilliyini bərpa etməsi üçüncü mərhələnin başlaması üçün səbəb olmuşdur. Ümumilli lider Heydər Əliyevin hakimiyyətə geri qayıtması Azərbaycançılıq ideyasında yeni bir mərhələyə qədəm qoyulmasına səbəb olmuşdur. Bu dövrdə Azərbaycançılıq ideyası ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Azərbaycançılıq ideyasının inkişafında, xalqın azadlıq üçün mübarizəsinə Heydər Əliyevin rolu əvəzsiz olmuşdu. Heydər Əliyev bu ideyanın hər bir sahədə inkişafına zəmin yaratmışdı. İlk dəfə multikulturalizm bu ideyanın tərkibi kimi Heydər Əliyev tərəfindən təqdim edilmişdi (22,s.67).

Multikulturalizm siyasəti vasitəsi ilə cəmiyyətdə Azərbaycançılıq daha da geniş yayılmağa başladı. Milli azlıqların müdafiəsini təmin edən multikulturalizm, Azərbaycançılıq ideyasının sosial bazasının güclənməsinə səbəb olur. Xalqın sosial, siyasi, mədəni, iqtisadi yüksəlişi üçün bu ideya multikulturalizm siyasətinin vacib vasitəsi kimi istifadə olunurdu.

Multikulturalizm ulu öndər Heydər Əliyev sayəsində Azərbaycanlığın tərkib hissəsi olmuşdur. Onun sayəsində multikulturalizm siyasi və hüquqi sənədlərdə göstərilməyə başladı. Heydər Əliyev multikulturalizmin milli və dil xüsusiyyətlərini sənədlər vasitəsi ilə təsdiqləmişdi. Bu səbəbdən də, ulu öndər Heydər Əliyev Azərbaycanın multikulturalizm siyasətinin siyasi banisi olaraq qələmə verilməyə başlamışdır.

Heydər Əliyevin multikulturalizm sahəsində atdığı ilk addım onun assimilyasiya və izolyasiya kimi siyasi modellərdən üstün mövqedə olduğunu dünyaya çatdırmaq oldu. Azərbaycan Respublikası Konstitusiyasında və həmçinin hüquqi sənədlərdə ümumilli liderin göstərişi ilə dövlətin multikultural dəyərləri qorumalı olduğu göstərilməsi ən vacib məqamlardan biridir (1,s.47).

Multikulturalizm Azərbaycanın demokratik tərkibinə daxil edilmişdi. Heydər Əliyev ölkədəki müxtəlifliklərin təhlükəsiz şəraitdə olmasına insan hüquq və azadlıqları kontekstində baxırdı. Ulu öndərin fikrincə, "mədəniyyətindən, irqindən, dilindən asılı olmamaqla respublikadakı bütün vətəndaşlar eyni hüquqlara sahibdilər" düşüncəsini təmin etməli idi (1,s.48).

Azərbaycanın multikulturalizm siyasətində təşkilatların rolu əvəzsiz olmuşdur. Ölkə öz multikulturaıizm siyasətini həyata keçirərkən, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, BMT, Avropa Şurası kimi təşkilatlar mühüm rol oynayır. Azərbaycanın multikulturalizm sahəsində inkişafına qoşulduğu beynəlxalq konvensiyalar da təsir göstərirdi. Multikulturalizm sahəsində həyata keçirilən Avropa Şurasının "Milli azlıqların müdafiəsi barədə Çərçivə Konvensiyası" nı nümunə kimi göstərmək olar (3).

Heydər Əliyevin vəfatından sonra onun həyata keçirtdiyi multikulturalizm siyasətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirməyə başlamışdır. Heydər Əliyev kimi İlham Əliyev də bu sahədə bir çox yeniliyə imza atmışdır. İlham Əliyev sayəsində bu gün də multikulturalizm Azərbaycan Respublikasının həyatında mühüm yerə sahibdir.

Ölkənin multikulturalizm siyasətindəki uğurlarında İlham Əliyevin gördüyü işlər vacib yer tutur. Prezident, Respublikadakı etnik-mədəni müxtəlifliklərin təhlükəsizliyinin qorunmasına böyük önəm verirdi. Bu sahədə həyata keçirtdiyi ilkin tədbirə 2014-cü il 28 fevral tarixindəki sərəncamı ilə yaradılmış dini, millətlərarası və multikulturalizm məsələləri üzrə Dövlət müşavirliyi xidmətini göstərmək olar. 2014-cü il 7 may tarixində yaradılmış Bilik Fondu, 15 may 2014-cü il tarixli Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi bu kimi işlərə ən böyük nümunələrdəndir. 2016-cı il 11 mart tarixli qərar ilə 2011-ci ilin "Multikulturalizm ili" kimi qəbul olunmuş və bu sahədə Tədbirlər planı təsdiqlənmişdir ( 1,s.52).

Dövlət müşavirliyinin multikulturalizm sahəsində əhəmiyyətli rolu vardır. Bu qurumun əsas məqsədi Respublikadakı etnik-mədəni müxtəlifliklərin qorunması, onların hüquq və azadlıqlarının dövlət tərəfindən təmin olunması, milli azlıqlar barədə dövlət siyasətinin həyata keçirilməsi, multikulturalizm mühitinin öyrənilməsi, dövlət din siyasətinin tənzimlənməsi və ölkədəki multikulturalizm mühitinin dünyaya təbliğ edilməsindən ibarətdir.

Bilik fondunun əsas məqsədi isə ölkə əhalisini məlumatlandırmaq, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, iqtisadi, siyasi, sosial və ictimai proseslərinin əhəmiyyətini xalqa çatdırmaqdır (32). Fond buna nail olmaq üçün

azərbaycançılıq anlayışının mahiyyətini, dini dəyərləri, milli-mənəvi dəyərləri təbliğ etməlidi.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin məqsədi tolerantlığı, mədəni və dini müxtəlifliklərin təhlükəsizliyinin təmin olunması, ölkəni dünyaya multikulturalizm mərkəzi olaraq tanıtmaq və bu sahədə modelləri təsdiq etməkdən ibarətdir (7). Azərbaycanda multikulturalizm sahəsinin inkişaf etdirilməsi mərkəzin əsas məqsədidir.

2011-ci ilin multikulturalizm ili kimi qeyd olunması bu sahəyə verilən diqqətin əsas göstəricilərindəndir. Bu yöndə tədbirlər planının hazırlanması lazımı tədbirlərin səmərəli həyata keçirilməsinə şərait yaratmışdı. Tədbirlər planının üç istiqaməti mövcud idi. Bunlar ölkədaxili tədbirlər, beynəlxalq tədbirlər və informasiya təminatı ilə bağlı tədbirlərdir. Multikulturalizmin Azərbaycan modelinin elmi tərəfinin öyrənilməsi, onun gənclər arasında, xalq arasında yayılması, ölkədə yaşayan bütün etnik qruplar, dini icma nümayəndələri arasında dostluq münasibətlərinin gücləndirilməsi, respublikadakı multikultural mühitin dünyaya çatdırılması, multikulturalizm mərkəzlərindən biri kimi tanınması bu tədbirlərin həyata keçirilməsində əsas məqsəd olmuşdur (1,s.53).

Azərbaycan Respublikasının daxili siyasətində baş verən bu proseslərlə yanaşı, xarici siyasətində də multikultural ənənələrin inkişafı üçün tədbirlər keçilir. Ölkədə müxtəlif forumların, konfransların keçirilməsi, xarici siyasətdə multikulturalizmin yerindən bəhs edir. Bu kimi forumlara, konfranslara bir çox nümunə göstərmək olar. 2011-ci ildən bəri dörd dəfə həyata keçirilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 26-27 aprel 2010 tarixli Dünya Dini Liderlərinin Sammiti, 25-27 aprel 2016-cı ildə keçirilən Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu və 2011, 2013, 2014, 2016-cı il tarixli Bakı Beynəlxalq Humanitar Forumu bu nümunələrə aiddir (1,s.54).

2016-cı il 25-27 aprel tarixlərində keçirilən BMT’nin Sivilizasiyalar Alyansının Yeddinci Qlobal Forumunda beynəlxalq humanitar əməkdaşlıq, multikulturalizm və digər məsələlər müzakirə olunmuşdur. Azərbaycan burada öz multikulturalizm ənənələrini bir daha göstərmiş, dünyanı tolerantlığa, sivilizasiyaya çağırmışdır (11).

Son illərdə isə ölkə bir çox böyük idman yarışına ev sahibliyi etmişdir. İlk dəfə 2015-ci ildə Avropa oyunları Azərbaycanda keçirilmişdir. Bu ölkədə müsəlmanların çoxluq təşkil etdiyi ilk Avropa tədbiri idi. 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdi. İki il ərzində bu cür əhəmiyyətli tədbirlərin Azərbaycanda keçirilməsi, ölkənin multikultural dəyərlərinə əsaslı təsir göstərmişdir. Gələn hər bir şəxs xoş münasibətlə qarşılaşmış, tolerant münasibəti hiss etmişdir (71).

Din amilinin multikulturalizm siyasətinədki önəmi, bu sahədə müəyyən addımların atılmasına səbəb olmuşdur. 1992-ci il “Dini etiqad azadlığı haqqında” qanun, dini idarələrin, tədris müəssisələrinin, mərkəzlərin tənzimlənməsi, dini qurumların qeydiyyatının həyata keçirilməsi kimi məsələlərlə məşğul oldu (18). 21 iyun 2001-ci il 512 nömrəli Fərman ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması dövlət-din münasibətlərində yeni mərhələyə keçid olunmasına səbəb olmuşdur. Bu komitənin yaradılması qanuni cəhətdən dini etiqatlarla bağlı tələblərə riayət olunmasına, onların qeydiyyata alınmasına səbəb oldu (5). Dini ekstremizmə qarşı mübarizə barədə qanunun 2015-ci ilin dekabrında qəbulu dini, milli, sosial nifrətin, sosial, mədəni, irqi, dini mənsubiyyətləri nəzərə alınmadan vətəndaşların hüquqlarının məhdudlaşdırılmaması kimi problemlərin həllinə böyük tövhə vermişdir (16). 2016-cı ilin “Multikulturalizm ili” kimi qeyd olunmasından sonra, 2017-ci ilin “İslam Həmrəyliyi İli” kimi qeyd edilməsi Azərbaycanda multikulturalizm və din sahələrinin bir biri ilə əlaqəsini vurğulamışdır. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycan Respublikasının paytaxt şəhəri Bakıda keçirilməsi ölkənin din münasibətlərinə verdiyi önəmin bir digər nümunəsi idi (10).

Azərbaycan ərazisində multikultural dəyərlərin inkişafına tövhə vermək üçün atılan bir digər addıma 2008-ci ildə irəli sürülmüş “Bakı prosesi”ni göstərmək olar. Müxtəlif mədəniyyətlər arasında ünsiyyətin inkişafını nəzərdə tutan bu təşəbbüs, Prezident İlham Əliyev tərəfindən irəli sürülmüşdür. “Bakı prosesi”nin həyata keçirilməsində əsas məqsədlər mədəniyyətlər arasında dialoqun inkişafı, Müsəlman və Qərb cəmiyyəti əməkdaşlığının inkişafı, bədii və mədəni fəaliyyətlərin dəstəklənməsi, beynəlxalq və regional təşkilatlar arasında ünsiyyətin inkişafı, əhali

arasında dini və mədəni gərginliyin azaldılması idi. Bu sahədə müxtəlif tədbirlər keçirilmişdir. 2009-cu il "Bakı – İslam mədəniyyəti paxtaxtı " ili mövzusunda beynəlxalq konfransların keçirilməsi "Bakı prosesi"nin inkişafına böyük təsir göstərmişdir (6). 2011-ci ildən bəri isə UNESCO, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, BMT-nin Sivilizasiyalar Alyansı, İCESCO-nun nümayəndələri ilə birlikdə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları həyata keçirilir. 2016-cı ildə isə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilmişdir. "Bakı prosesi" barədə forumlarda 250-dən çox tədbir və lahiyə keçirilmişdir. BMT Baş Assambleyasının 2017, 2018, 2019-cu il məruzələrində "Bakı prosesi"nə xüsusi yer verilmişdir (6).

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi də mədəniyyətlərarası ünsiyyətin inkişafı yönündə bir sıra lahiyələr həyata keçirtmişdir. Bu lahiyələrə ilk növbəd ə "Azərbaycan Multikulturalizmi" fənninin xarici ölkələrdə tədris edilməsini göstərmək olar. Günümüzdə bu fənn 28 ali məktəb, 13 xarici ölkə universitetində tədris olunur. Bu universitetlərə misal olaraq Rusiyanın Ural Federal Universitetini, İtalyanın Sapienza Universitetini, Litvanın Litva Pedaqoji Universitetini, Türkiyənin Erciyes Universitetini, Almaniyanın Augburg Universitetini və s. göstərmək olar (1,s.315). İkinci növbədə isə Azərbaycanda beynəlxalq yay və qış məktəblərinin təşkili bu cür lahiyələrə aiddir. 2015-ci ildə yay, 2016-da qış və yay və 2017-ci ildə qış məktəbi müvəffəqiyyətlə həyata keçirilmişdir. İndiyə kimi Böyük Britaniya, Almaniya, İsveçrə, İsveçdə Azərbaycan multikulturalizmi mövzusunda keçirilən birdəfəlik mühazirələr yəni dəyirmi masalar, konfranslar da bu cür lahiyələrə bir nümunədir. Mərkəzin həyata keçirtdiyi digər lahiy" əAzərbaycanın Gənc Dostları Klubu"dur. Bu klub Yunanıstan Afina Universitetinin tələbəsi və Litva Pedaqoji Universitetinin magistrantının təşəbbüsü ilə yaradılmışdır. Yerli və xarici mütəxəssislər ilə birgə keçirilən virtual "dəyirmi masalar" mərkəzin bir digər lahiyəsidir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən bu sahədə 5 virtual dəyirmi masa keçirilmişdir (1,s.316).

10 mart 2004-cü il tarixində Prezident İlham Əliyev tərəfindən imzalanan Fərmana əsasən Heydər Əliyev Fondu yaradılmışdır (12). Fond Heydər Əliyevin

müəyyən etdiyi xalqın rifahının yüksəldilməsi, ölkənin mədəni, iqtisadi və sosial tərəqqisi siyasətinin öyrənilməsi, həyata keçirilməsini nəzərdə tutur. Fondun açılışı 2004-cü il 10 may tarixində respublikanın birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən həyata keçirilmişdir (12). Heydər Əliyev Fondu açılışından etibarən təhsil, mədəniyyət, elm və digər sahələrdə lahiyələr həyata keçirtmiş və ölkədə sosial-iqtisadi inkişafa şərait yaratmışdır. Bunlardan biri "Tolerantlığın ünvanı – Azərbaycan" lahiyəsidir. Bu lahiyə sayəsində bir çox işlər görülmüşdür. 2005-ci ildə Comərd Qəssabın məzarı və məzarüstü türbəsi bərpa edilmişdir, həmin ildə Pir Həsən ziyarətgahında təmir aparılmışdır, 2006-da Möhsün Səlim məscidi bərpa olunmuşdur , 2007-də Bakıda yerləşən Pravoslav kilsəsinin təmiri həyata keçirilmişdir, Roma Katolik dini icması ilə birgə 2008-ci ilin sentyabrında Anlaşma Memorandumu imzalanmışdır. Daha sonra Buzovnada yerləşən Cümə məscidi yenidən təmir edilmiş, 2010-2013-cü illərdə Qəbələdə yeni məscid tikilmişdir (12). 2010-cu ildə isə Şamaxıda yerləşən Cümə məscidinin təmirinə başlanmış, 2012-ci ildə isə Mərdəkandakı Heydər Cümə məscidinin yenidənqurma işləri başlanmışdır. Bu lahiyə çərçivəsində yalnız Azərbaycanda deyil, xaricdə də bir sıra abidələrin bərpa işlərinə maliyyə yardımı ayılmışdır. Bu abidələrdən biri 2009-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpasına maliyyə ayrılmış Strasburq Kafedral kilsəsidir. 2013-cü ildə isə Fresnay o Sovaj, Tanvil, Santiyi, Mal, Kurjust, San-İler la Jerar, Revoyon kimi qəsəbələrdə yerləşən yeddi kilsənin bərpasına kömək göstərilmişdir (1,s.326). 2007-ci ildə Fond tərəfindən "Amazonka", "Qulpları favn başları ilə bəzədilmiş vaza"nın, 2008-də isə Luvr muzeyinin bərpa işlərində iştirak etmişdir. Lahiyənin xaricdəki fəaliyyətinə müxtəlif sərgilərin təşkili də aid edilir. 2013-cü il 27 sentyabr tarixində BMT'nin Nyu-Yorkdakı qərargahında "Azərbaycan-tolerantlıq məkanı" adı altında keçirilmiş foto sərgi bunlardan biridir (1,s.327). Reza Deqatinin Respublikamızdakı dini dözümlülüyü təsvir edən əsəri burada nümayiş olunmuşdur. 2013-cu ildə Parisdə UNESCO qərargahında, Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən sərgiləri də qeyd etmək lazımdır (1, s.328).

Azərbaycanın multikulturalizm siyasəti çərçivəsində bir çox təşkilatla da əməkdaşlığı mövcuddur. Birləşmiş Millətlər Təşkilatı, Avropa İttifaqı, Avropada

Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və s. Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardandır. Azərbaycanın ilk əməkdaşlıq etdiyi təşkilatlardan biri Beynəlxalq Millətlər Təşkilatıdır. 1992-ci ilin mart ayından bu təşkilat ilə əməkdaşlıq başlamış və bu əməkdaşlıq ilkin olaraq milli azlıqlar və multikulturalizm siyasəti ilə bağlı iki konvensiyada öz əksini tapmışdır. 1992-ci il 18 dekabr tarixli "Milli və ya dini, etnik və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamə" və 1996-cı il 31 may tarixində təsdiq olunmuş "İrqi ayrı-seçkiliyin hər bir formasının ləğvi barədə Beynəlxalq Konvensiya" idi. 1992-ci il Konvensiyası azlıqlara adətlərini,varlıqlarını qorumaq, öz həyatlarında dillərindən istifadə etmək, mədəniyyətlərini, dini ayinlərini sərbəst keçirtmək haqqı verirdi. 1996-cı il Konvensiyası isə milli azlıqların hüquq və azadlıqlarının bərabər olduğunu, irqi, dini, mədəni fərqliliklərin olmadığını bildirir (27).

Azərbaycan Respublikası ilə əməkdaşlığı olan bir digər mühüm beynəlxalq təşkilat Avropa Şurasıdır. 13 iyun 2000-ci ildən Avropa Şurasının "Milli azlıqların hüquqlarının qorunması haqqında" Çərçivə Konvensiyasına qoşulan Azərbaycan, 2001-ci ilin 25 yanvar tarixindən bu quruma tam hüquqlu üzv kimi seçilmişdir (1,s.344). Bu konvensiya milli azlıqların hüquqlarının qorunmasına istiqamətlənən ilk beynəlxalq müqavilədir. Konvensiyanın əsas məqsədi milli azlıqların bərabərliyinə nail olmaq, ərazi bütövlüyü və milli suverenlik çərçivəsində onların öz fərdiliklərini qorumaqlarına, ifadə və inkişaf etdirməklərinə şərait yaratmaqdır (1,s.345). Konvensiyada hər hansı dövlətin assimilyasiya siyasəti yeritməməsi istiqamətində göstərilən öhdəlik ən vacib müddəalardan biridir. Konvensiyada göstərilən müddəaların həyata keçirilməsinə Avropa Şurasının Nazirlər Kabineti nəzarət edir. 2001-ci ildə isə Avropa Şurası ilə birgə "Regional və yaxud azlıq dilləri barədə Avropa Xartiyası" imzalanmışdır(1, s.346).

Azərbaycanın əməkdaşlıq etdiyi təşkilatlardan biri də Azərbaycan Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır (ATƏT). Bu təşkilatla əməkdaşlıqda əsas yeri "Helsinki Yekun Aktı" tutur. Bu akt milli azlıqların müdafiəsinə yönəlmişdir. Helsinki aktı məcburi xarakterə malik olmasa da, ölkələr öz siyasi iradələri ilə onu qəbul etməlidirlər (8).

Multikultural cəmiyyətin formalaşması istiqamətində Azərbaycan Respublikası UNESCO ilə də əməkdaşlıq edir. UNECSO çərçivəsində imzalanmış 2005-ci il "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşfiqinə aid Konvensiya", daha sonra "Dözümlülük barədə Bəyannamə", "Mədəni Müxtəliflik barədə Ümumi Bəyannamə" çoxmədəniyyətli və tolerant mühitin formalaşması istiqamətində mühüm rol oynayır (37).

Ölkədə multikulturalizmə göstərilən diqqətin bir digər nümunəsi Dövlət Miqrasiya Xidmətidir. Bu xidmət 2007-ci martın 19-u 560 nömrəli Fərman ilə yaradılmışdı (90). Dövlət Miqrasiya Xidmətinin məqsədi miqrasiyaya nəzarət etmək, miqrasiya siyasətində dövlət nəzarətini həyata keçirtməkdir. Əcnəbilərin və vətəndaşlığı olmayanların qeydiyyata alınması, onlara müvəqqəti və yaxud daimi yaşamaq üçün icazələrin verilməsi və s. işləri də yerinı yetirir. Xidmətin strukturuna səkkiz regional miqrasiya idarəsi, iki qeyri-qanuni miqrantların saxlanma məntəqəsi, tədris mərkəzi, tibb müəssisəsi aiddir (93).

Ölkədə multikultural cəmiyyətin formalaşmasına təkan verən bir digər xidmət Azərbaycan Respublikası diasporudur. Azərbaycan Respublikası diasporu əsasən ABŞ, Kanada, Rusiya, Fransa, AFR, Böyük Britaniya, MDB ölkələri, Skandinaviya, Pri- baltika ölkələri, Türkiyə və digər ölkələrdə mövcuddur (1,s.350). Azərbaycanlıların miqrasiyası prosesi çox qədim və zəngin tarixə malik olsa da, XX əsrin sonu XXI əsrin əvvəlində xarici ölkələrdə Azərbaycan diasporlarının yaranması, formalaşması və inkişafı prosesi Azərbaycan Respublikası dövlətinin qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. Onun təşəbbüsü ilə dünya azərbaycanlılarını Azərbaycan ilə bilavasitə bağlamaq üçün xüsusi dövlət orqanının, yəni Azərbaycan Respublikası Diasporla iş üzrə Dövlət Komitəsinin yaradılması, dünya azərbaycanlılarının qurultaylarının keçirilməsi, azərbaycançılıq ideologiyasının hərtərəfli şəkildə formalaşdırılması və inkişafı artıq öz real nəticələrini verir. Azərbaycan diasporunun yaşadığı ölkələrdə yaratdığı təşkilat və cəmiyyətlərin, birliklərin, qurumlarının arasında əlaqə yaratmaq mühüm əhəmiyyətə malikdir. Elə bu səbəbdən də son illərdə Bakıda keçirilən 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının I Qurultayı, 2006-cı il martın 16-da II Qurultayı, 2011-ci il 5

iyulda III Qurultayı, 2016-cı il 3-4 iyunda keçirilmiş IV qurultayı xaricdəki Azərbaycan diaspor təşkilatları arasında əlaqələrin yaranmasında böyük tarixi əhəmiyyət kəsb etdi (1,s.352). 2004-cü ilin yanvar ayında keçirilmiş Amerika-Türk Assosiasiyaları Assambleyasının XXIV qurultayına müraciəti Prezidentin diaspor quruculuğu işinə nə qədər yüksək əhəmiyyət verdiyini göstərirdi (1,s.354). 2006-ci il 26 apreldə ABŞ-da Azərbaycan icmasının üzvləri ilə, 5 oktyabr 2006-ci ildə Latviyadakı Azərbaycan icmasının nümayəndələri ilə, 15 fevral 2007-ci il Almaniyada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin sədrləri ilə, 13 sentyabr 2007-ci ildə Litvada fəaliyyət göstərən Azərbaycan cəmiyyətlərinin nümayəndələri ilə görüşlərində Prezident İlham Əliyev diaspor təşkilatlarının nümayəndələrinə bildirmişdir ki, dövlətimiz və hökumətimiz Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında öz fəaliyyətini göstərəcəkdir (1,s.354). 2006-cı il 16 mart tarixində keçirdiyi Dünya Azərbaycanlılarının II Qurultayı diaspor quruculuğu sahəsinə böyük bir təkan vermişdir. Prezident İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması Azərbaycan Respublikasının diaspor quruculuğu işinə verdiyi önəmi göstərir. 2011-ci il iyulun 5-6-da Bakı şəhərində keçirilmiş Dünya Azərbaycanlılarının III Qurultayı Azərbaycan diasporunun yeni dövrdəki fəaliyyətinin ideoloji təməlini təşkil etməklə yanaşı dünya azərbaycanlılarının birliyini milli dövlətçilik ideologiyası müstəvisində formalaşmasını müəyyən etmişdir (1,s.355).

Həyata keçirilən bütün bu proseslər Azərbaycanda uğurlu multikultural cəmiyyət yaranmasına səbəb olmuşdur. Multikulturalizm sahəsində fəaliyyət göstərən hər bir qurum ölkədə etnik-mədəni müxtəlifliklərin hüquq və azadlıqlarının qorunmasına yüksək diqqət yetirir, bu sahədə fəaliyyətlərini davam etdirir.

## 2.2 Norveç dövlətinin multikultural siyasəti.

Norveçin multikulturalizm siyasətində din, dil məsələləri üstünlük təşkil edir. 1845-ci ilin əvvəllərində qeyri-lüteran xristian icmalarının azad yaşaya biləcəyi qanununun qəbulu, Norveçdə dini etiqad azadlığı ilə bağlı ilk addımlardan biri

sayılırdı (53,s.376). 1960-cı ildən isə əsas inkişaf baş vermişdir. 1964-cü ildə Konstitusiyaya əlavə edilən maddə ilə dini etiqad azadlığı konstitusiya hüququ kimi tanındı. 1969-cu ild“ əDini İcmalar Qanunu”nun qəbulu da dini etiqad azadlığı məsələsində mühüm rol oynamışdır (53,s.377). Din baxımından əsas yeri xristianlar, ikinci yeri müsəlmanlar, yəhudilər, buddistlər, və s. tutur. Xristianlığı 76% çoxluğun aid olduğu Lüteran Protestant Dövlət Kilsəsi təmsil edir. Müsəlmanlara aid isə burda bir çox məscid, təşkilat vardır. Norveç təhsil sistemində din barədə dərslər mövcuddur. Bu dərslərin məcburi olub, olmamasına dair bir çox dəyişikliklər edilmişdir. Din təhsili ölkədə 1700-ci illərdə başlamışdır. 1739-cu ildə isə Xristian Dövlət Məktəbi ölkədə xristianlığı təbliğ etmək üçün yaradılmışdı (49,s.58). 1960-cı ildən isə ölkənin din siyasətində önəmli dəyişikliklər baş vermişdi. Bu dövrdə din azadlığı konstitusiya hüquqi kimi qəbul olunmuşdu (49,s.63). 1990-cı illərdə din dərslərinin yenidən keçirilməsinə ehtiyac var idi. Bu səbəblə dövlət rəsmiləri və müxtəlif din xadimləri danışıqlar apardılar. 1997-ci ildə təhsil islahatı aparıldı. Bu zaman din dərslərinin proqramalarında əsas yeri xristianlığa, ikinci yeri islama, digər yeri isə yəhudilik, hinduizm, buddizmə aid dərslər təşkil edirdi (75,s.322). Xristianlığa aid dərslərin çoxluğu narazıçılığa səbəb olmuşdur. Avropa İnsan Hüquqları Məhkəməsi bu etirazları qiymətləndirmişdi. Narazıçılıqların haqlı olduğuna qərar verən Avropa İnsan Hüquqları Məhkəməsi qərar vermişdiki, məcburi din dərsləri Avropa İnsan Hüquqları Konvensiyasının ikinci bəndini pozur. Üstünlüyün xrianlığa aid dərslərə verilməsi də səhb bir qərar olduğu bildirilmişdi (75,s.158). Sonradan müzakirələri bitirmək üçün xristianlığa aid dərsin adı, “Din, Etika və Fəlsəfə Təhsili” ilə dəyişdirildi (72,s.447).

Müsəlman Norveçdə öz şəxsi məktəblərini yaratmağa cəhd etmişlər. Urteqahen Fondu bu istiqamətdə mübarizə aparan müsəlman təşkilat olmuşdu. 1991-ci ildə Trond Ali Linstad tərəfindən təsis edilmişdi. 1995-ci ildə İslam Norveç Şurası ölkə səlahiyyətlilərinə islam ibtidai məktəblərinin açılması üçün müraciət etmiş, lakin rədd cavabı almışdır (81,s.115). Norveçdə yəhudi və xritianların öz dinlərini və mədəniyyətlərini öyrənə biləcəkləri bir neçə özəl məktəb mövcuddur. Lakin müsəlmanlar üçün din təhsili verən, milli mədəniyyətlərini və dəyərlərini öyrədən

özəl məktəb yoxdur. Məktəblərin lazımı səviyyədə islam təlimi və təhsili verməməsi, müsəlmanların öz imkanları ilə məscidlər, Quran kursları, tədris mərkəzləri açıb, dini təhsildəki boşluqları burada doldurmaqlarına səbəb olmuşdur.

Norveçdə multikulturalizm siyasətinin əsasında 1960-cı illərdən ölkəyə gəlməyə başlayan immiqrantlar dayanır. Bu dövrdə immiqrantların ölkəyə gəlməsi, ilkin multikulturalizm siyasətinə aid qanunların qəbul edilməsinə səbəb olmuşdur.

1960-cı illərin sonlarında zəngin təbii qaz və neft ehtiyyatlarının kəşfi Norveçin iqtisadiyyatının yaxşılaşmasına gətirib çıxartmışdır. Bu dövrdə Norveç səhiyyə, təhsil, sosial təminat xərclərinə daha çox maliyyə ayıraraq ölkənin inkişafına şərait yaratmışdır. 1960-cı illərdə yüksək səviyyədə iqtisadi artım olması işçi çatışmamazlığının meydana gəlməsinə səbəb olomuşdur. Bu dövrdə Norveçdə immiqrant qıtlığı özünü biruzə vermişdir. 1960-cı illərdə Norveçə gələn mühacirlər içində əksəriyyəti neft mütəxəssisləri olmaqla, ABŞ və Qərbi Avropadan gələnlər daha çox üstünlük təşkil edirdilər (94,s.171). Lakin 1970-ci illərdə artıq gələnlərin sayı artmağa başlamışdı. Bu dövrdə Norveçə gələnlər Afrika, Asiya və Cənub-Şərqi Avropadan idi. Qərbi Avropa ölkələrinin yeni işçilərə qapılarını bağlaması Norveçə olan axının əsas səbəblərindən idi. Lakin bu cür axının başlaması ilə ölkədə immiqrantların sürətlə artması hökümətin məhdudlaşdırıcı immiqrasiya siyasəti yeritməsinə səbəb oldu. Bu siyasət nəticəsində qəbul olunan qanun ölkədə immiqrasiyanı məhdudlaşdıran ilk qanun idi. Lakin 1970-ci illərdə Norveçə immiqrant axını artdıqca, ölkə Avropa Birliyinə üzvliyə qarşı çıxmağa başladı. Bu proses ilə 1975-ci il “immiqrasiyanın dayandırılması” eyni vaxta düşdü. Bu dövrdə Norveçə köçməyin iki yolu var idi. İlki ailə birləşməsi yolu ilə idi, ikincisi isə qaçqınlıqla idi. Norveç həm humanitar dəyərləri, həm də immiqrasiya məsələsini düzgün şəkildə idarə etdiyinə inanaraq, Avropa İttifaqına üzv olmağın bu dəyərləri zəiflədəcəyini düşündü. Nəticədə 1994-cü ildə Avropa İttifaqına üzrvlikdən imtina edərək, Avropa İqtisadi Ərazisinə qoşuldu (94, s.172). Lakin 1975-ci il məsələlərinə baxmayaraq, sonrakı illərdə də immiqrantların Norveçə axını davam etmişdi. Buna baxmayaraq hələ də, ölkədə bacarıqlı işçilər üstünlük təşkil etmirdi. 1980-ci illərin əvvəllərində Norveç minlərlə Vyetnam qaçqınını qəbul etdi. Dövlətdə daha çətin iş

tapan və işsizlikdən əziyyət çəkən bir digər qrup üçüncü dünyadan olan immiqrantlar idi. Onlar yüksək təhsilli olsalar belə, daha çətin iş tapır və aşağı səviyyəli işlərlə məşğul olmalı olurdular. 1980-ci illərin sonunda immiqrantlar sayı yenidən artmağa başladı. Müharibə və terrordan əziyyət çəkən, sığınacaq axtaran, inkişaf etməmiş ölkələrin vətəndaşları buraya axın etməyə başladılar. 1980-ci ildə təqdim olunan Ağ kitabda göstərilmişdi ki, Norveç inteqrasiyası həm mədəniyyətə uyğunlaşmağa, həm də immiqrantları assimilyasiyadan qorumağa yönəlmişdi. 1988-ci il tarixindəki bir digər Ağ Kitabda "immiqrantların dilinə və mədəniyyətinə hörmət" məsələsi göstərilir (88).

Ümumiyyətlə Norveçdə immiqrasiyanın siyasi gündəmə gəlməsi 1970-ci ildən əmək miqrantlarının gəlməsi ilə baş verdi. Bundan sonra immiqrasiya və inteqrasiya siyasətləri rifah lahiyəsinə daxil edildilər. Bu proses böyük siyasi dəstəyə nail oldu. 1975-ci ildə immiqrasiyada məhdudiyyətlərin olması, Tərəqqi partiyasının narazılığına səbəb oldu (87,s.78). 1980-ci illərdə ölkədə cəmiyyətin multikultural adlandırılması vəziyyəti dəyişdi. 1988-ci ildə isə Ağ Kitabda "seçim azadlığı" anlayışı, "immiqrantların dilinə və mədəniyyətinə hörmət" ilə əvəzləndi. Bu addım multikultural cəmiyyət üçün ilkin şərt idi (70,s.407).

Digər tərəfdən Norveç rifah dövləti Skandinaviya rifah sisteminin bir hissəsi sayılır. Burada sosial dövlət immiqrantların və qaçqınların da cəmiyyətə inteqrasiyasında əhəmiyyətli rola malikdir. Buna görə də, ölkədə immiqrant və qaçqınların artması sosial yardım proqramlarının hazırlanmasına ehtiyacı artırmışdır (80,s.185).

Norveçdə multikulturalizm siyasəti çərçivəsində immiqrantlar üçün atılan digər addım Karitas beynəxalq katolik təşkilatının ölkədə qurulması idi. Karitas beynəlxalq katolik təşkilatı demək olar ki, dünyanın hər bir ölkəsində yerləşir. Təşkilatın əsas məqsədi cəmiyyətin imkansız qruplarına, həmçinin immiqrant və qaçqınlara xidmət etməkdir. Bu məqsədlərə nail olmaq üçün həmrəylik, sosial və iqtisadi ədalət və sülh prinsipləri üzrə lahiyələr həyata keçirilir (64).

Karitas ilk dəfə 1952-ci ildə Norveçdəki Katolik Kilsəsi tərəfindən Qaçqınlara Norveç Katolik Yardımı adı ilə yaradılmışdı. 1964-cü ildə ildə Karitas Norveç

adlandırıldı. Halhazırda Karitasın baş ofisi Osloda yerləşir və müstəqil humanitar fond kimi öz fəaliyyətini davam etdirir (60). Karitas Norveçin əsas məqsədlərindən biri aclıq və yoxsulluğu aradan qaldırmaqdı. Bu məqsədlə təşkilat həm Norveçdə, həm də Afrika, Avropa, Latın Amerikası, Asiya ölkələrdə yaşayan əhalinin həyatını yaxşılaşdırmağa çalışır. Digər Karitaslar kimi Karitas Norveç də digər yepiskoplar və ya milli Karitas, həmçinin Karitas Avropa, Karitas Beynəlxalqla da əməkdaşlıq edir. Milli olaraq Karitas, Karitas Norveçdəki diaspor qrupları, Norveç Katolik yeparxiyaları, Gənclər üçün Milli Katolik Təşkilatı ilə əməkdaşlıq edir. Təşkilat, immiqrantlara və qaçqınlara xüsusi önəm göstərərək, onları dəstəkləyir. Oslo, Stavanger, Trondheim, Bergen, Drammen kimi şəhərlərdə immiqrantlar üçün bu xidmətlər mövcuddur. Bunun sayəsində immiqrantlar, Norveçdə yaşamağa lazımı məlumatlarla təmin olunurlar. Bu məlumatlara əmək bazarı, vakant vəzifələri, sağlamlıq və hüquqi məsləhətlər aiddir (60).

Karitas Norveç qaçqınların, sığınacaq axtaranların, immiqrantların həyat keyfiyyətini artırmaq üçün müxtəlif xidmətlər həyata keçirir. Təşkilatın Osloda yerləşən baş qərargahında iki departament mövcuddur. Bunlardan biri beynəlxalq əməkdaşlıq lahiyələri, digəri isə ölkədə ehtiyyacların təmini ilə məşğul olur. Burada üç fərqli sahədə fəaliyyət göstərən beynəlxalq lahiyələr ofisi mövcuddur. Ərzaq təhlükəsizliyi, yardım sahəsi, təhsil bu üç fərqli sahəni əhatə edir. İnkişaf etməkdə olan ölkələrdə aclığı aradan qaldırmaq üçün ərzaq təhlükəsizliyi sahəsində, təbii fəlakətlərdən və yaxud humanitar bölgələrdə insanlara kömək məqsədi ilə yardım sahəsində və təhsil keyfiyyətini artırmaq üçün təhsil sahəsində müxtəlif lahiyələr hazırlanır. Ərzaq təhlükəsizliyi sahəsi burada xüsusi rol oynayır. Karitas Norveç kiçik fermerlərə təlimlər verməklə ərzaq təhlükəsizliyini artırmağa çalışır (61). Norveçdə miqrantlara və qaçqınlara kömək məqsədi ilə xidmət göstərən dörd resurs mərkəzi var. Bunlardan biri Osloda yerləşir. Roma Papasının “qoruyucu” təlimatlarına əsasən işləyən Caritas Resurs Mərkəzi, Osloda yerləşir. O, immiqratlara və qaçqınlara məlumat və təlim verən açıq mərkəzdi. Mərkəzin açılışı 2011-ci ildə baş vermişdir. Həftənin dörd günü açıq olan mərkəz, norveç, polyak, ingilis, rus, ispan, rumın və s. dillərdə insanlara məlumat verir. Mərkəzdə müxtəlif kurslar da

məsləhət verilir. Burada həyat və iş məsələlərindən savayı, hüquqi məsələlər barədə də məlumat verilir. Norveç dilini bilməyən şəxslər həftədə iki dəfə hüquqi məsləhət ala bilirlər. Bir digər təlimat isə sağlamlıqla bağlıdır. Bu təlim vasitəsi ilə immiqrantlar və qaçqınlar yoxlamışdan keçə bilərlər (59). Bu xidmətlərdən başqa, mərkəzdə müxtəlif səviyyədə norveç dili kursları da təklif olunur. İş axtaranlar üçün iş axtarışı kursları da mövcuddur. Norveçdə immiqrant və qaçqınlar üçün “arbeidslivsfadder” adlı mentor proqram da mövcuddur. Bu proqramın əsas məqsədi yaxşı biliyə malik olanlara fərdi yardımın edilməsidir (63).

Ümumiyyətlə Norveçdə "immiqrant” anlayışı iki kateqoriya ilə təmsil olunur. Bunlardan biri ölkəyə immiqrasiya etmiş, lakin valideyni və nənə-babaları köçdükləri ölkədən olanlar, valideyn və nənə-babası köçdükləri ölkədə doğulanlardır.

2022-ci il statistikasına görə ölkədəki immiqrantların sayı 820 minə çatdı. Bu dövrdə Norveçə gələn immiqrantlar arasında polşalılar, suriyalılar, somalilər daha çox üstünlük təşkil edirdi (91).  1995-2011-ci il müddətində keçən 16 ildə birinci və ikinci nəsil immiqrantların sayı 215.000-dən 600.000-ə kimi qalxdı. Bu sayın ən böyük hissəsini yəni 500 minini birinci nəsil immiqrantlar, 100 minini valideyni immiqrant olan norveçlilər idi (91).

Ümumiyyətlə, son 20 ildə, əsasən də 2004 və 2007-ci illərdə Avropa İttifaqına genişlənmənin nəticəsi olaraq Norveçə çoxlu sayda miqrant gəlmişdir. Bu rəqəm 2011-2012-də isə təxminən 48min nəfərlə pik nöqtəyə çatmışdır. Artıq 2015-ci ildə 850min nəfər miqrant mənşəli idi, bu da 2000-ci ildən üç dəfə çox idi (79,s.2). Afrika, Asiya və digər ölkələrdən gələn miqrantlar bu sayın yarısından çoxunu əhatə edirdi. Lakin bu immiqrantlar əmək bazarında nisbətən aşağı iştiraka malikdirlər və daha çox dövlət maliyyəsi alırlar. Norveç son on ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri içərisində ən yüksək immiqrasiya göstəricinə sahib ölkədir (79,s.2).

Norveçdə immiqrantlar barədə qəbul edilən qanunlara ilk olaraq 2008-ci ildə Storting tərəfindən qəbul edilən immiqrasiya axınını göstərmək olar. Bu qanun 2010-cu il 1 yanvar tarixindən qüvvəyə mindi. 2015-ci ilin payızında Parlamentdəki səkkiz tərəfdən altısı qaçqın böhranını həll etmək və vəziyyətə nəzarət etmək üçün tədbirlər

barədə razılığa gəldilər. Bu tədbirlər "sığınacaq həlli" adlanırdı və 2015-ci ilin 3 dekabr tarixində qəbul olunmuşdu (74).

Norveçdə multikulturalizmdən bəhs edərkən Norveç Multikultural Dəyərlərin Yaradılması Mərkəzi (NSFV) barədə də məlumat vermək lazımdır. 2005-ci ildə yaradılmış bu mərkəz immiqrantlar və biznes qurmaq istəyənlər və iş həyatına başlayanlar üçün fəaliyyət göstərir. Mərkəz bu məqsədlə metod və proseslər hazırlamaqla immiqrantlar arasında artan dəyər yaradılmasını asandlaşdırır. NSFV multikultural sahibkarlığın əsas mərkəzidir. Bu mərkəzin əsas iki hədəf mərkəzi var. Bunlardan biri işə başlamaq və yaxud işləmək üçün ixtisaslı olmaq istəyən immiqrantlar, digəri isə bu hədəfə kömək edən hökümət və digər təşkilatlardır. Yaradılma məqsədi əmək bazarından kənarda olan immiqrantlara kömək etmək və onların öz bizneslərini qurmaqlarına yardım etmək idi. Norveç Multikultural Dəyərlərin Yaradılması Mərkəzi 2019-cu ilə kimi Drammen bələdiyyəsi və Buskerud rayon bələdiyyəsinin dövlət mülkiyyətindədir. Halhazırda mərkəz on yeddi illik iş təcrübəsinə və biliyinə əsaslanan müstəqil assosiasiyadır (78).

Norveçin qaçqın və miqrasiya siyasəti ilə bağlı geniş beynəlxalq əməkdaşlığı mövcuddur. Beynəlxalq əməkdaşlığın bir neçə məqsədi mövcuddur. Bunlar qaçqınların müdafiəsi və qaçqın probleminin qalıcı həlli, digər ölkələrin təcrübəsinə uyğunlaşma, məlumat və təcrübə mübadiləsidir. Beynəlxalq əməkdaşlıq sahəsində təşkilatlardan biri Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığıdır. Təşkilat qaçqınların mühafizəsi və qaçqın problemlərinin qalıcı həll yolunu tapmaq üçün fəaliyyət göstərir. Digər tərəfdən isə dövlətlərin Qaçqınlar Konvensiyasına əməl etmələrinə nəzarət edir. Norveç 1955-ci ildən bəri bu təşkilatın üzvüdür. Norveçin üzv olduğu digər təşkilat Beynəlxalq Miqrasiya Təşkilatıdır. 1954-cü ildən bəri bu təşkilata üzv olan Norveç, ən qədim üzv ölkələrdən biri sayılır (59). Beynəlxalq Miqrasiya Təşkilatının Norveçdə ofisi fəaliyyət göstərir. Bu ofis könüllü qayıdış, məskunlaşan qaçqınlar üçün mədəni oriyentasiya və reinteqrasiya yardımı sahələri də daxil olmaqla Norveç hakimiyyət orqanları ilə əməkdaşlıq edir. Avropa Şurasının da burada rolu əvəzsizdir. 1950-ci ildə İnsan Hüquqları üzrə Avropa Konvensiyasının qəbul edilmişdi. Konvensiya insan hüquqlarının

pozulmasına qarşı məsuliyyət daşayır. Burada qaçqınlara və yaxud sığınacaq axtaranlara aid birbaşa müddəalar əks olunmasa da, mövcud müddəalar onlara da təsir göstərir. Avropa Şurasının əməkdaşlığı çərçivəsində fəaliyyət göstərən İnteqrasiya və Miqrasiya üzrə Avropa Komitəsi də mühüm əhəmiyyətə malikdir. Norveç Avropa Birliyinin Sığınacaq Ofisi və Avropa İttifaqı Sərhəd və Sahil Mühafizəsi vasitəsi ilə miqrasiya problemlərində fəal iştirak edir. Qaçqın Problemləri üzrə Şimal ölkələri Yüksək Səviyyəli Məsləhətlər Qrupunun (NSHF) ölkə üçün böyük əhəmiyyəti var. NSHF ölkələrin qeyri-rəsmi olaraq sığınacaq, qaçqın və miqrasiya, həmçinin geri qayıtma və məskunlaşma barədə mövzuları müzakirə etdiyi informasiya forumudur (59). 1980-ci illərin ortalarından sığınacaqla bağlı məsələlərin artması və Şimali Avropa ölkələrinə sığınacaq məqsədi ilə gələnlərin nəticəsində yaranmışdır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı miqrasiya sahəsində əmək miqrasiyası və immiqrantların əmək bazarına cəlb olunması məsələləri ilə məşğul olur. Norveç, Əmək Nazirliyi tərəfindən “Miqrasiya üzrə İşçi Qrup”u komitəsində təmsil olunur (59).

Norveç hazırda en çox miqrant qəbul edən ölkələrindəndir. Ölkədə fəaliyyət göstərən qurumlar, ölkənin əməkdaşlıq etdiyi təşkilatlar, ölkədəki qanunlar immiqrantlar buraya axınına səbəb olur.

### 2.3 Azərbaycan və Norveç multikulturalizminin müasir vəziyyəti: problemlər və perspektivlər

Norveç və Azərbaycan bir çox millətin birgə yaşadığı cəmiyyətlərə malikdir. Bu cür cəmiyyətə malik olduqlarına görə bir çox problemlə üzləşirlər.

Multikulturalizmin əsasını din, dil məsələlərinin təşkil etdiyini nəzərə alsaq, hər iki ölkə üçün problemlərin mövcud olduğunu görmək olar.

Azərbaycan qədim zamanlardan bəri müxtəlif qrupların yaşadığı bir cəmiyyət olmuşdur. Cəmiyyətdə bütün dinlərə tolerant münasibət mövcud olsa da, problemlər qaçınılmazdır.

Multikulturalizm siyasəti azlıqların mədəniyyətini təşviq etmək üçün iqtisadi və yaxud siyasi elementləri özündə birləşdirən mühüm vasitələr təmin etməlidir. Lakin

bu model Azərbaycanda effektiv şəkildə həyata keçirilmir. Ölkədə etnik azlıqların öz dillərindən sərbəst istifadə etmək, dillərini öyrənmək və öz dillərində rəsmi sənədlər əldə etmək hüququ var. Məsələn həftədə iki dəfə Azərbaycan beynəlxalq radiosu talış, ləzgi, kürd dillərində və həmçinin ərəb və fars dillərində xəbərlər yayımlayır. Azərbaycanda ləzgi dilini tədris edən yüzə yaxın məktəb mövcuddur. Lakin bəzi məktəblərdə müəllimlərin və materialların sayının zəif olması, dillərin yetəri dərəcədə tədris olunmamasına gətirib çıxardır. Azsaylı xalqların dillərində muzeylər açılıb, qazetlər və lüğətlər nəşr olunsa da, onların çoxu dövlət tərəfindən deyil, özəl təşəbbüslərlə maliyyələşdirilir. Məsələn bunlara yazıçı Sədaqət Kərimova tərəfindən ləzgi dilində nəşr etdirilən "Samur" qəzeti, talış dilində nəşr olunan "Aləm" qəzetini missal göstərmək olar. Qubada yerləşən dağ yəhudilərinin muzeyi də icma tərəfindən maliyyələşdirilir. Ölkədə etnik azlıqların heç bir xüsusi qrup yönümlü hüququ da mövcud deyil (67).

Azərbaycanda müxtəlif dinlərə mənsub şəxslərin olmasına baxmayaraq, dövlət və ya özəl ibtidai və yaxud liseylərdə dinə aid dərslər verilmir. Xaricdə din sahəsində təhsil alan şəxslərin ölkəyə qayıtdıqdan sonra rəsmi dini vəzifələr tutmasına, təbliğat aparmasına şərait yaradılmır. Konstitusiyaya görə, ölkə qanunu din xadimlərinin seçkilərdə iştirakını məhdudlaşdıra, parlamentə seçilmələrinə qarşı çıxa bilər. Qanunverciliyə görə siyasi partiyalar dini fəaliyyətlə məşğul ola bilməzlər. Bəzi strukturlar bəzən gürcü adları olan uşaqlar üçün gürcü dilli ailələrə və yaxud uşaqlarına incil adlarını vermək istəyən baptistlərə doğum haqqında şəhadətnaməni verərkən çətinlik yaradır (95).

Norveçdə immiqrantlar barədə məsələlər multikulturalizm siyasətindəki problemlərin başında gəlir. 2015-ci ildə immiqrantların ölkəyə gəlişi güclənmişdir (86,s.1). Nəticədə 2018-ci ildə Norveç höküməti tərəfindən immiqrantların ölkədə qalmaqlarına məhdudiyyət qoyulmuşdu (86,s.2). Ölkəyə gələn immiqrantların çoxluğu problemindən savayı, Norveçdəki immiqrantları da uyğunlaşdırmaq problemi mövcuddur. Ölkədəki miqrantları uyğunlaşdırmaq üçün İnteqrasiya Aktı qəbul edildi. Immiqrantlar inteqrasiya Planı vasitəsi ilə məcburi qoşulma yolu ilə cəmiyyətə assimilyasiya olunurdular.  Norveçdə olan bir digər problemlər nifrət

cinayəti ilə bağlıdır. Norveç Polisinin 2016-cı hesabatına əsasən, “dəri rəngi” və “milliyyət” məsələləri barədə cinayətlərin sayı kəskin artıb (86,s.9).

Norveçdə immiqrantlarla bağlı digər problem onların həyat səviyyəsinin yerli əhaliyə nisbətən daha aşağı olmasıdır. Ölkədə immiqrantlarla yerli əhalinin yaşayışı arasında xeyli fərq var. İmmiqrantların məşğulluq və gəlir səviyyəsi əhalinin əksəriyyətindən daha aşağı səviyyədədir. Qaçqın mənşəli immiqrantlar Norveç əmək bazarında müəyyən problemlərlə üzləşirlər.

Norveçin multikulturalizm sahəsində qarşılaşdığı digər problemi burada hər dinə eyni cür yer verilməməsidi. Əsas üstünlük xristianlığa aiddir. İstər təhsil idarələrində, istərsə də cəmiyyətdə bu özünü biruzə verir. Üstlünlüyün xristianlığa verilməsi digər din nümayəndələri tərəfindən etirazlara səbəb olur. Təhsil müəssəsələrində digər dillərdə təhsilin aşağı olması, cəmiyyətdə immiqrantların dilinin inkişafını təmçin edən tədbirlərin görülməməsi problemlərə aiddir.

“Norveçin islamlaşmasını dayandırın” və “Norveç Müdafiə Liqası” kimi anti-İslam təşkilatları və Tərəqqi Partiyası, Sağ Partiyası və Yeni Xristian Partiyası kimi sağçı populist hərəkatların İslam əleyhinə ritorikası, son dövrlərdə Norveç cəmiyyətinə dərindən təsir edən iki mühüm hadisənin yaranmasına səbəb olmuşdur. Bunlardan biri “2006-cı il cizgi filmi böhranı”, digəri isə “2011-ci ildə Bervik terror hücumu”dur. Norveç cəmiyyətində İslamofobiya və Anti-İslamizmin gedişatı baxımından bu iki hadisədən əvvəl və sonra baş verən prosesləri araşdırmaq və təhlil etmək vacibdir.

İslamofobiya müsəlmanlara qarşı ayrı-seçkiliyi göstərən, 2001-ci il 11 sentyabr tarixində ABŞ’da Dünya Ticarət Mərkəzinə edilən terror hücumundan sonra tez-tez istifadə olunan anlayışdır (66,s.10). Norveçdə müsəlman qruplarına qarşı edilən haqsızlıqlar Beynəlxalq İnsan Haqları Mərkəzinin hesabatlarında öz əksini tapmışdır. Norveçdə islamofobiyanın genişlənməsinə təsir edən iki əsas hadisə baş vermişdir. Bunlardan biri “2006-cı il cizgi filmi böhranı”, digəri isə “2011-ci il Breyvik terror hücumu”dur (66,s.11). 2006-cı ildən bəri Norveçin yazılı və vizual mediası İslamı açıq şəkildə qəbul edən Hz. Məhəmmədi və müsəlman cəmiyyətini təhqir edən nəşrlər dərc olunmağa başladı. “Magazinet” və “Leverde Ord” jurnalları, “Norge

IDAG" qəzeti və gündəlik "Dagen" qəzeti müsəlmanlara nifrət və kin-küdurət aşılayan nəşrləri ilə diqqət çəkən, İslam əleyhinə çıxışları ilə gündəmə gələn bu nəşrlər sırasında olmuşdur. Ümumilikdə xristian sağ hərəkatlarının nümayəndələri kimi tanınan bu nəşrlər İslama və müsəlmanlara qarşı nəşrləri ilə ölkədə sosial qarşıdurmalara və böhranlara səbəb olub. Bunlardan biri də ən çox müzakirə olunan Karikatura Böhranıdır. Böhranın yaranması barədə Norveçin aylıq jurnalı "Magazinet" məlumat yaymışdı. Bu, 2006-cı il yanvarın 10-da Məhəmmədi təhqir edən karikatura dərc edildikdə baş verib. Əslində dünya mətbuatı "cizgi filmi böhranı" ifadəsini ilk dəfə Norveçdən əvvəl 30 sentyabr 2005-ci ildə Danimarkada "Jyllands Posten" qəzetinin açdığı "Məhəmməd karikaturaları" müsabiqəsi ilə qarşıladı. Bu hadisəni qısaca xatırlasaq, Danimarkanın ən prestijli gündəlik qəzeti Jyllands-Posten ifadə azadlığı adı altında maskalanıb (82,s.125). O, Məhəmmədi aşağılayan karikaturalar dərc edib. Bu karikaturalar arasında xüsusilə Kurt Westergaardın çəkdiyi karikatura Hz. Məhəmmədin bombalı terrorçu kimi təqdim edilməsi müsəlmanların böyük qəzəbinə səbəb olmuşdu. Karikaturanın yayımlanması ölkədə yaşayan minlərlə müsəlman tərəfindən İslama hücum kimi qiymətləndirilib və böyük reaksiya ilə qarşılanıb. Müsəlmanların bu reaksiyalarına baxmayaraq, o dövrdə Danimarkanın baş naziri olan Anders Foq Rasmussen sözdə ifadə azadlığı zəminində müsəlmanlara qarşı edilən bu təhqirə səssiz qalmışdı. Baş nazirin susması, xüsusən də on bir müsəlman ölkəsinin səfirlərinin onunla görüşməkdən imtina etməsi ölkədə yaşayan bütün müsəlmanların reaksiyasının artmasına səbəb olub və ölkənin bir çox yerində etiraz nümayişləri başladıb. Danimarkada başlayan bu etiraz və nümayişlər qısa müddətdə xaricə yayılaraq Qərbin və İslam dünyasının müxtəlif bölgələrinə yayılaraq Danimarkanın yaxın tarixin "Cizgi filmi böhranı" kimi düşüb (82,s.126). Danimarkada baş verən bu hadisədən təxminən üç ay sonra, daha əvvəl Jyllands-Posten qəzetində dərc olunan Məhəmməd Peyğəmbərdə oxşar böhran yaşandı. Norveçdə "Magazinet" jurnalında dərc olunan karikatura ilə İslam dini "zorakılıqdan çəkinməyən bir din" kimi göstərilməyə çalışılıb və müsəlmanları təhrik edərək Norveç cəmiyyətində qarşıdurma mühitinin yaradılması hədəflənib (53,s.383). 2010-cu ildə Norveçin

Aftenposten və Dagbladet kimi ən əhəmiyyətli və yüksək tirajlı qəzetlərində Məhəmməd peyğəmbəri təhqir edən karikaturalar dərc edilərək Norveçdə yenidən karikatura böhranının yaşanması tələb edilib. İlk olaraq Aftenposten 2005-ci ildə Danimarkada nəşr olunan karikaturaları çəkən Kurt Westergarda qarşı edilən təhdidləri tənqid etmək və Westergarda dəstək olmaq üçün bu ölkədə nəşr olunan karikaturaları yenidən nəşr etdi və bunun mətbuat azadlığı olduğunu müdafiə etdi. Bundan qısa müddət sonra Facebook-da Norveç Polis Təhlükəsizlik Xidmətinin (PST) ictimai paylaşma saytı Hz. Məhəmməd peyğəmbəri təhqir edən karikatura paylaşılıb və Dağbladet qəzeti də bu postu manşetdə verib və Hz. Məhəmmədə böyük hörmətsizlik göstərdi(50,s.237).Qəzetlərdə karikaturaların dərci ndən sonra sayı təxminən 3000-ə çatan müsəlmanlar 14 fevral 2010-cu il tarixində Oslo Universitetinin Hüquq fakültəsi qarşısında etiraz nümayişləri təşkil etmiş və narahatlığı hüquqi müstəvidə dilə gətirilmişdir. Digər tərəfdən İslam Şurası yazılı açıqlama verərək, bu karikaturaların nəşrinə icazə verən PST və Dagbladet qəzetlərinə xəbərdarlıq edib (50,s.238). Müsəlmanlara qarşı atılan bir digər addım isə “2011 Bervik terror hücumu” olmuşdur. Norveçin paytaxtı Oslo və Utoya adalarında baş verən və Norveç xalqında böyük travmaya səbəb olan bu dəhşətli hadisə əvvəlcə hökumət binasına bombalı hücumla başladı, daha sonra Utoya adasında gənclərin öldürülməsi ilə davam etdi. Bu terror hücumunda 8-i hökumət binasına edilən hücumda, 69-u isə Utoya adasındakı silahlı basqında ümumilikdə 77 nəfər həlak olub (59). Breyvikin verdiyi məlumata görə , o, cəmiyyəti müsəlmanlardan təmizləmək istəyirmiş. Çünki Breyvik və onun bəslədiyi ideyalar, qane olmayanların qapalı virtual internet mühitində manix bir düşüncə formasında “İslam xalis şərdir və nəyin bahasına olursa-olsun mübarizə aparmaq lazımdır” arqumentindən irəli gəlir. Norveç dövləti ifrat sağçı ideologiyanın xüsusilə Breyvik terror hücumundan sonra təhlükəsizlik təhlükəsi yarada biləcəyini dərk etsə də, ifrat sağçıların neonasist üslublu diskursları müsəlmanları konseptuallaşdırmaq üçün yol açırdı. Digər hədəf qrupu olaraq ifrat sağçıların fəaliyyətinə açıq şəkildə qarşı çıxan, tənqid edən və etiraz edən jurnalistlər, mədəni ziyalılar və akademiklər, solçu fəallar, siyasətçilər, feministlər və irq əleyhinə olanlar var. Bu hücumdan sonra da müsəlmanlara qarşı

təhqirlər davam etmişdir. Əsasən də küçələrdə, nəqliyyat vasitələrində təzyiqlər davam etmişdir (59). 2020-ci ildə vəziyyət yenidən gərginləşdi. Osloda SİAN qrupu “Norveçin islamlaşmasına yox!” şüarı ilə nümayiş keçirdib. Qrupun Quranı cırmağa başlaması ilə gərginlik daha da artmışdı (40). Norveçin 25 sentyabr 2015-ci il tarixli iyirmi birinci və iyirmi ikinci Dövr Müşahidə Hesabatında CERD komitəsi siyasətçilərin mediada və digər rəsmi platformalarda nifrət dolu və ksenofobik ifadələri ilə bağlı narahatlıqlarını ifadə etmiş və siyasətçilərin müdafiəsi və qarşısının alınması üçün təsirli tədbirlərin görülmədiyini bildirmişdir. Konvensiyanın dörd, beş və altıncı maddələrinə istinad edilmiş və xəbərdarlıq etmişlər. Bu məqamda cəmiyyətin bütün təbəqələri sürətlə inkişaf edən, qitələri aşan anti-islam düşüncə və hərəkətlərinə qarşı diqqətli və ehtiyatlı olmalıdır.

Norveç İnteqrasiya və Multikulturalizm Departamentinin (İMDi) 2009-cu il məlumatına əsasən il ərzində “islam” və “müsəlman” sözlərinin yer aldığı yetmiş yeddi min xəbər dərc olunub. 82%-i mənfi fikirlərlə bağlı olduğu halda, 18%-i isə neytral və yaxud müsbət xəbərlər idi (46,s.340). İMDi-nin direktoru Osmund Kalheimin sözlərinə görə “Media müsəlmanların inteqrasiya üçün etdiyi yaxşı addımlardan danışmaqdansa, həmişə hicab qadağası və islamofobiyadan danışır” (46,s.344).

Norveçdə yaşayan müsəlman ailələr övladlarının təhsili üçün özəl məktəbin açılmasını tələb etmişlər. Lakin bu tələb Oslo şəhər şurası tərəfindən rədd edilmişdir. Bu da ayrı-seçkiliyin bir nümunəsidir. Digər tərəfdən isə müsəlmanlara halal heyvan kəsiminə də ölkədə icazə verilmir. Ölkədə işləyən müsəlmanlar iş saatlarında namaz qılmaq və oruc tutmaq kimi ibadətlərini də yerinə yetirməkdə çətinlik çəkirlər (46,s.342). Bir digər məsələ isə azlıqların dini və milli bayramlarda iş yerlərindən icazəsi ilə bağlıdır. Bu zaman icazə verilsə də, icazə alınan günlər üçün əmək haqqı verilmir. Lakin eyni hal Norveçin dini və milli bayram günlərinə aid deyil. Bu zaman qeyri-iş günü kimi qəbul olunur və həmin günlərdə iş olmamasına baxmyaraq, əmək haqqı verilir (72, s.444).

Norveçdə müsəlmanların vətəndaşlıq almaq prosesi də daha qəlizdir. Aparılan araşdırmalara görə müsəlman mühacirlərə nisbətdə qeyri-müsəlman mühacirlərə

vətəndaşlığın daha çox verildiyi görünür. Ölkədə müsəlmanların səs vermə məsələsində önə çıxan problemlərdən biri yalnız solçu partiyalarına səs verə bilməkləridir. (46,s.339).

Ölkədə müsəlman əhalisinin artması dini məkanların artırılmasına səbəb yaradır. Bu ehtiyacın ödənilməsi üçün Norveçin bir çox sahəsində məscidlər tikilir. Lakin ölkədəki müsəlmanlar müxtəlif qruplarda təmsil olunurlar. Ölkədə məscidlərin tikintisi zamanı sünni və şiə məsələləri də ön plana çəkilir. Bu səbəbdən Norveçdə məscidlərə üzvlük vaxtı dil və mənşəyə, siyasi və dini yönəlmələrə diqqət yetirilir ( 54, s.216).

Problemləri ümumiləşdirən meydana gələn nəticə ondan ibarətdir ki, müsəlmanlar ilk olaraq irqçi və cəmiyyətdən təcrid edən təzyiqlərlə daha çox rastlaşırlar. Müsəlman qadınların hicab taxması qanuni cəhətdən qadağan edilməsə də, bəzi müəssəsələr öz istəklərinə görə hicab taxanlara təzyiq göstərirlər. Digər tərəfdən müsəlman uşaqlar təhsil yerlərində öz dillərini yetəri səviyyədə öyrənə biləcək şəraitə sahib deyillər. Norveçdə dini azlıqlara qarşı edilən ayrı-seçkiliklərə beynəlxalq qurumlar və dünya ölkələri tərəfindən də diqqət yetirilmişdi (57). Bu hesabatda təcili tədbirlərin görülməsi lazım olduğu bildirilmişdi. Hesabatda,ölkənin ictimai yerlərində və özəl sektorlarında başda müsəlmanlar olmaqla, azlıq qruplarına edilən nifrət kəlamları və irqçi hərəkətlərin davam etdiyi göstərilərək Norveç hökümətinin bunun qarşısını alacaq tədbirlər görməli olduğu vurğulanmışdı (45).

Bütün bu problemlərə baxmayaraq hər iki ölkə multikulturalizm siyasətini inkişaf etdirməyə çalışırlar. Norveçdə terror aktlarından sonra xalq arasında aparılan sesvermədə aydın olmuşdurki, xalq daha da möhkəm əlaqələr quraraq multikultural vəziyyətin inkişafı üçün əlində gələni etmişdir. Terror aktından sonra Norveçdə multikulturalizmin öldüyü yönündə xəbərlər çıxsa da, Norveç bunun əksini sübut etdi. Ölkə bu gün də ən çox miqrant qəbul edən ölkələrdəndir. Azərbaycan mövcud problemlərə baxmayaraq, bu gün uğurlu multikulturalizm siyasəti həyata keçirir. Ölkənin forumlara qatılması, oyunlara ev sahibliyi etməsi multikultural cəmiyyətin inkişafına təkan verir.

# NƏTİCƏ

1990-cı illərdən bəri müxtəlif mədəni azlıqların tanınması və onlara aid uyğun siyasətin seçilməsi bir çox ölkədə aktual hal almışdır. Multikulturalizm bir yanaşma kimi 1968-ci il hərəkatı ilə yayılmışdır. 1990-cı illərdə sosialist blokunun dağılması ilə isə, artan etnik mənsubiyyət, millətçilik, kimlik, immiqrasiya kimi mövzuları araşdırmaq və problemlərə həll yolu tapmaq imkanını yaratmışdır. Bunun səbəbi multikulturalizmin bütün etno-mədəni qrupların yəni mühacirlərin, milli azlıqların, etnik-dini azlıqların tələbləri və dövlətlərin onlara davranışları barədə fikirlər irəli sürməsi idi. Bu səbəbdən multikulturalizm bu gün də bu cür problemlərlə qarşılaşan cəmiyyətlər üçün əlverişli yanaşmadır.

Müasirləşmə ilə ilk növbədə milli dövlətçilik şüuru formalaşmış, ölkənin milli birliyinin və bütövlüyünün qorunması ən mühüm siyasi addım kimi qiymətləndirilmişdir. Qloballaşmanın gətirdiyi intensiv miqrasiyadan sonra milli dövlət şüuru azalmış, fərdlər və qruplar öz kimliklərini tanımaq, var olmaq psixologiyasına girmişlər. Millətçiliyi aşan, müxtəlif etnik və dini qrupların birgəyaşayışını təklif edən multikulturalizm, bu gün meyl edilən əsas sosial modelə çevrilmişdir.

Hər bir ölkənin mədəni müxtəlifliyi onun özünəməxsus keyfiyyətləri, unikallığı, tarixi keçmişi və özünəməxsus şəraiti baxımından qiymətləndirilməldir. Dünyanın əksər ölkəsində etnik-mədəni müxtəlifliklər mövcud olsa da, onların hər biri uğurlu multikulturalizm siyasəti yerinə yeritməyi qadir deyillər.

Azərbaycanın qədim dövrdən bəri etnik, dini, irqi və mədəni müxtəlifliklərin birgə yaşadığı cəmiyyət kimi formalaşdığı göz qabağındadır. Azərbaycan multikulturalizmini Qərbdəki multikulturalizmdən fərqləndirən əlamətlər mövcuddur. Azərbaycanda multikultural mühit keçmişdən formalaşmağa başlamışdır. Keçmiş zamanlardan bəri bu cür şəraitin olması, bu gün Azərbaycandakı multikultural dəyərlərin möhkəm şəkildə olmasına, tolerantlığın yuxarı səviyyədə olmasına gətirib çıxardır. Ölkəyə gələn hər bir şəxs tolerant münasibət ilə qarşılaşır, ayrı-seçkiliyə məruz qalmır. Ölkədə forumların keçirilməsi, konfranslarda iştirakın olması və bu kimi işlər multikultural cəhətdən inkişafa səbəb

olur.

Azərbaycan multikulturalizmində Azərbaycançılıq məhfumunun yeri də mühümdür. Bu anlayışın əsasında hər bir xalqın etnik, sosial, milli və dini hüquqların bərabərliyi düşüncəsi dayanır. Azərbaycançılıq, millətçilik və şovinizm əleyhinə bir ideyadır. Bu ideya sayəsində Azərbaycan xalqının dünya birliyindəki yeri yüksəlir.

Multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin multikulturalizmin və tolerantlığın inkişafına, möhkəmlənməsinə və təbliğinə xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkədə etnomədəni münasibətlər özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda müxtəlif xalqların nümayəndələri, fərqli dinlərin daşıyıcıları qarşılıqlı hörmət və anlaşma şəraitində birgə yaşayır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bu, Azərbaycanda formalaşmış vətəndaş həmrəyliyinin, sağlam etnik və dini münasibətlərin məntiqi nəticəsidir.

Keçmişdən bu günə kimi müxtəlif din və mədəniyyətlərə ev sahibliyi edən Norveçdə müxtəlif ərazilərdən köçmüş çoxlu sayda etnik icmalar yaşayır. Ölkədə qəbul edilən qanunlar din cəhətdən müstəqilliyin əldə edilməsinə səbəb olmuşdur. Norveç əsasən immiqrantların gəlişi ilə multikultural cəmiyyətə çevrilmişdir. İmmiqrantların gəlişi ölkəyə həm ucuz işçi qüvvəsi, həm də müxtəlif problemlər gətirmişdir. İmmiqrantların bəziləri peşəkar işçi qüvvəsi olsalar belə, digər qismi yararsız işçi kütləsi kimi qiymətlənmişdi. İmmiqrasiya sayəsində multikulturallaşan Norveçdə iki yüz fərqli ölkədən immiqrasiya və sığınacaq yolu ilə gəlmiş İslam, Yəhudilik, Hinduizm, Buddizm kimi müxtəlif dinlərə mənsub insanlar var. Bu inanc qruplarının hər biri qısa müddət ərzində öz icmasını və dini qurumlarını yaratmışlar.

İmmiqrasiya sayəsində multikultural cəmiyyətə çevrilmiş Norveçdə dövlət orqanları müxtəlif dinlərin nümayəndələri arasında insani münasibətlərin qurulmasına, müxtəlif dinlərin və inancların təbliğinə, ümumi əxlaqi qaydaların müəyyən edilməsinə və mədəniyyətin inkişafına böyük əhəmiyyət verirlər. Ölkə daxilində zaman-zaman yarana biləcək münaqişə və fikir ayrılıqlarının qarşısını almaq üçün dinlərarası dialoqlar keçirilir. Norveçdə dörd əss təşkilat dialoq

tədqiqatlarının institusionallaşdırılmasında mühüm rol oynayır. Bu təşkilatlar Norveçdə yaşayan təxminən on iki müxtəlif din və inancın nümayəndələri arasında qarşılıqlı hörmət və anlaşmanı təşviq etməkdir.

Həm Norveç, həm də Azərbaycan üçün multikulturalizm siyasətində müəyyən oxşarlıqlar mövcuddur. Hər iki ölkənin də beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı, immiqrantlar üçün əlverişli şərait yaratmaqları, bu gün də cəmiyyətdə multikultural ənənələrin inkişafına səy göstərmələri onların oxşar siyasətlərinə nümunələrdir. Lakin bu oxşarlığa baxmayaq iki ölkə arasında fərqliliklər də vardır. Azərbaycanda əhali arasında keçmiş dövrlərdən bu günə kimi tolerant münasibət olmuşdur, dövlət başçısının həyata keçirtdiyi uğurlu siyasət nəticəsində heç bir münaqişə, etiraz yürüşləri baş verməmişdir. Lakin Norveç bu cəhətdən tam uğura nail ola bilməmişdir. Ölkədə dini müxtəliflik ilə bağlı münaqişilər terror aktı, etiraz aksiyaları buna nümunədir. Oxşarlıqları və fərqlilikləri ilə yanaşı, ölkələrin problemlərində də bəzi oxşarlıqlar vardır. Hər iki ölkədə əsas dilə, yəni ilk öncə ölkənin dilinə üstünlük verilməsi və digər dillərə daha aşağı diqqət yetirilməsi, müxtəlif dillərə aid qazetlərin, materialların nəşrinə yetəri qədər büdcənin ayrılmaması, təhsil müəssəsələrində dini təhsilin lazımı səviyyədə olmaması ortaq problemlərə nümunədir.

Bütün bunlara baxmayaq, Norveç də, Azərbaycan da siyasətlərindəki boşluqları doldurmağa çalışaraq multikultural cəmiyyətlərini inkişaf etdirməyə çalışırlar.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT :

## Azərbaycan dilində:


1. Abdulla K.,Nəcəfov E., Məmmədov A., Azərbaycan multikulturalizmi, Ali məktəblər üçün dərslik. Bakı 2017, 421səh.
2. Aran S., Azərbaycanda İslam-keçmişdən bu günə, 525-ci qazet,2021, https://525.az/news/162475-azerbaycanda-islam-kecmisden-bu-gune
3. Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında" Çərçivə Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı üçüncü dövri məruzənin hazırlanması və təqdim olunması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10 may 2011
4. Azərbaycan multikulturalizmi, Mədəni müxtəliflik, 2016, https://multiculturalism.preslib.az/az_a5.html
5. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Komitənin tarixi, https://scwra.gov.az/az/view/pages/90?menu_id=26
6. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin "Bakı Prosesi" qlobal təşəbbüsünün 12 ili tamam olur, 2020, http://www.mct.gov.az/az/umumi-xeberler/13358
7. Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında, 15 may 2014
8. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Azərbaycan – ATƏT münasibətləri, https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-atet-munasibetleri
9. Azərbaycan Respublikasının Konstitusiyası,12 noyabr 1995-ci il
10. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyiliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10 yanvar 2017
11. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, İlham Əliyev BMT-nin

Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib, 2016, https://president.az/az

12. Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı, 10 mart 2004
13. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycanda yəhudilik, 2019, http://multikulturalizm.gov.az/az/post/1136/azerbaycanda-yehudilik.html
14. Bakıxanov,A.A., Seçilmiş əsərləri. Bakı: "Avrasiya-Press",2005, 488 səh.
15. Cavadov, Q; Hüseynov, R., Udilər. Bakı: Elm Nəşriyatı, 1999
16. Dini ekstremizmə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanunu, 4 dekabr 2015
17. Dini etiqat azadlığı haqqında qanun, 20 avqust 1992
18. Eyyubov E, Azərbaycan etnosları: Nic kəndinin udinləri, Azad Azərbaycan 2018, https://azertag.az/xeber/Azerbaycan_etnoslari_Nic_kendinin_udinleri-1137356
19. Əhali/ Əhalinin milli tərkibi, ana dili və sərbəst danışdığı dillərə görə bölgüsü, fevral 22, 2019 tarixində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/demoqraphy/az/001_11-12.xls
20. Gəncəvi N., İskəndərnamə. İqbalnamə. (M. Rzaquluzadə, Tərc.). Bakı: Lider nəşriyyatı, 2004, 256 səh.
21. Hacıyev A.N, Cəfərova E.H., Məmmədov İ.M.,Multikulturalizmə giriş. Bakı 2018, 371 səh.
22. İbrahimov Ə.,Azərbaycançılıq ideyasının konseptual aspektləri. Bakı 2016, 180 səh.
23. Maagerö E.,Simonsen B.,Norveç cəmiyyəti və mədəniyyəti, Skandinaviya Mərkəzi, Azərbaycan Dillər Universiteti. Bakı 2013, 325 səh.
24. Məmmədli N.,Multikulturalizm: panaseya yoxsa alternativ. Bakı 2016, 189 səh.
25. Multikultural Azərbaycan, Axaxlar, 2019, https://multikultural.az/az/milli-azliqlar/34/axaxlar/

26. Multikultural Azərbaycan, Azərbaycanda milli azlıqlar, 2019, https://multikultural.az/az/medeni-muxteliflik/86/azerbaycanda-medeni-muxteliflik-resmi/
27. Multikultural Azərbaycan, Beynəlxalq Konvensiyalar və onların Milli qanunvericilikdə təsbiti, 2019, https://multikultural.az/az/beynelxalq-senedler/11/azerbaycanin-qosulduu-beynelxalq-konvensiyalar-ve-onlarin-milli-qanunvericilikde-tesbiti-/
28. Multikultural Azərbaycan, Buduqlar, 2019, https://multikultural.az/az/milli-azliqlar/37/buduqlar/
29. Multikultural Azərbaycan, Etnik-siyasi birliyin ABŞ modeli, 2021, http://multikultural.az/az/beynelxalq-senedler/971/etnik-siyasi-birliyin-abs-modeli/
30. Multikultural Azərbaycan, Multikulturalizmin Kanada modeli, 2021, https://multikultural.az/az/beynelxalq-senedler/979/multikulturalizmin-kanada-modeli/
31. Niftiyev N.,Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı 2015, 408 səh.
32. Nurəddinoğlu R., Bilik Fondu- Azərbaycançılıq məfkurəsinin gərçək daşıyıcısı, 2018, https://sia.az/az/news/politics/702638.html
33. Quliyev S., Vəliyev E.,Azərbaycanda multikulturalizm və onun Lənkəran qaynaqları. Bakı 2018, 120 səh.
34. Quliyeva S., Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu, M.F.Axundov adına Azərbaycan Milli Kitabanası. Bakı 2012, 45 səh.
35. Stenersen O., Libaek I.,Norveç tarixi Buz dövründən bu günə kimi, Bakı 2009
36. Şirvani X., Seçilmiş Əsərləri. Bakı: “Lider nəşriyyat”, 2004, 660 səh.
37. UNESCO-Azərbaycan, Azərbaycan Respublikası ilə əməkdaşlıq, https://www.unesco.az/az/pages/cooperation-unesco-republic-azerbaijan
38. Yusifqızı Ə., Dünya ölkələri, Bakı 2013, 478 səh.
39. Zeynalov M., Hüriyyət, S.12, 2019

Türk dilində:


40. Aktaç S., İskandinav ülkelerinde neler oluyor? İslamofobi ve hoşgörüsüzlük arttı mı?, Euronws, 2020,

41. Atılgan G., Aytekin A., "Kimlik", Siyaset Bilimi: Kavramlar, İdeolojiler, Disiplinler, İstanbul, Yordam Kitap, 2018, s.509 https://tr.euronews.com/2020/08/30/iskandinav-ulkelerinde-neler-oluyor-islamofobi-ve-hosgorusuzluk-artt-m

42. BBC News, Türkçe, Norveç çifte saldırının şokunu yaşıyor, 2011, https://www.bbc.com/turkce/haberler/2011/07/110723_norway_3update

43. Büyüktavşan H.Z.,Güney Afrikadaki ırkçı apartheid rejimi: 1948-1994, Africania-İnönü Üniversitesi Uluslararası Afrika Araşdırmaları Dergisi, 1(1), 2021, s. 26-41

44. Çelik H.,Çokkültürlülük ve Türkiyedeki görünümü, Sosyal bilimler dergisi, 15, 2008, s. 319-332, https://dergipark.org.tr/tr/download/article-file/214917

45. ECRI, İrkçılık ve Hoşgörüsüzlüğe Karşı Avrupa Komisyonu, 2016, https://rm.coe.int/fifth-report-on-turkey-turkish-translation-/16808b5c83

46. Ertekin. M. F., Norveç ve Islamiyet. IHH Insani ve Sosyal Araşdırmalar Merkezi, Haziran 2015, https://www.insamer.com/tr/uploads/pdf/rapor-norvec-ve-islamiyet.pdf

47. Gelici Z., Norveç'te din eğitimi, Değerler Eğitimi Dergisi, 2020, https://doi.org/10.34234/ded.638482

48. Yaylacı G., "Süper-Çeşitlilik Çağında Çokkültürcülük", Hitit Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, C. X, No: 1, Haziran 2017, s.345-364

49. Kaymakcan R.,AİHM din dersi kararı nasıl anlaşılmalı?, Değerler Eğitimi Merkezi dergisi , 1(2), 2007

50. Komisyon, "Ülkelerin İhlal Karneleri: Norveç", UHİM Uluslar Arası Hak İhlalleri İzleme Merkezi Raporu, erişim: 23 Nisan 2014, http://www.uhim.org

51. Mann, İktidarın Tarihi: Sınıfların ve Ulus-Devletlerin Yükselişi 1760-1914,

Çev. Ali Rıza Güngen, Gülben Şaş, Elçin Deniz Ela, Hüseyin Ali Sözen, Soner Torlak, Bilgesu Savcı, Mehmet Sait Türk, C: II, Ankara, Phoenix, 2013

52. Önal R., Avrupa'da Müslümanların Birlikte Yaşama Serüveni: Norveç Örneği-Çokkültürlü Yaşam,Sosyo-Kültürel Organizasyonlar ve Dinlerarası Diyalog Perspektifinden Bir Analiz, 2016, https://doi.org/10.17550/aid.93346
53. Önal R., İslamofobi bağlamında islam karşıtı söylemlerin batı dünyasındaki yansımaları:Norveç örneği, Kader cilt 16 sayı 2, 2018, https://doi.org/10.18317/kaderdergi.463656
54. Önal R., Yurt Dışında Türkler: Göçmenlik, Etnisite ve Din, Transnational Press London, 2020, https://www.tplondon.com/product/goc-etnisite-din/
55. Parekh, Çokkültürlülüğü Yeniden Düşünmek, Çev. Bilge Tanrıseven, Ankara, Phoenix Yayınevi, 2012, s.480
56. Say Ö.,Çokkültürlülük Kavramı ve Anlamın Çokluğu,Sosyal Bilimler Enstitüsü Dergisi, İstanbul, 2017, https://dergipark.org.tr/en/download/article-file/317493
57. Uluslararası Hak İhlalleri İzleme Merkezi Raporu, 2014, https://www.uhim.org/Uploads/GenelDosya/2014-dunya-hak-ihlalleri-raporu-855-d.pdf
58. Vill K.,Çağdaş Siyaset Felsefesine Giriş, (Çev.:E.Kılıç), İstanbul Bilgi Üniversitesi Yayınları, 2012 https://tr.euronews.com/2020/08/30/iskandinav-ulkelerinde-neler-oluyor-islamofobi-ve-hosgorusuzluk-artt-m

Ingilis dilində:

59. Adetunji J., What do the Norway attacks mean for multiculturalism?, The Conversation, 2011, https://theconversation.com/what-do-the-norway-attacks-mean-for-multiculturalism-2489
60. Caritas, 2018c, https://www.caritasinternational.be/wp-content/uploads/2019/06/2019-06-27-CARITAS-ANNUAL-REPORT-2018-EN-finish-web.pdf
61. Caritas, Caritas Norge, 2014, https://www.caritas.org/2014/11/happy-half-

century-caritas-norway/

62. Caritas, Caritas Ressurssenter – Oslo, 2018a, https://www.caritas.no/caritas-resourcecentre-oslo-eng/
63. Caritas, Hva gjør vi, 2018b, https://www.katolsk.no/nyheter/2019/07/caritas-norges-arsrapport-2018-2013-vi-gjor-nestekjaerlighet-om-til-handling
64. Caritas, Who we are, 2018d, https://www.caritas.org/who-we-are/
65. Eidsvåg-Lindholm-Sveen, The emergence of ınterfaıth dialogue: The Norwegıan experıence, Facilitating freedom of religion or belief: a deskbook, Hollanda: Koninklijke Brill NV, 2004, s. 778-779
66. Eriksen T. H.,İmmigration and National İdentity in Norway, Washington,DC:Migration Policy Institute 2013, https://www.migrationpolicy.org/pubs/TCM-Norwaycasestudy.pdf
67. Filou B., Multiculturalism in Azerbaijan, Baku Research institute, 2021, https://bakuresearchinstitute.org/en/multiculturalism-in-azerbaijan/
68. Fleras.A,The politics of multiculturalism: multicultural governance in comparative perspective,New York,NY:Palgrave Macmillan, 2009, 285 s.
69. Government of Canada, Immigration and citizenship, 2022, https://www.canada.ca/en/immigration-refugees-citizenship/news/2022/03/canada-welcomes-over-108000-permanent-residents-in-early-2022.html
70. Hagelund,A., Problematizing culture: Discourses on integration in Norway, Journal of International Migration and Integration , 3(3), 2012, 10.1007/s12134-002-1022-7
71. In Focus — Azerbaijan: A living example of unity in diversity, https://ibe-infocus.org/articles/azerbaijan-living-example-unity-diversity/
72. Jacobsen-Leirvik, Norway, Yearbook of muslims in Europe (4). England: Brill Leiden, 2014, https://www.academia.edu/5441814/_Norway_._In_Jørgen_S._Nielsen_ed._Yearbook_of_Muslims_in_Europe._Volume_6._Leiden_Brill_2014_pp._459-471

73.Kymlicka, Contemporary Political Philosophy: An Introduction, 2. edit., New York, Oxford University Press, 2001, 512 s.

74.Large Norwegian Encyclopedia, Immigration to Norway, 2022, https://www.encyclopedia.com/places/germany-scandinavia-and-central-europe/scandinavian-political-geography/norway

75.Leirvik, O. , Müslims in Norway, The Nordic Welfare State, 8(1), 2014, https://doi.org/10.7146/tifo.v8i1.25326

76.Leirvik, O.,Islam and education in Norway, Islamic and education in Europe , 2014

77.Ministry of Local Government and Modernisation,Action plan against antisemitism 2016-2020, https://www.regjeringen.no/contentassets/dd258c081e6048e2ad0cac9617abf778/action-plan-against-antisemitism.pdf

78.Norwegian Center for Multicultural Value Creation, About, https://www.coe.int/en/web/interculturalcities/-/norwegian-center-for-multicultural-value-creation

79.Official Norwegian Report (NOU), Integration and trust – long-term consequences of high immigration/Translation chapter 1.1, 2017, https://www.regjeringen.no/contentassets/c072f7f37da747539d2a0b0fef22957f/en-gb/pdfs/nou201720170002000engpdfs.pdf

80.Olwig, K. F., ‘Integration’:Migrants and Refugees between Scandinavian Welfare Societies and Family Relations, Journal of Ethnic and Migration Studies , 37(2), 2012, https://doi.org/10.1080/1369183X.2010.521327

81.Onal, R., Yavuz, F., Religious education and multiculturalism in Norwegian curriculum, Global Journal of Sociology 2017, 7(1), https://doi.org/10.18844/gjs.v7i1.2370

82.Oddbjørn Leirvik, “The Cartoon Controversy in Norway: The New Christian Right and Liberal Fundamentalism Confronting Islam?”, Fundamentalism in the Modern World. London: I.B. Tauris, 2011, s. 125-146

83.Ostvedt M., The Finnish people of Norway – an unknown minority, 2022,

https://norwegianhistory.medium.com/the-finnish-people-of-norway-an-unknown-minority-db7ca5fe1f88

84. Parekh B., Rethinking Multiculturalism Cultural Diversity and Political Theory,London:Macmillan Press Ltd. 2002, 400 s.
85. Roald, A.S., Islam, Oslo: Pax Forlag, 2012
86. Shestak, V.A., Sventytskaia, M.Y., Legal regulation of multiculturalism in the modern migration legislation of Norway, XII Convention of Russian International Studies Association: materials of the section «Intercultural Communication», Moscow: MGIMO-University, 2019, https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3507964
87. Siim B., Migration, multiculturalism and gender – a Nordic perspective, 2015, s.71-90
88. Splash database, Migration Policies: Norway, 2016, https://splash-db.eu/policydescription/migration-policies-norway-2016/
89. Statista, Number of immigrants to Norway in 2020, 2020, https://www.statista.com/statistics/586665/immigration-in-norway/
90. Statistics Norway, "Population, immigrants and Norwegian-born to immigrants by country background, 1970-2012, Absolute numbers and per cent", 2012, https://www.ssb.no/en/befolkning/statistikker/innvbef/arkiv/2012-04-26
91. Statistics Norway, İmmigrants and Norwegian-born to Immigrant Parents at the beginning of 2022, 2022 https://www.ssb.no/en/befolkning/innvandrere/statistikk/innvandrere-og-norskfodte-med-innvandrerforeldre/articles-for-immigrants-and-norwegian-born-to-immigrant-parents/immigrants-and-norwegian-born-to-immigrant-parents-at-the-beginning-of-2022
92. Stensvold, A., Amerikansk vekkelses: kristendom i Norge. In Arne Bugge Amundsen, (Eds.), Norges religions historie, Oslo: Universitetsforlaget, 2015
93. The Republic of Azerbaijan State Migration Service, State Migration Service of the Republic of Azerbaijan, https://www.migration.gov.az/en

94. Thorvaldsen, G., Interval Migration in 19th and 20th century Norway. an overview 1865 to 1960: chapter in book 2019, https://elar.urfu.ru/bitstream/10995/73908/1/10.15826_B978-5-7996-2656-3.10.pdf
95. U.S. Department of State, 2020 report on International Religious Freedom: Azerbaijan, 2021, https://www.state.gov/reports/2020-report-on-international-religious-freedom/azerbaijan/
96. Unrepresented nations and peoples organization, Talysh: On multiculturalism in Azerbaijan, 2016, https://unpo.org/article/19736